İsfəhan **Qaimiyyə** kompüter araşdırmalar mərkəzi

# Qaimiyyə




www.Ghaemiyeh.com
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.ir

# HƏCC



DOKTOR ƏLİ ŞƏRİƏTİ

بسم الله الرحمن الرحیم

# HƏCC

:Müəllif

Məhəmməd Əhməd

:Çap nəşriyyat

Şəhriyar

:Digital nəşriyyat

İsfəhan Qaimiyyə adına komputer araşdırmalar mərkəzi

# Mündəricat


Mündəricat ----- ۵
HƏCC ----- ۸
Kitab haqqında ----- ۸
Oxucu ilə söhbət ----- ۸
Tərsinə çevrilmiş xəz ----- ۸
!Təəccüb ----- ۱۱
!Daha təəccüblü ----- ۱۱
:Birinci bölmə ----- ۱۴
İyirmi üç il, iyirmi üç gün ----- ۱۴
:İkinci bölmə ----- ۱۶
İbrahimlə vəd yeri ----- ۱۶
:Üçüncü bölmə ----- ۱۶
("Mənasek" ("həcc əməlləri" ----- ۱۶
Həcc ----- ۲۲
Mövsüm ----- ۲۳
Miqatda ehram ----- ۲۵
Niyyət ----- ۲۸
Miqatda namaz ----- ۲۸
!Ehram ----- ۳۰
Həcdə ehram halında haramlar ----- ۳۰
Kəbə ----- ۳۶
Təvaf ----- ۴۱
(Həcərül-əsvəd (Qara daş ----- ۴۳
İbrahim məqamı ----- ۴۷

(Səy (Səfa və Mərvə dağları arasında ۴۹
Təqsir”, ümrənin sonu, kiçik həcc“ ۵۳
Böyük həcc ۵۴
Böyük həcc ۵۴
Ərəfat ۵۵
Məşər ۶۰
!Haram şüur ۶۲
.Məşər səmasına nəzər sal ۶۶
Mina ۶۹
Bu sadə ümmət ۷۲
Şeytanı daşlama ۷۷
Qurbanlıq ۷۸
Kamalın ən uca zirvəsi ۸۱
İbrahim və tərəddüd ۸۶
Üç büt ۸۹
Bayram ۹۵
Bayramdan sonrakı iki gün ۹۵
Ümumi bir baxış ۹۸
Bayramdan sonra daşlama ۹۹
Vəhyin son sözü ۱۰۲
Məsələyə başqa cür diqqət etmək ۱۰۵
Həzrəti İsa və yəhud dini ۱۰۸
Təsəvvür edilməyən təhlükə ۱۱۲
Nəticə ۱۱۸
Qayıdış ۱۱۸
!Həcdən daha böyük: Şəhadət ۱۲۰

Mündəricat ---------- ١٢٢
Haqqında mərkəzi ---------- ١٢٦

# Həcc

## Kitab haqqında

Kitabın adı:Həcc

Tərcümə edən:Məhəmməd Əhməd

Nəşr edən:Şəhriyar

Çap tarixi:۲۰۰۶

Çap növbəsi:Birinci

Tiraj:۲۰۰۰

səh:۱

## Oxucu ilə söhbət

## Tərsinə çevrilmiş xəz

İxtisası dinlər tarixi olan dinşünas alim kimi (Frensis Bekonun təbirincə) “elmin quru gözləri ilə” bir sıra araşdırmalar apardım. Peyğəmbərlik və hər bir dində baş vermiş tarixi təbəddülatları tədqiq etdikdən, “nə vardı ilə nə oldu” arasında müqayisələrdən, :dinlər arasındakı fərqləri araşdırdıqdan sonra belə bir nəticəyə gəldim

Əgər hər bir dini bu dində insanın tərbiyəsi ilə məşğul olan peyğəmbərlik baxımından qiymətləndirsək, həzrət İbrahimin tövhid məktəbindəki həzrət Məhəmmədin (s) peyğəmbərliyindən mütərəqqi və güclüsünü tapa bilmərik. İslamda, həzrət Məhəmmədin (s) peyğəmbərliyində ictimai tərəqqi, özünüdərk, hərəkət, məsuliyyət, insani hədəflər istəyi, ictimai baxış, ədalət və şərəf ruhu, həqiqətpərəstlik, təbiətə baxış, maddi imkanlardan istifadə, elmi yüksəliş, quruculuq, mədəniyyət, düşüncə .mübarizəsi ruhu, xəlqçilik daha üstündür

Eyni zamanda, islam səviyyəsində mahiyyəti ört-basdır edilmiş ikinci bir peyğəmbərlik, din tanımıram. Bu dində “ nə vardı ilə nə oldu” arasındakı məsafə təzad doğuracaq bir həddədir. Bu günkü islamı dünyanın durğun dinləri ilə müqayisə edin. Olsun ki, məni bu mühakiməmə görə qınayasınız. Hər bir həqiqətin nə dərəcədə dəyişdirildiyini düzgün qiymətləndirmək üçün onun keçdiyi yolu öyrənmək, başlanğıc nöqtədəki mahiyyətini .bilmək lazımdır

Əgər həmin üsulla islam məzhəbləri arasında müqayisə aparsaq, şiəliyin digər məzhəblər arasındakı vəziyyətini islamın digər dinlər arasındakı vəziyyəti ilə oxşar .görərik

**!Təəccüb**

Digər dinlərin həqiqət və reallığı arasında müqayisə apararkən işlədilən “İxtilaf” kəlməsi islam və onun məzhəblərinə münasibətdə apardığımız müqayisələrdə uyğun .gəlmir. “İxtilaf” kəlməsinin əvəzinə “təzad” kəlməsi daha uyğundur

**!Daha təəccüblü**

Sanki maddi və mənəvi imkanlara malik bir qüvvə ən bacarıqlı filosof, sosioloq, tarixçi, şərqşünas, siyasətçi, Quran bilicisi, fəqihlərdən ibarət heyət hazırlayaraq islam mühitini, müsəlman cəmiyyətlərini, milli xüsusiyyətləri, zəif nöqtələri, adət-ənənələri son incəliklərinədək öyrənmiş və islamı sözün həqiqi mənasında tərsinə çevirmişdir. İslamda baş vermiş mahiyyət dəyişiklikləri təbii və ya təsadüfi xarakter daşımır. Bu prosesdə yad mədəniyyətlərin, milli adətlərin təbii təsirindən söhbət belə gedə bilməz. İslamda baş vermiş dəyişikliklər planlı, düşüncəli bir təcavüzün nəticəsidir. Zərgər dəqiqliyi ilə həyata keçirilən bu təcavüz islamın ən mütərəqqi cəhətlərini cəmiyyətə ən .zərərli amillərə çevirmişdir

Maraqlıdır ki, şiəlik də eyni bir taleyi yaşamışdır mə’lum olur ki, iki oxşar varlıq iki oxşar tale yaşamışdır. Şiəlik islamın ən mütərəqqi nümunəsi olduğundan, təbii ki, islamda .aparılan çevriliş nəticəsində o, daha çox zərər görmüşdür

Belə dərk etmişəm ki, islamda müsəlmanların azadlığını, hərəkətini, şərəfini təmin edən, ictimai potensial və məsuliyyət yaradan üç mütərəqqi dəyər vardır: tövhid, cihad !və həcc

Nəzər salsaq görərik ki, tövhid, yəni Allahın birliyi və şəriksizliyi təlimi məktəb divarlarını aşıb cəmiyyətdə həyat

tapa bilmir. Bu mövzuda, olsa-olsa, hikmət alimləri arasında sırf elmi mübahisələri qeyd etmək olar. Bu mübahisələr isə Allahın varlığının isbatı çərçivəsindən kənarı əhatə etmir və real həyata təsirsizdir. Guya, tövhid sırf nəzəri məsələdir və onun praktik həyatla heç bir əlaqəsi yoxdur! Guya, bu məsələ artıq həll olunmuşdur! Hansı !ki, burada düşmən əli var. Ən azı belə bir yanaşma düşmənin xeyrinədir

Bəli, artıq cihad tarixə tapşırılmış bir kəlmə olub. Cihadın fəlsəfəsini təşkil edən "əmr be məruf və nəhy əz münkər", yəni " yaxşıya əmr və pisə qadağa" düşmən əvəzinə dost !başına endirilən çomağa dönüb

!Həcc müsəlmanlar arasında hər il təkrar olunan məntiqsiz bir ənənəyə çevrilib

İmamət, aşura, intizar! Bunlar isə şiəliyin ən mütərəqqi etiqadi və əməli dəyərləridir. Müsəlmanlarda bəşəri rəhbərlik, azadlıq, mübarizə ruhiyyəsini tərbiyə edən məhz bu .üç dəyərdir

Bəs bu dəyərlərin real vəziyyəti necədir? İmamət vəzifə olmalı ikən təvəssül, yəni imamların bağışlanma üçün vasitə etmək çərçivəsində məhdudlaşdırılmışdır. Aşura sadəcə müsibət, ağlaşma mərasiminə çevrilmiş, intizar isə təslimçilik kimi təqdim olunmuşdur. Guya, əsrin imamının zühuru intizarında olmaq zülmə qarşı mübarizədən !çəkinməkdir

Bu proses incə bir siyasətlə həyata keçirilmişdir. Qəbiristana aid olan dua kitabı həyatımızda aparıcı olmuş, həyatımızda aparıcı olası Quran qəbristana aid edilmişdir. Dini mərkəzlərdə Quran hücrə rəflərinə qoyularaq, tələbələrə "üsul" adlı bir fənn təqdim olunmuşdur. Beləcə, həm Quran, həm də islam real həyatdan uzaqlaşdırılmışdır. Quran olmayan yerdə isə istənilən işi görmək olar, necə ki, .gördülər

səh:۵

Həqiqi ziyalı öz xalqı qarşısında məsuliyyət hiss edir. Əgər bu ziyalı müsəlmandırsa, o ikiqat məsuliyyət daşıyır. O, həm Allaha etiqadına görə, həm də xalqının əzablarına görə narahatdır. Cəmiyyəti ölüyə can, kora göz verən məsihi ruhunda görmək böyük əzabdır. Müsəlman və şiə cəmiyyəti əsil dirilik amili olan islami dəyərlərə münasibətdə ?hansı hissləri keçirir, hansı məsuliyyəti hiss edir

Sakit durmaq olarmı? Qərb ideologiyası xalqın dərdlərini həll edirmi? Müsəlman cəmiyyətini çulğamış mənəvi böhranda yalnız ruhaniləri məsul bilib, rahat oturmaq mümkündürmü? Əsrlərcə xəyala qapılıb, ziyalıyana söhbətlərə vaxt sərf etməyin səmərəsi nədir? Əgər islam, xüsusi ilə şiəlik risalət, yəni ilahi çağırışdırsa, bu çağırış xalqa yönəlmiş bir müraciətdir. Ziyalı bu işdə birbaşa məsuliyyət daşıdığından .xəbərdardır

Ey ziyalı həmdərdim, müsəlman həmdinim! İstəyirsən özünü xalq qarşısında, !istəyirsən Allah qarşısında məsul bil, fərqi yoxdur. Bizim məsuliyyətimiz eynidir

Düşmən bizi məhv etmək üçün hansı yolu seçib? O, bizi dinimizdən uzaqlaşdırmaq fikrindədir. Əgər bizi bədbəxt etmək üçün bu yolu seçmişlərsə, demək, biz də xoşbəxt !olmaq üçün həmin yolu getməliyik. Bəli, düşmənin uzaqlaşdırdığı yola qayıtmaq

Quranı qəbristanlıqdan çıxarıb, dirilər üçün həyata qaytarmaq! Allahın kitabını !rəflərdən endirib, sinif otaqlarına aparmaq

Düşmən Quranı məhv edə bilməyib. Sadəcə, onu təbərrükə döndərərək bağlı saxlayıb. !Onu açmaq, oxumaq lazımdır

O günü görəcəyikmi ki, məktəblərdə Quran da bir dərslik olsun? O günü görəcəyikmi ?ki, alimlik dərəcəsi almaq üçün Quranı oxumaq zəruri olsun

Əgər Quranı həyatımıza, dinimizə qaytarsaq, “tövhidi”, yəni Allahın birliyini yalnız inanc kimi yox, həm də ilahi bir dünya görüşü kimi dərk edərik. Həcc, cihad, imamət, .şəhadət, intizar kimi dəyərlər yalnız tövhid işığında dirilir

İndi isə tövhid əqidəsində həcc! Həcc haqqında deyəcəklərim, üç həcc ziyarəti və bir .səfər zamanı gəldiyim qənaətlər üç bölmədən ibarətdir

## :Birinci bölmə

### İyirmi üç il, iyirmi üç gün

Həcc ziyarəti zamanı hər bir ziyarətçi Ərəbistanda, adətən, iyirmi üç gün qalır. Uzun müddətdir həzrət Peyğəmbər, onun həyatı haqqında düşünürəm. Peyğəmbər (s) bizim üçün ən məchul dini şəxsiyyətdir. Onun həyatından yalnız mübahisələr, sünni-şiə çəkişmələri zamanı dəlil kimi nümunələr göstərilir. Nəticədə, eyni şeylər təkrarlanır. Həm də bu təkrarlar həqiqəti tapmaq yox, əvvəlcədən möhkəmləndirilmiş mövqeyi .sübuta yetirmək məqsədi daşıyır

Neçə illərdir həzrət Peyğəmbərin (s) əzəmətli şəxsiyyətini, iyirmi üç illik peyğəmbərlik yolunu ardıcıl şəkildə araşdırıram. Onun həyatı haqqında oxuduqlarımı həzrətin vətəninə dörd səfərim zamanı müşahidə etdim. Onun əhvalatlarını həmin coğrafi məkanlarda izlədim. Ərəbistanın peyğəmbər dövrünə aid sxemini hazırladım. Bu sxemdə peyğəmbər dövründəki qəbilələri qeyd etdim. Məkkə və Mədinə şəhərlərinin planını çəkdim. Həzrətin getdiyi yerləri, qonşularını, dostlarını və düşmənlərini, bütün səfərlərini, döyüş səhnələrini, həyatının özünəməxsus çalarlarını, yaşadığı yerləri, onunla bağlı olan bütün nöqtələri müəyyənləşdirdim. Bədr, Ühüd, Xəndək, Bəni-Qüreyzə, Xeybər, Fəth, Hüneyn, Taif cəbhələrini, evlərin, bəni-haşim

məhəlləsinin, Mədinədə peyğəmbər məscidinin, həzrətin arvadlarının, Fatimənin (s), Xədicənin, Əbu-Talibin, Fatimə övladlarının, səhabələrin və hətta düşmənlərin evlərinin dəqiq planını hazırladım. Yalnız bu yolla peyğəmbərin həyatını tam dəqiqliklə təsəvvür etmək mümkün idi. Bu yolla insan tarix səhnəsinə daxil olur və həmin dövrün .ictimai-siyasi mühitini hiss edir

Bəli, sən iyirmi üç günlük həcc ziyarəti zamanı məhz bu üsulla peyğəmbərlə çiyin-çiyinə ola bilərsən. Peyğəmbər (s) on üç il Məkkədə qaldığı kimi, sən də on üç gün Məkkədə qalırsan. O həzrət (s) Məkkədən Taifə üz tutduğu kimi, sən də həmin istiqamətdə yola düşürsən. Peyğəmbərin bu səfəri dəvət və savaş səfəridir. Onunla Mədinəyə köçənlər mühacir, Mədinədə onu dəstəkləyənlər isə Ənsardır. Daha sonra həzrət Peyğəmbər (s) və mühacirlərlə birlikdə Məkkədən Mədinəyə hicrət edirsən. Yolda Rəbəzə, Bədr, Qoba kimi məntəqələrdən keçib, nəhayət hər parçası peyğəmbər və onun yaxınlarından danışan Mədinə küçələrinə varid olursan. İndi isə yolun sükuta qərq olmuş Xeybərədir. O, on dörd əsr əvvəldə olduğu kimi sirlidir. Qarşıdakı təpələrdə yəhudi qüllələrini görə bilərsən. Bu qalaları bir-bir tanımaq olur. Həzrət Əlinin şimşək çaxan fəryadları hələ də bu sükutun qəlbində pıçıldaşmaqdadır. Burada həzrət Əlidən böyük xatirələr var: Həzrət Əlinin bulağı, döyüş zamanı qərargah olmuş həzrət Əli məscidi, Xeybər xurmalıqları, boş qalmış kiçik daxmalar diqqəti cəlb edir. Burada baş verən döyüşlər, döyüşlərdə cəbhələrin mövqeyi, müharibənin qoyduğu izlər son .dəqiqliklə xəritəyə köçür

Mədinədə on gün peyğəmbərlə qalırsan, həzrətin gəzdiyi küçələri addım-addım gəzirsən. Həzrət Əlinin, hətta səhabələrin ruhunu duyursan. Onları yada salan bəzi .evlər hələ də durur

Bəli, bu günkü Mədinədə min dörd yüz il əvvəlki Mədinəni xəyalında canlandırırsan. Qəlbində həmin dövrün ritminə uyğun cihad eşqi baş qaldırır. Həmin bərəkətli iyirmi üç il ərzində islam bayrağı altında dayananlarla sanki çiyin-çiyinə durursan. Həcc zamanı peyğəmbər üsuluna uyğun günlər yaşayırsan. Həzrət Peyğəmbər (s) buyurur: "Həccə gəlib, Mədinədə məni ziyarət etməyən kəs mənə zülm etmişdir". Əgər Məkkədə Kəbəni ziyarət edən şəxs tövhid və İbrahim məktəbini tanıyırsa, Mədinənin ziyarəti zamanı islam və islam peyğəmbərinin siması canlanır. Mədinədə on gün peyğəmbərlə yaşayır, onun getdiyi yerlərə qədəm qoyursan. Bu dəyərli saatlarda ömrünün mənasız .keçmiş anları üçün təəssüf edirsən

**:İkinci bölmə**

**İbrahimlə vəd yeri**

Adəm, İbrahim, tövhid, tarixi fəlsəfə, islamın insanlıq risaləti, tövhid və şirkdə düşüncə .tərzi, həccin əsil siması və fəlsəfəsi

**:Üçüncü bölmə**

**("Mənasek" ("həcc əməlləri"**

Mənasek" hansı mənada işlənmişdir? Bu sözün kökünə nəzər salsaq, görərik ki," "Mənasek" dedikdə pərəstiş, paklıq, pəhrizkarlıq, razılıq, Allah qarşısında mütilik, insanı məbuduna yaxınlaşdıran hər bir şey, yuyunmaq və pak geyinmək, Kəbəyə çatmaq, doğru yol və gözəl yerişlə getmək, davamlı olmaq, Allaha aid haqlar, ona təqdim ...olunan qanlar

Mənasek" yerinə yetirən insan "nasek" adlanır. O, pəhrizkarlıqla pərəstiş edən" insandır. Nasekin yeri yenicə yağış yağmış yaşıl örtüklü dilbər bir guşədir. Bu yer ("mənsek"-" ibadət və qurbanlıq yeri") qəlbi riqqətə gətirir. Bu yol həqiqət axtaran hər bir ümmətin üzünə açılmış yoldur. Mənasek həcc ayinini heç də tam əhatə etmir. Sadəcə bir qism həcc əməlinin adı mənasekdir. Deməк, bu hərəkətlər, hər birinin .zamanı olan nizamlı ibadətlər həccin tərkib hissəsidir

Mən, sadəcə, bu ayinlər haqqında öz mülahizələrimi yazmışam. Mənim haqqında danışdığım mənasek daha çox mahiyyət və düşüncə yönümlüdür. Mən həccə tərif vermirəm. Mənim düşüncələrimi əsas götürərək "həcc belə olmaz, belə olar" demək yersizdir. Mənim dediklərim heç bir müsəlman üçün vəzifə deyil. Mən din alimi kimi yox, ziyarətdə olmuş sadə insan kimi fikirlərimi oxucularla bölüşürəm. Bütün həccə gedənlərin ixtiyarı var ki, geri qayıtdıqdan sonra öz fikirlərini açıqlasınlar. Artıq, adətdir ki, biri ziyarətdən gələndə onun görüşünə gedib, söhbətlərini dinləyirlər. Bu yolla həcc məsələsi daha geniş kütlələr arasında söhbət mövzusuna çevrilir. Bu söhbətlər böyük həcc məktəbidir. Əlbəttə ki, müsəlmanların çoxu həcc mərasimində iştirak edə bilmir. Hər halda, həccə gedənlərin çoxu həcc mərasimi haqqında yetərincə məlumatlı olmur. Həccin dəyərini anlamadan həccə gedən şəxs həyatının ən dəyərli ola biləsi anlarını havaya sovurur. Əslində, bu ziyarət zamanı gözəl şərait ardınca qaçmaq həccin .ruhuna uyğun deyil

Həcc mərasiminə dünyanın ən geri qalmış ölkələrindən gəlmiş bir milyondan çox müsəlmana həcc əməlləri öyrədilməlidir və bu məsuliyyəti daşıyanlar var. Həcc dünya .müsəlmanları üçün bir aylıq islam məktəbinə çevrilə bilər

Bu mərasimdə milyondan çox müsəlmanın əsil tövhid məktəbini tanımaq imkanı var. Bu böyük iş həyata keçərsə həccə gedənlər öz vətənlərinə yalnız dolu çantalarla yox, həm də dolu və işıqlı bir ürəklə qayıdarlar. Onlar öyrəndiklərini öz camaatına öyrədər və həcc bulaq tək qaynayar. Müsəlmanlar hər il düşüncə və iman zülalından şərbət hazırlayar, hacı yalnız qara daşı öpməyi ilə yox, könlündəki nur ilə tanınar. Belə bir hacı öz qaranlıq mühitini işıqlandırar, öz idrakı sayəsində yüzlərlə insanın dini əqidəsini möhkəmləndirər. Təsəvvür edin ki, hər il müqəddəs Kəbədən islamı ruhu ilə hiss etmiş bir milyon müəllim dünyanın ucqar nöqtələrinə səpələnir. İki halda insanlarla .görüşmək imkanı asandır: Həcc ziyarətindən qayıdarkən, bir də ölüm zamanı

İldə bir dəfə, müəyyən bir zamanda həcc haqqında düşünmək məqamıdır. Ölümün isə !vaxtı bilinmir. Ölüm öz qurbanını xəbərdar etmir. Ayıq ol! Vaxt ötür

Həcc bütün əqidələr arasında ən üstün ayindir. Namaz, ruhu dünyanın mənəvi mərkəzinə doğru cəzb edir. Viktor Hüqonun təbirincə " sonsuz kiçiyin sonsuz böyük .qarşısında durması"! Bu söz müxtəlif dərəcələrdə olsa da dəyişməz bir məfhumdur

Cihad əqidə savaşıdır. Amma onun necə dərk olunması mücahidin düşüncə .dərinliyindən asılıdır. Bu deyilənlər oruca, zəkata və sair hökmlərə də aiddir

?Amma həcc... Kim ona bir neçə sözlə tərif verə bilər? Həcc nədir

Bəlkə də bu sualın cavabı həccə gedənlərin sayı qədər çoxdur. Hər halda, həcc xalqla birlikdə özündən Allaha doğru hərəkətdir. Həcc "mütəşabeh" bir hökmdür. Quran ayələri iki qismə bölünür: "Möhkəm və mütəşabeh. "Möhkəm" ayə dedikdə yalnız sabit bir məna daşıyan ayələr nəzərdə tutulur. "Mütəşabeh" dedikdə isə eyni zamanda bir

neçə məna daşıyan məfhum başa düşülür. “Mütəşabeh” məfhumun ən dərin mə’nası gizli qalır. Həmin “mütəşabeh” ayələr zaman keçdikcə öz əsrarını alır və düşüncələri .heyrətdə qoyur

Dürr sədəf adlı qabda qorunur. Bəzən əsrin düşüncəsi mütəşabeh ayənin sədəfinə .nüfuz edə bilmir

Beləcə, Quranı həm bədəvi ərəb öz ehtiyacı qədərincə anlayır, həm də böyük filosoflar Quranın sirlərindən heyrətə gəlir. Elə bil ki, ağaca dırmana bilməyən bir kəs onun kölgəsində oturur. İkinci bir şəxs yarpaqlarını qırıb istifadə edir, üçüncü şəxs meyvəni əldə edə bilsə də ona dişi batmır. Dördüncü şəxs isə meyvəni yediyi vaxt onun içindəki .dənlərdən istifadə edə bilmir

Quran əbədidir. Kimsə Quran sirlərinin nəhayətinə çatmaq gücündə deyil. Bu ilahi .kitabda hər kəsin faydalana biləcəyi bitib tükənməyən mənalar var

Zənnimcə, dini hökmlər də ayələr kimi möhkəm və mütəşabeh olur. Məsələn, cihad möhkəm hökmdür, həcc isə mütəşabeh hökm. Mütəşabeh hökmün dərk olunmasını çətinləşdirən onun simvolik dildə ifadə olunmasıdır. İkinci bir çətinlik odur ki, bu rəmzi !dil söz yox, hərəkətdən ibarətdir. Tərpənməz bir hərəkət

Həcci mütəşabeh edən yalnız dil yox, həm də mahiyyətdir. Həcc o qədər də sadə deyil ki, onun mahiyyətini konkret bir zamanda müəyyən bir nəsil üçün açıqlayasan. Dünya .durduqca bu mahiyyət sivilizasiyanın səviyyəsinə uyğun açıqlanasıdır

Həcci bir buyuruq, bir dəyər kimi izah etmək mümkünsüzdür. Həcc bütöv bir islamdır. İslamın sözü Quran, imamı insanlar, hərəkətləri isə həccdir. Sanki, islamda nə varsa .həcdə ifadə olunmuşdur

Dünyagörüşü fəlsəfəsindən tutmuş insanın yaranış fəlsəfəsinədək, insanın yer üzündə peyda olmasında mərhələlər keçib kamal zirvəsinə çatmasınadək bütün hərəkətlər ali bir məqsədə doğru yüksəlişdədir. Bütün yüksəlişlərin dayanacağı sonsuz kamal sahibi .olan Allahdır

Hidayət məsələləri, əxlaqi dəyərlər, imamət, ümmət, məktəb, cəmiyyət, mədəniyyət, siyasət, təbəqələr və saylar arası birlik, əqidə birliyi, isar, təqva, cihad, şəhadət, qan, eşq, qələbə, azadlıq və digər mütərəqqi dəyərlər tövhid dünyagörüşündən ruh .almışdır

.Bu dünyagörüşündə iman həyatdan, bəndəlik qurtuluşdan təcrid edilməmişdir

?Mən həcdən nə başa düşmüşəm? Ümumiyyətlə həcdən nə başa düşmək olar

Həcc, ümumi cəhətdən götürülərsə, insan vücudunun Allaha doğru hərəkətidir. Həcc Adəm övladının yaranış fəlsəfəsinin rəmzi nümayişidir. Qısa desək, həcc yaranış nümunəsidir. Həcci tarix, tövhid, məktəb, ümmət nümunəsi də hesab etmək olar. Bir sözlə, həcc insanın yaranışının, islam məktəbinin rəmzi nümayişidir və bu nümayişin yaradıcısı hər şeyin yaradıcısı olan Allahdır. Nümayişin dili hərəkət, əsas ifaçıları Adəm, İbrahim, Hacər və İblis, səhnələri Məscidül-həram, Səfa və Mərvə arası, Ərəfat, .Məşər, Mina, simvolları Kəbə, Səfa və Mərvə, qurbanlıq, pak libas və bəzənmədir

Çox maraqlıdır! Bu səhnədə baş rolda sənsən. Sən həm Adəmin, həm İbrahimin, həm də Hacərin rolunu ifa edirsən. Bu səhnədəki ifaçının nə yaşı, nə milləti, nə rəngi, nə də cinsiyyəti heç bir rol oynamır. Bu səhnədə bütün rolları yalnız bir nəfər ifa edir. Maraqlıdır ki, səhnədəki milyondan artıq insanın hər biri baş roldadır. Mərasimə özünü yetirə

!bilən hər bir kəs səhnənin qəhrəmanı olur. Bəli, islam bütün insanlara bir gözlə baxır

Bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir kimsəni öldürən“ bütün insanları öldürmüş kimidir. Belə bir kimsəni dirildən bütün insanları diriltmiş (kimidir”.(١)

Sən, Allah-təalanın həcc mərasimində insana verdiyi dəyərə bax! Dünyanın işinə bax! Allah peyğəmbərlərinin izi ilə gedib, peyğəmbərlər qədər azad rəftar edən insana .bədbəxt deyilir. Əlbəttə ki, bu düşmənin çirkin ittihamıdır

Məgər dünya tarixində müsəlmanlar qədər haqqı tapdalanan varmı?! Həzrət Əlinin , o ”!Kəbə oğlunun təbirincə, “həccin dərisini də əyninə tərsinə geydiriblər

Mən həcdən nə anladım? Axı sonsuz kiçik bir fərd sonsuz böyük bir gözəllikdən nə !?anlaya bilər

.Hər halda, düşüncələrimi əziz oxucu ilə bölüşürəm

.Əgər həcc əməllərini öyrənmək istəyirsənsə risalədən həcc bəhsini oxu

.Əgər həccin mənasını dərk etmək istəyirsənsə, islamı dərk et və insanı tanı

.Amma yalnız mənim həcdən nə dərk etdiyimi bilmək istəsən bu kitaba nəzər sal

.Olsun ki, bu kitabda oxuduqların həcc həqiqətini anlamaqda kiçik bir təkan ola



---

.Maidə”, ٣٢“ [١]-١

Həcc hərəkəti sənin özündən, həyatından, bütün dünyəvi bağlılıqlarından uzaqlaşmaqla başlayır. Həcc sükutun ölümü, ölümün həyatıdır. Elə bir ölüm ki, nəfəs !alır, yaşayır. Həcc, yəni hərəkətə gəl

Bəs həyat nə? Təkrar-təkrar get-gəllər, bihudəlik! Əsas işi nə? Qocalmaq! Bəs son nəticəsi? Çürümək! Başdan ayağa Sizif əzabı! (Qədim yunan mifologiyasında tanrıları aldatdığı üçün Sizif belə cəzalandırılır: onun çiynində dağa qaldırdığı böyük qaya parçası zirvəyə çatan kimi aşağı diyirlənir. Sizif həyatı boyu bu daşı qaldırmağa məhkumdur.) Gündüzün ardınca gecə, gecənin ardınca gündüz gəlir. Bir ağ siçanla .qara siçan ömür kəndirini asta-asta gəmirərək ölüm ucuna doğru irəliləyir

Həyat? Gündüz və gecələr davam edən mənasız və duzsuz səhnələr. Nədən ötrü çalışırsansa, ona çatan kimi bir boşluq yaranır. Bu günkü dünyanın yolu: puç nihilizm !fəlsəfəsi

Bəs həcc nədir? Həcc sənin bu əbləhanə, məlun Sizif həyatına qarşı qiyamındır. Həcc sənin düşdüyün quyudan çıxmağındır. Səni yerindən tərpənməyə qoymayan buxovlar bir inqilabi niyyətlə parça-parça olur. Sən bu qaranlıq dairədən çıxdıqdan sonra qarşında əbədiyyətə doğru dümdüz köç yolu uzanır. Bu yol batildən həqiqətə, .müvəqqətilikdən əbədiyyətə, Allaha doğru aparan yoldur

Sən bu gün tavanı və divarları bəzədilmiş, büllur çilçıraqları, göz qamaşdıran döşəməsinə, çeşidli xalılar sərilmiş evində həyatını başa vurmaq üçün yaradılmamısan. Dünyada sənin evindən çox-çox ucada dayanan bir ev də var. O evin bəzəyi Allahın lütf və mərhəməti və üzərində dövrə vuran mələklərdir. Həcc sənin öz qaranlıq və dar yuvandan Allahın nura qərq olmuş Kəbə evinə səfərindir. Ey Adəm

övladı! Tarix, dünya, pozğun cəmiyyət səni dəyişmiş, fitrətini tərsinə çevirmişdir. Sən ilkin yaranışda zərr aləmində insan idin, Allahın xəlifəsi idin, Allahın həmsöhbəti idin. Allah səni özünə əmanətçi, təbiətə hakim etmişdir. O sənə öz ruhundan üfürmüşdü, sənə bütün adlarını öyrətmişdi. O səni elə yaratmışdı ki, özünə afərin demişdi. Səni yaradıb, bütün mələkləri sənin ayağına çağırmış, yerlə göy arasında olanları sənə təslim etmişdi. O səninlə əhd bağlayıb, özü isə fitrətində oturdu. İndi də gözləyir ki, sən .nə edəcəksən

Sən tarix yolunu tutub yola düşdün. Allahın əmanət yükü çiyinində, əhd-peymanı əlində, sənə öyrətdiyi adlar qəlbində və Allahın ruhu varlığında! Bəs işin nə oldu? !Sərmayəndən yemək! Sənətin ziyankarlıq! Bir başa sərmayədən ziyan

And olsun əsrə ki, insan daim ziyandadır!” Bu ziyankarlığın adını həyat qoydun.“ .Ömrünün dəyərli illərini əldən verdin

Ey Allahın əmanətinin məsulu, ey mələklərin səcdəgahı, ey Allahın yer üzündəki xəlifəsi, özünü nə hala salmısan?! Sənin varlığın pula, şəhvətə, qarına, yalana, yırtıcıya, tüstüyə, içi boş köpüyə dönmüş! Yoxsa üfunətli palçıqdan yarandığını unutmusan?! Hanı Allahın sənə üfürdüyü ruh. Ey nəcasət üstünə qonmuş qarğa, özünü xilas et, sahilə çıx, bu qarışıq şəhərdən özünü günəşli səhraya yetir. Həmin vəhy yağışının islatdığı qumluqlarda üzünü Allaha tut və ney tək fəqan edib qəribliyindən, sürgündən, biganəlikdən danış. Ey biganələrin və düşmənlərin şadlığı, ey biganələrə təranə qoşan, !özünə qayıt, öz ahənginə dön

**Mövsüm**

Artıq görüş vaxtı gəlib çatdı, zilhəccədir, həcc ayı! Qılınclar susmuş, döyüş atları .səhralarda sakit dayanmışlar

Yer müharibələrdən, kin-küdurətlərdən möhlət almışdır. Bəşəriyyətin Allahla görüş vaxtıdır. Xalqla birlikdə Allahın hüzuruna getmək vaxtıdır. Yoxsa torpaq altdan həzrət .İbrahimin həccə çağırış harayını eşitmirsən

Ey üfunətli torpaqdan yaranmış, Allahın ruhunu axtar, sorağını Ondan tut, Onun evinin ahənginə dön. O səni gözləyir, dəvətinə "ləbbeyk" söylə. Sən yalnız Ona doğru olanda !varsan, ey yoxluq

Həcc mövsümüdür, qurtuluş mövsümüdür. Bu dar dünyadan, səni qul etmiş şəxsiyyətindən qurtul. Onun ahəngini tut, Adəmin əbədi hicrət nişanəsi olaraq, Allaha .üz tut, həccə yola düş

Borclarını ödə, kin-küdurətdən çıx, kiminlə hesabın varsa təmizlə, hamıdan halallıq al, hər şeyi sahmana sal. Elə düşün ki, bu sənin son səfərindir. Bu sənin əbədiyyətə doğru səfərinin nümayişidir. Ona görə də vəsiyyətlərini et. Elə bil ölüm səhnəsini məşq edirsən. Onsuz da o ölüm bir gün zorla yaxandan yapışası və ardınca çəkəsidir. İndi isə ölüm yox həccdir. Get Allahla əməllərinin hesabını çək. Qiyamət

səhnəsində hesab zamanı belə bir imkanın olmayacaq. O zaman bədən üzvlərin bircə-.bircə sorğuya çəkiləcək və geriyə yol olmayacaq

Hələ ki, əməl dünyasındasan. Hesab dünyasına çatanadək özünü hazırla. Ölümdən !qabaq ölümü yoxla. Həccə yola düş

Həcc mütləq əbədiyyət olan, hədsiz-hüdudsuz Allaha doğru səfərdir. Bu hərəkət mütləq kamala, mütləq gözəlliyə, mütləq elm və qüdrətə, bir sözlə, mütləqə doğru qayıdışdır. Yəni sənin əbədiyyətə doğru hərəkətinin sonu yox, məqsədi Allahdır. Allah bu səfər xəttində son nöqtə deyil. Bu yolda son nöqtə yoxdur. Bu yol heç zaman bitib .tükənmir. Allah bu yolun son mənzili yox, cəhətidir

Bu sufilik yox islamdır. Bu fəna yox hərəkətdir. Onda bitmir, Ona doğrudur. “Hamı Allah (tərəfindəndir və Ona doğru qayıdasıdır.”(١)

Allah səndən uzaq deyil ki, Ona çatasan. O, sənə sənin özündən də yaxındır. Sən .özündən, ruhundan, həqiqətdən uzaqlaşdığın halda, o, əsil sənə yaxından yaxındır

Həcc mövsümüdür. Görüş vədi yaxındır. “Miada” (vədə), “miqata” (görüş yerinə) tələs! Ey Allahın xitab etdiyi, görüş vaxtıdır. Ey mələklərin səcdə etdiyi, tarix səni dəyişmiş! Həyat səni heyvana çevirmiş! Axı zərr aləmində Allaha söz vermişdin ki, yalnız və yalnız Ona itaət edəcəksən!? İndi isə özünə büt yonur, nəfsinə və zalımlara qul dayanırsan. Ey yer allahlarına pərəstiş edən cahil, ey ömrünü bada vermiş qafil, ey qorxu və tamahın qurbanı! Mələklərdən uca durmalı ikən dünya səndə canavar, tülkü, !siçovul xislətləri yaratdı

Səni insan yaratmış Allahla görüş vaxtıdır, ayağa qalx! Bərbəzəkli saraylardan, zər-!zibalı məişətdən, çobanı canavar olan sürüdən baş götürüb Allah evinə doğru qaç

## Miqatda ehram

Miqat həcc nümayişinin başlanğıc anıdır. Allahla görüşə çıxmaq qərarına gəlmiş insan bu dayanacaqda libasını dəyişir. Libas! İnsanın kimliyini özündə gizlədən cild! Yalan və küfr dolu bir örtük. Küfr həqiqəti örtən deməkdir. Libas sözünün mənası isə “iltibas” , yəni “səhv” deməkdir. Beləcə canavar, tülkü, siçovul, ilan, özünü itirmiş bir varlıq isə .insanlıq libası geyməklə ətrafındakıları aldadır, onları səhvə düçar edir



---

.Bəqərə”, ١٥٤“ [٢]-١

Əslində sadəcə örtük olası libas insan şəxsiyyətinin ölçüsünə çevrilir. İnsanlar bir-birindən fərqlənir, mənəm-mənəmlik yaranır, libas da bir tanrıya çevrilir. İnsanlar .təbəqələrə parçalanır

İnsanlar arasında sərhədlər çoxdur. Qabil Adəm ailəsində təfriqə yaradıb tövhidi parça-parça etdi: ağa-nökər, hakim-məhkum, tox-ac, varlı-kasıb, zalım-məzlum, güclü-zəif, yalançı-aldanmış, mənəviyyatçı-maddiyyatçı, xoşbəxt-bədbəxt, ağ-qara, .şərqli-qərbli, ərəb-əcəm və s

Bəşəriyyət irqlərə, millətlərə, millətlər tayfalara, cəmiyyətlər təbəqələrə parçalandı. !Bu parçalanma fərdə qədər kiçildi və hərənin də öz dərəcəsinə uyğun libası

Miqatdasan. Çıxar əynindəki libasları və ehram adlanan iki hissədən ibarət olan kəfənə bürün! Bu ağ rəngli libas səni hamıya qatdı, “mən” olmaqdan qurtardı. Dəryada ərimiş !damlaya döndün

,Özünə “mən” deyib düzəlmə yola

?!Yaşarmı, dəryadan ayrıla damla

Elə bir varlığa çevril ki, öz yoxluğunu hiss edəsən. Ölüm gəlməmişdən qabaq öldüyünü .zənn et. Artıq əynindəki ölüm paltarıdır

Bura miqatdır! Dünyanın sənin canına hopdurduğu heyvani xüsusiyyətləri miqatdaca .yerə tök və insan ol! Axı sən əvvəl də insan idin

Ehramın bir hissəsini çiyninə at, o biri hissəsini isə kəmərindən bağla. Ağappağ, tikişsiz, bəzəksiz örtüklərdə sanki insanlar öz varlıqları ilə okean yaratmışlar. Sən bu libasda .insanı insandan fərqləndirməkdə çətinlik çəkirsən

Dünyanın müxtəlif ölkələrindən müqəddəs Kəbəyə doğru axışan insanlar üçün bir .neçə miqat dayanacağı vardır

Bu miqatdan yalnız Allaha doğru hərəkət mümkündür. “Ona sarı olmayan hər şey fani olasıdır.”(۱)

(Allah mütləq varlıq, mütləq kamaldır. “Göylərdə və yerdə kim varsa ondan diləyir”.(۲)

Həcc məqsədi ahəngini tutmaq, insanın Allaha doğru qayıdışının nişanəsidir. Bütün mənlərini, nəfs istəklərini miqatda dəfn et. Öz ölümünə şahid ol. Öz qəbrinin ziyarətçisinə çevril. Həyatının son nəticəsini özün müəyyənləşdir. Miqatda öl, miqatla miad arasındakı səhrada diril. Bu üfüqdən üfüqə ağ kəfən geyənlərin qiyamət səhrasıdır. Burada kimsə kimsəni tanımır və hərə öz hayındadır. Lap qiyamət günündəki kimi! Sanki min illər boyunca ölənlər dirilmiş, heyrət içində məhşər səhnəsində durmuşlar. İnsanlar maqnit sahəsindəki zərrələr tək bir mərkəz ətrafında .fırlanmaqdadırlar. Burada nə irq var, nə də millət

Səni tanıtdıra biləcək libaslarını çıxar, məhşər səhnəsindəki insan selində əri. Dünya ilə !bağlı bütün xatirələrini düşüncənə haram et, ehram bağla

Miqatda bütün “mənlər” məhv olur və “biz” yaranır. Sanki insanlar dərisini dəyişib yeniləşir. Sən də öz şəxsiyyətini dəfn et, ümmətə qatıl. Minadan çıxarkən mənlərdən böyük bir cəmiyyət düzəlir. Çünki həzrət İbrahim parçalanmalardan uzaq vahid ümmət idi. Sən də İbrahim olmaq ardınca gedirsən! Bir-birinə qatılmış insanlar tövhidə, vahid ümmət olmağa can atır. Məqsədə doğru hərəkət, qibləyə doğru ictima, !kamal üçün izdiham, imamət

Sən və sənin kimilər dünyanın dörd bir yanından özlərinə arxa çevirərək Allaha üz tutmuş, dünya zindanından axirətə doğru hərəkətə başlamış, nisbilikdən mütləqə doğru



---

۱- [۳] “Qəsəs”, ۸۸.
۲- [۴] “Ərrəhman”, ۲۹.

can atmış, agahlığa üz tutaraq cəhalətə arxa çevirmiş, şirkdən tövhidə dönmüşlər. Miqata çatmısınız, ehram libasını geymisiniz, məninizi dəfn etmisiniz. Bu əsil qiyamət .səhnəsidir. Burada qədim dostlardan, qohumlardan soraq yoxdur

Bu insanlar uzun illər boyu öz insanlıqlarını unutmuş, zülm etmiş və ya zülmə boyun əymişlər. İndi isə hamı sadəcə insan olmuş, bütün adlar unudularaq, yalnız hacı adı .ortaya gəlmişdir

## Niyyət

Həccə giriş zamanı hər şeydən öncə niyyət etməlisən. Niyyət bir işi görmək qərarına !gəlməkdir. Niyyətin Allaha doğrudur. Allah yardımçın olsun

Müsafirət uzaqlara səfər, niyyət qəlbin ilahi bir həqiqətə köç məqsədi! Miqatda insan əzəmətli bir dəyişiklik astanasındadır. O, öz evindən ümmətin evinə, nəfs istəklərindən eşqə, özündən Allaha, əsirlikdən azadlığa, kin-küdurətdən mərhəmətə adlamaq üçün .böyük bir inqilabdan keçməlidir

Niyyət et! Qönçə vuran xurma kimi! İç boşluğunu agahlıqla doldur, boş varlığını imanla bəzə və var ol. Qaranlıq qəlbini işıqlandır, cəhaləti qov, Allahından və özündən xəbərdar ol! Ey daim başqalarına alət olmuş, ey həmişə çarəsiz qalmış, insan olmaq üçün fürsət düşüb. Azad şəkildə niyyət et. Niyyət et ki, eqoist mənindən Allaha doğru !əbədi səfərə çıxırsan. Yol, cəhət, iş, varlıq, elə sən özün də, hər biriniz təzəsiniz

## Miqatda namaz

Miqatda niyyət edirsən və həccə başlayırsan. Başladığın işi canınla, qanınla hiss et, .xəyalını təmizlə

səh:۲۱

Gördüyün işlərin mahiyyətin dərk et. Ehram bağlayıb ehram namazına durursan. Yeni libasında Allaha üz tutaraq ərz edirsən: "Allahım, mən indi nə İbrahimi oda atan Nəmrudun qulu, nə də canavar və tülkü dərisinə girmiş hiyləgərəm. Mən indi insan .libası geymişəm. Sabah sənin görüşün üçün ayağa qalxmalıyam

Yəni, öz xarakterimdən və kimliyimdən xəbərdaram. Bilirəm ki, heçəm. Sənə itaətlə bəndən olmaq istəyirəm. Səndən başqa hər şeydən azadam. Öz həyatımın sonluğundan xəbərdaram. Bəndə üçün təyin edilmişləri seçirəm, onu təkrarlayır, bir .növ, məşq edirəm

Ağ ehram kəfənində miqatda namazın mənası başqa imiş! Sanki dediyim kəlmələri ilk dəfə eşidirəm. Bu, əvvəlki ibadətlərin təkrarı deyil. Allahla söhbətdəyik, onun hüzurunu .hiss edirik

Ey Rəhman! Dosta nəvaziş göstərirsən! Ey Rəhim! Sənin mərhəmət günəşin küfr və iman, paklıq və çirkinlik, hətta dostluq və düşmənlik sərhədlərini də işıqlandırmış. Səndən başqasını tərif etmək fikrində deyiləm. Həmd sənə məxsusdur. Səndən qeyrisini özümə ağa seçməyəcəyəm. Hamının rəbbi, din gününün sultanı sənsən. Bütün bütlərimi sındırıram, bir daha səndən başqasına sitayiş etməyəcəyəm. Bundan sonra yalnız səndən yardım diləyəcəyəm, ey yeganə ümid yerim! Bizi, cəhalət yolunda azmışları, zalımlara oyuncaq olmuşları doğru yola çək, kamal və eşqə yönəlt. Bizi dost !tutub, nemət verdiklərinin yoluna yönəlt, qəzəbinə gəlmişlərin yoluna yox

Miqatda ağ qiyamət libası olan ehramla etdiyimiz hər rüku qorxu, istək və ya müqəddəs bilmə səbəbindən əyilməyimiz, hər səcdə zəlilliklə torpağa alın .qoymağımızdır

səh:۲۲

Miqat namazı! Hər qiyamı və əyilməsi bir mesajdır. Bu elə bir əhddir ki, deyirik: “Ey !tövhid Allahı! Bundan belə yalnız sənin qarşında duracaq və əyiləcəyik

Salam olsun sənə, ey Məhəmməd, Allahın bəndəsi və elçisi! Allahın rəhmət və bərəkətinə çatasan ki, bu dünyada, bu yer üzündə ilahi mərhəməti Adəm övladına ruzi !etmisən

!Bizə və pak, saleh bəndələrə salam olsun

!Sizə salam olsun

Bu kəlmələr miqat namazında cana gəlir, hər biri öz ünvanına çatır. Orada hamı iştirak .edir

Miqatda kimsənin yeri boş deyil: Allah, İbrahim, Məhəmməd (s), xalq, ruh, qiyamət, .behişt, qurtuluş, azadlıq, eşq, hər biri oradadır

Sən isə Adəm, xalq, vəhdət, şəffaflıq, təqva ölüm libası olan ağ və bər-bəzəksiz .ehramdasan

### !Ehram

Sən ey Adəm! Allahın qovduğu, İblisə oyuncaq olan, yerə sürgün olunmuş, tənhalığa !məhkum! İndi peşman halda üzr istəmək üçün ona doğru hərəkətdəsən

Sən azadlığın zirvəsi olan bir məcburi vəzifə seçmisən. Bu ehram libasında ehtiyatlı ol. .Haramlardan qorun

?Ehram, yəni haram etmək! O, nələri haram edir

### Həcdə ehram halında haramlar

Özünü, digərlərini, dünya həyatını, kimliyini yada salan hər şey! Burnuna dünya !həyatının qoxusunu gətirən, ölümü yadından çıxaran hər şey

:Əgər konkret sadalasaq

.Güzgüyə baxma! Bununla da özünü yaddan çıxar .۱

səh:۲۳

۲. Ətir vurma! Burnuna dəyən xoş ətir həyatı yadına sala bilər. Burada fəza başqa bir ətirlə doludur. Allahın eşqini qoxula, məst ol!

۳. Kimsəyə göstəriş vermə! Qardaşlığı, bərabərliyi dirilt.

۴. Heç bir heyvanı incitmə, hətta həşəratları öldürmə. Hətta zorla uzaqlaşdırma. Bu bir neçə günü həzrət Məsih kimi yaşa.

۵. Yerdən ot qoparma, sındırma. Təbiətlə sülhü öyrən. Təcavüz ruhunu özündə boğ.

۶. Ov etmə, qəlbində bərkliyi öldür.

۷. Cinsi yaxınlıq qadağandır. Hətta həvəslə baxma. Qoy ilahi eşq xeymələri könlünü başdan-başa bürüsün.

۸. Evlənmə, (həcc vaxtı!) izdivac mərasimində iştirak etmə.

۹. Bəzənmə, özünü oluğun kimi saxla.

۱۰. Pis danışma, yalan və təkəbbürdən həzər qıl.

۱۱. Tikilmiş və ya tikilmişə oxşar paltar geymə. Ehramında bir sap da olmasın ki, başqalarından fərqlənə.

۱۲. Silah götürmə, hətta zərurət olsa tapılmasın.

۱۳. Başını kölgədən gizləmə. Çətirdə, kəcavədə, avtomobildə kölgələnmək qadağandır.

۱۴. Ayaqlarının üstünü corab və ya ayaqqabı ilə örtmə.

۱۵. Bəzənmə, bəzək taxma.

۱۶. Başını bağlama.

۱۷. Tük qoparma.

۱۸. Kölgə altına getmə.

.Dırnaq tutma .۱۹

.Krem vurma .۲۰

.Öz bədənini və ya başqalarınkını qanatma, qan aldırma .۲۱

.Diş çəkdirmə .۲۲

səh:۲۴

.And içmə .۲۳

Həcc başlamışdır, hərəkət Kəbəyə doğrudur. Ehram paltarında haramlardan . ۲۴ !qorunaraq, “ləbbeyk” “ləbbeyk” deyərək Kəbə evinə tələs

!Allah səni dəvət etmiş, “gəl” demiş, indi isə sən “ləbbeyk” deyə cavab verməlisən

Ləbbəykə əllahummə ləbbəyk, innəl həmdə vən-nimətə ləkə vəl-mulk, la şərikə ləkə“ ”!ləbbeyk

Bəli, Xudavənda, bəli, sitayiş və nemət səndəndir, səltənət də! Sənin şərikin yoxdur,“ ”!bəli

Həmd, nemət və mülk! Yenə həmin üç qüvvənin inkarı: təcavüz, istismar, istibdad – !tarixə hakim olmuş üçlük. Tülkü, siçovul, canavar! Hər şey xalqın başında çatlayır

Səhrada Allahın sədası eşidilir. Bu nida zərrələri bütün fəzanı doldurmuşdur. Hər kəs ”!bu nidanı özünə xitab olaraq eşidirsə, ürəkdən fəryad çəkir: “Bəli, Allahım, bəli

Sən bir dəmir qırıntısı kimi həmin maqnit qüvvəsi tərəfindən cəzb olunduğunu hiss edirsən. Anlayırsan ki, səni aparan daha bu ayaqlar deyil. Sən aparılırsan, ayaqların da ardınca sürünür. Sanki qolların güclü qanadlara çevrilmiş və sən ağappaq quş ...dəstələri ilə uçursan, merac edirsən, simurğa tərəf gedirsən

Kəbə get-gedə yaxınlaşır. Qəlbinin döyüntülərini eşidirsən. Sanki içində yaralı bir yırtıcı vurnuxaraq, səni baş götürüb qaçmağa təhrik edir. Özündən, eqoist mənindən bir boy ucaldığını duyursan. Artıq dolduğunu, özünə sığmadığını hiss edirsən. Göz yaşları aman vermir. Asta-asta Allahın hüzuruna endiyini duyursan. Onun hüzurunu canında, qanında, düşüncəndə, qəlbində hiss edirsən. Yalnız Onu görür, Onu hiss edirsən. Yalnız !O, həqiqətdir, qalan hər nə varsa yalan, fəna

səh:۲۵

Səhrada eşq yağmışdır və torpaq nəmdir. Sanki adamın ayağı gülzara batır, eşqə batır...

Getdikcə yox olduğunu hiss edirsən. Özündən uzaqlaşırsan, Ona yaxınlaşırsan. Hər şey Ona qayıdır. Sən artıq yoxsan, bir xatirəsən, unudulmuş bir xatirə. Miqatda "mən" yükünü yerə qoydun, yüngülləşdin. İndi ağırlıqsız-filansız miada üz tutmusan.

Artıq sən bir zərrə şövqə dönmüsən. Yalnız hərəkət və cəhət! Geriyə addım atmağa haqqın yoxdur. Üzü Ona, Onda fəna olursan.

Varlığın sıxılır, fəza Onunla dolur, sən də onunla dolursan.

Məkkəyə çatmaqdasan. Şəhər yaxındadır. Burada hərəmin (Kəbənin) həddini bildirən əlamətə çatırsan. Məkkə hərəm məntəqəsidir. Bu məntəqədə savaş və təcavüz haramdır. Düşməndən qaçıb hərəmə pənah gətirən amandadır. Onu təqib etmək olmaz. Bu məntəqədə ov etmək, heyvan kəsmək, hətta ot qoparmaq haramdır. Peyğəmbər Kəbəni bütpərəstlərdən azad etmək üçün həmlə etdiyi vaxt öz əli ilə nişangah qoyub.

Sükut! Yəni artıq çatmısan! Çağırıldığın yer buradır. Onun evinə çatmısan, sakit ol! Onun hüzurunda sükut! Kəbənin şövqü dad edir. Artıq şəhərdəsən.

Dağlardan düzəlmiş camı xatırladan şəhərin küçələri elə həmin dağların köksündən keçib, Kəbənin yerləşdiyi Məscidül-hərama yönəlir. Məscidin uca divarları Kəbəni ovcuna almışdır. Qədəm-qədəm Kəbəyə yaxınlaşırsan. Bir rəngdə, adsız-ünvansız insanlardan düzəlmiş sel şəhər küçələri ilə Məscidül-hərama üz tutmuşdur. Sən bu selin bir damlasısan!

Qədəm-qədəm enirsən və əzəmət qədəm-qədəm yaxınlaşır.

Ucalığa hərəkət zamanı əzəmətə çatmaq istəyirik. Xüsusilə bu əzəmət ilahi əzəmətdirsə! Burada isə əksinə get-gedə öz mənliyindən enirsən. Nə qədər enirsənsə bir o qədər də Allaha yaxınlaşırsan. Yəni yalnız təvazö və səmimiyyətlə o əzəmətə çatmaq olar. Yəni yalnız qul olmaqla ucalmaq mümkündür. Bəli, əzəmətli Allahı öz mənliyindən enməklə adi daş-torpaqdan ibarət olan bu məkanda tapa bilərsən. Amma .doğru yolu tapmalı, düzgün baxmağı öyrənməlisən

!Kəbə yaxındadır! Sükut, düşüncə, eşq

Hər qədəmin daha da əsrarəngiz, hər nəfəsin daha da həyəcanlı olur. Allahın hüzuru anbaan ağırlaşır. Göz qırpmağa cürət etmirsən. Sanki ayaqların yerə mıxlanıb. Bütün diqqətin qarşındakı qibləyə yönəlib. Görüş intizarında olmaq necə də ağırmış. Bu əzəməti hiss etmək asan deyil. Zərif çiyinlərin, qəlbinin yuxa pərdəsi bu əzəmətə necə ?!təb gətirsin

!Hər döngədə qəlbin titrəyir ki, indicə Kəbəni görəcəyəm

Kəbə bir ömür sübh, günorta, əsr, məğrib və şam namazlarında üzünü tutduğun qiblə! Öləndə üzümüzün çevrildiyi cəhət! Həyatımız da, ölümümüz də üzü ona! Evlərimiz də ona doğru tikildi. Bəli, indi həmin müqəddəs məkanın bir neçə addımlığındayıq! Bir an !sonra onunla üzbəüz durasıyıq. O artıq mənim gözlərimin önündədir

## Kəbə

Məscidül-həramın astanası, Kəbə ilə üz-üzə! Geniş bir səhnə və bu səhnənin ortasında kub formalı Kəbə! Qəfildən titrəyirsən. Burada başqa, heç baxmaq üçün də bir şey !yoxdur! Boş bir otaq

Hisslər tükdən nazik, qılıncdan iti bir körpü üzərində qərar tutur. İman qibləmiz, !eşqimiz, namazımız, həyatımız və ölümümüz

Qara və kobud daşlar üst-üstə düzülmüş, hətta aralarındakı suvaq da naşıyana çəkilmişdir. Qəfildən canında bir süqut tərəddüdü sızıldayır. Bura haradır? Haraya gəlmişik? Elə bilirdim gözəlliyi könül oxşayan bir qəsr görəcəyəm. Məbəd deyəndə cah-cəlallı bir məkan, məzar deyəndə böyük bir şəxsiyyətin qəbri nəzərimdə canlanırdı. Amma indi gördüyüm... Açıq bir meydanın ortasında boş bir otaq! Nə memarlıq, nə gözəllik, nə qiymətli üzlüklər! Hətta Peyğəmbərin və imamların mübarək .məzarındakı qızıl çərçivələrdən soraq yox

Birdən düşünürsən ki, bu necə də yaxşıdır! Burada sənin diqqətini Allahdan yayındıracaq heç nə yoxdur. Birdən Kəbə də sanki qanad açıb səmalara qalxır və gözünün qarşısından çəkilir. Yalnız indi mütləqi və əbədiyyəti hiss edirsən. Bir az əvvəl gəldiyin həyatda belə bir hissi yaşamaq qeyri mümkündür. Sən o həyatda bu hisslər haqqında danışıb, fəlsəfələr toxuya bilərsən. Amma əbədiyyəti yalnız burada görə !bilərsən

Nə yaxşı ki, bu otaqda kimsə yoxdur, Kəbə boşdur! Yavaş-yavaş anlayırsan ki, ziyarətə gəlmisən. Bura sənin üçün son mənzil deyil. Kəbə yalnız həqiqət yolunu itirməmək üçün bir nişangahdır. Demək, Kəbə axır yox, başlanğıcdır. Allaha doğru hərəkət məhz buradan başlanır. Bura yalnız sənin imkanlarının son nöqtəsidir. Burada hərəkət və istiqamətdən başqa heç nə yoxdur. Bura miaddır — Allah, İbrahim, Məhəmməd (s) və xalqın vədəgahı. Sən nə qədər ki, mən libasındasan, bu fəzada yoxsan. Xalqa qatıl, tənhalıqdan qurtar. Əynindəki xalqın paltarıdır. Xalq Allahın namusu, ailəsidir. Allah öz ailəsinə qarşı hamıdan qeyrətlidir! Bura isə

Onun hərəmi, Onun evidir. Bura xalqın evidir. “Həqiqətən, insanlar üçün ilk bina olunan ev Bəkkədəki (Məkkə) evdir. Şübhəsiz o bütün aləmlərədən ötrü bərəkət və doğru yol (qaynağıdır.”(١)

Sən nə qədər ki, fərd olaraq qalırsan, bu hərəmə yolun bağlıdır. Bu evə “ətiq” də deyirlər. Ətiq bəndənin azad olması, bir sözlə azadlıqdır. Bu ev bütün kənar qüvvələrin .hakimiyyətindən azaddır. Bu evin sahibi Allah, əhli isə xalqdır

Şəhərindən, kəndindən, evindən dörd fərsəng (üç mil) kənarlaşdıqdan sonra şəriət səni müsafir hesab edir, dörd rəkətli namazlarını yarı qılırsan, orucunu açırsan. Amma Kəbədə haradan gəlmiş olsan da müsafir hesab olunmursan, namazlarını tam qılırsan. !Çünki bura sənin öz evindir. Ey ney, sən öz qamışlığına qayıtmısan

Allah və onun ailəsi: Xalq! Varlıq aləminin bu əziz aliləsi indi öz evindədir. Sən bu ailəyə qatılmaq üçün özünü və bütün başqa ümid yerlərini unutmalısan. Bu evə daxil olmaq üçün özündən keç, ailəyə üzv ol. Əgər özünü miqatda dəfn etmiş olsaydın, indi bu .ailədə idin

İbrahimi gördünmü? Tarixə üsyan qaldırdı, bütün yer tanrılarını inkar etdi. O bu evi öz əlləri ilə təmir etdi. Kəbə Allahın yer üzərindəki rəmzidir. Binasımı, zinətimi? Məkkə kənarındakı dağdan qoparılmış qara daşlardan bər-bəzəksiz tikilmiş bir bina! Adımı rəmzdir? Kəbə, yəni kub şəkilli bir bina! Axı nə üçün bir bu qədər sadə? Allah formasız, rəngsiz, oxşarsızdır. İnsan nəyi təsəvvür edə bilirsə, o, Allah deyil. Allah mütləq və tərəfsizdir. Onun hüzurunda tərəf seçən sənsən. Ona görə də üzünü Kəbəyə .tutmusan. Kəbəninsə tərəfi yoxdur



---

١- [٥] “Ali-İmran”, ٩٦.

İnsan düşüncəsi cəhətsizliyi anlaya bilmir. Hər nəyi mütləqə doğru cəhət seçirsə bu, .Allahın rəmzi deyil

Axı cəhətsizliyi yer üzündə necə göstərmək olar? Yalnız bir yolla mümkündür ki, bütün cəhətləri bir yerə toplayasan. Neçə cəhət var? Altı! Hər altı cəhəti özündə toplaya bilən isə kub, başqa sözlə Kəbədir. Bəli, Kəbə bütün cəhətləri özündə toplamaqla cəhətsiz (olmuşdur. "Şərq də qərb də Allahındır. Hansı tərəfə yönəlsəniz ona tərəfsiniz".(١)

Elə bu səbəbdən də Kəbənin içərisində istənilən tərəfə namaz qılmaq olar. İstər üzünü şərqə tərəf tut, istər qərbə, istər şimala tut, istər cənuba, istər yerə tut, istər göyə, fərqi yoxdur! Demək, Kəbənin üzü hər yerə və heç yerədir. Kəbə Onun rəmzidir. ...Amma

Maraqlıdır! Kəbənin qərbində ona cəhət verən bir əlavə vardır. Bu nədir? Hilal şəklində (aypara) üzü Kəbəyə alçaq bir divar. Adı "hicre İsmail"dir. " Hicr" "ətək, ağuş" deməkdir. Doğrudan da, bu divar qadın köynəyinin ətəyini xatırladır. Bəli, həbəşi bir kənizin ətəyi! O qədər qürursuz bir kəniz ki, bir xanım onu öz ərinə arvad etməyi rəva bilir. Əri də yalnız övlad sahibi olmaq üçün bu kənizi qəbul edir. Dünyada bütün imtiyazlardan !məhrum bir qadınla

İndi isə Allah bu kənizin rəmzini öz rəmzinin yaxınlığında yerləşdirir. Bu rəmz Hacərin ətəyidir! O ətək, o ağuş ki, İsmaili böyütmüşdür. Bu Hacərin evidir. Hacər Kəbənin üçücü dayağı yanında dəfn olunmuşdur. Maraqlıdır ki, hətta peyğəmbərlərin də bu .yerdə dəfn olunmasına icazə verilmir

Bəli, bir kənizin evi ilə divar-divara Allah evi! Bu nə deməkdir? Yoxsa Allahın cəhətsizliyi !yalnız Hacərin ətəyində cəhət tapır? Kəbə Hacərin ətəyinə doğru



---

.Bəqərə", ١١٥" [۶]-١

Bu gün həmin divarla Kəbə arasındakı məsafə çox azdır. Yerindən dönməklə bu .məsafə ötür

Həccin əsas əməllərindən biri təvaf, yəni Kəbənin başına yeddi dəfə fırlanmaqdır. Maraqlıdır ki, bu dövrə Hacər ətəyini də əhatə edir, yoxsa yox?! İşə bir bax! Tövhid rəmzi olan Kəbəni Hacər ətəyi olmadan dövr etsən, sənin təvafın qəbul deyil! Yerinə !yetirdiyin əməllər həcc sayılmır. Bu Allahın əmridir

Bütün bəşəriyyət, tövhidə iman gətirmiş bütün insanlar, Allahın çağırışına bütün “ləbbeyk” deyənlər Kəbəni təvaf edərkən Hacərin ətəyini də təvaf etməlidirlər. Yəni !Hacərin evi, məzarı, ətəyi də təvafa daxildir. Kəbəyə bağlı bir ətək

Bəli, cəhətsiz Kəbə yalnız Hacər ətəyinin hesabına cəhət tapır. Afrikalı imtiyazsız bir !kənizin ətəyi hesabına

Tövhid Allahı öz cəlal ərşində tənha oturmuşdur. Bütün kainat onda fənadır. Amma bütün yaratdıqlarının içindən insanı seçərək şərafətli etmişdir. İnsanlar arasından isə ən imtiyazsız qara bir kənizi öz kənarında oturtmuş, öz evində ona yer vermiş, onunla .qonşu olmuşdur. İndi bu tavan altda olan iki nəfərdən biri Allah, digəri isə Hacərdir

Bütün həcc Hacərin xatirəsi ilə bağlıdır. İslamda ən böyük əməl olan hicrət də Hacərin .adı ilə əlaqəlidir. Həqiqət xatirinə mühacir ən böyük ilahi insandır

Hicrət! Hacəryana bir iş. İslamda hicrət vəhşilikdən mədəniyyətə səfərdir. Eləcə də .iman gətirdikdən sonra küfrə qayıtmaq vəhşilikdir

Hicr” həbəş sözüdür. Mənaca şəhər deməkdir. Amma afrikalı həbəş bir soydan olan“ imtiyazsız bir qadın mədəniyyət simvolu olur. Hacərin hərəkəti insanın mədəniyyətə .doğru hərəkətidir

Kəbə ətrafında hərəkət zamanı yenə də Hacər xatırlanır. Ey Allaha üz tutmuş mühacir, Allahın Kəbəsini

dolandığın vaxt Hacərin ətəyini də dolanırsan. Bu məfhumlar düşüncəmizə sığmır. Azadlıq və humanizm əsrinin insanının hissləri bu mənalara tab gətirmir. Afrikalı qara !bir kənizin evi və Allah

**Təvaf**

Kəbə sanki burulğan içindədir. Təvaf edən insanlar onun başına sel tək fırlanır. Yalnız ortadakı nöqtə sabitdir. Əbədi sabitlik və əbədi hərəkət! Sanki günəş ətrafında ulduzlar .dövr edir. Bu görüntü başımız üzərindəki ulduz sistemlərini xatırladır

Allah, aləmin ürəyi, məhvəridir. Sən bu sistemdə hərəkət edən bir zərrəsən. Daim dəyişən bir hərəkət! Amma təvaf zamanı Kəbə ilə sənin arandakı məsafə sabitdir. Nə Kəbəyə yapışırsan, nə də dayanırsan. Məhz Kəbəni təvaf edərkən bəşəriyyəti bir rəngdə görə bilərsən. Hər bir fərd bu insan selində fəna olmuşdur. Demirik Allah da .fəna olmuşdur. Deyirik ki, Allaha görə ümmət də fənadır

Ona görə də təvaf zamanı Kəbəyə daxil olmaq, oturmaq olmaz. Təvaf edənlərin selində qərq olmaq gərək. Yalnız o zaman hacı olursan ki, özünü səhnədən çıxararaq, .xalqa qatılıb ləbbeyk deyəsən

Kəbə dayanmış və bir-birindən seçilməyən insanlar onu dövr etmədə. "Külli" sözünü yalnız burada dərk etmək olar. Kənarda hər insan özüdür, Həsən Həsəndir, Hüseyn Hüseyndir, qadın qadındır, kişi kişidir, şərqli şərqlidir, qərbli

isə qərbli. Kəbə ətrafında isə bütün bu fərqlər aradan qaldırılmış, insanlar külli hala .gəlmişdir. İndi Kəbənin ətrafında təvafa məşğul olan xalqdan başqa bir kimsə yoxdur

Əgər hələ də özünü "mən" kimi hiss edirsənsə, təvafın sənə dəxli yoxdur. Sən sahildə dayanmış bir tamaşaçısan. Ulduz sistemində cazibə sahəsindən çıxmış zərrə nədir ki, sən nə olasan. Bilməlisən ki, yalnız özünü inkar etməklə insan ola bilərsən. Sən bu dəryaya qatılmaqla öz həqiqi kimliyini dərk edə bilərsən. Özündən keçən şəhiddir. Şəhadət yoxluq deyil, əbədi həyatdır. O həmişə ilahi hüzurda dayanmış əbədi diri .varlıqdır

Allah yolunda öldürülənləri ölü zənn etmə! Xeyr, onlar öz Rəbbinin yanında diri olub" (ruzi yeyirlər".(١

Səbillillah" yəni Allahın yolu elə "səbilinnasdır", yəni xalqın yoludur. Heç bir fərq" yoxdur. Allaha doğru yol yalnız xalqdan keçir. Soruşa bilərsən ki, fərdi ibadətlər nəyə lazımdır? Fərdi ibadətlər vasitəsi ilə insan özünü tərbiyə edib, israr, yəni xalqa xidmət .həddinə çatdırır. Yalnız fədakarlıq hesabına insanlığa çatmaq olur

İnsan Allahın təbiətdə xəlifəsidir. Allahın xəlifəsi olduğu kimi kölgəsi və ayəsi də var. Sən özünü fəda etməklə əbədiləşə bilərsən. Dəryadan sahilə sıçramış damlanın ömrü olsa-olsa bir gecədir. Günəşin ilk təbəssümü onu məhv edir. Əbədilik qazanmaq .istəyirsənsə dəryaya qatıl

Ey damla, niyə dayanmısan? Yaranış nizamından danışan burulğana qoşul. İrəli addım !at

Xalqa qoşulmaq fikrin varsa, əvvəlcə niyyət etməlisən. Niyyət odur ki, nə etdiyini, nə üçün etdiyini, kimin üçün etdiyini başa düşəsən. Unutma ki, burada hər bir hiss, hər bir .hərəkət son dəqiqliklə hesabdadır



---

.Ali-İmran", ١٦٩" [٧]-١

## (Həcərül–əsvəd (Qara daş

Həcərül-əsvəd" adlanan qara daş Kəbə evinin birküncündə yerləşdirilmişdir. Təvafa" bu nöqtədən başlamalısan. Sanki daim hərəkətdə olan bir ulduz sisteminə yeni bir planet daxil olur. Bura qədər olan hərəkətlər heç! İndi məhvəri Allah olan bir nöqtə .ətrafında xalqa qatılaraq nizamlı hərəkətə başlayırsan

Başlanğıcda divardakı oyuqdan görünən Həcərül-əsvədə toxunmalısan. Sağ əlinlə ona toxunub, dərhal burulğana qatılmalısan. Bu daşa əlini toxundurmaqla rəmzi olaraq .Allahla əl tutmuş olursan

Bir fərd səhrada özünə həyat qurmaq üçün qəbilə rəisindən razılıq almalı, əhd-peyman bağlamalıdır. Bu, dostluq, himayət vədidir. İstənilən bir amala və ya rəhbərə sədaqətli olmaq vədi "beyət" adlanır. Beyət hansı formada olur? Sən əlini ona tərəf .uzadırsan, o da əlini sənin əlinin üstünə qoyaraq, əhdini qəbul edir

.Belə bir ənənə olub ki, beyət edən şəxs əvvəlki beyətlərindən azad olur

Diqqətli ol! Sən böyük bir seçim qarşısındasan. Əlini həcərül-əsvədə uzatmaqla özünə yeni yol və yeni məqsəd seçirsən. Bu beyət öz şəxsiyyətini xalqda fəna etdikdən sonra qəbul olur. Əvvəlcə xalqa qatılmaq, sonra beyət etmək lazımdır. Təsəvvür et ki, Allahın əli qarşındadır. Buyur, seçim et, əl ver, yol seç, insan ol! Bil ki, bu beyətlə əvvəlki beyətlərin batil olur və sən azad olursan. Artıq kimsə sənə yol göstərmək qüdrətində deyil. "Allahın əli onların əllərinin üstündədir".(۱) Allahın əlinə toxun. Bu əl sənin beyət !etdiyin, səni özünə bağlamış əllərin fövqündədir



---

.Fəth", ۱۰" [۸] -۱

Başqaları ilə beyət buxovundan xilas oldun, Allaha əl verdin. Fitrət yolunu təzələdin, məsul oldun, Allahla əhd-peyman bağladın. Xalqa qatıldın. Hərəkət et, məhvərini tap. Özünü külliyə tapşır. Təqvaya başla! Güclü bir çaya tökülən zəif arx kimi qədəm-qədəm özündən ayrıl, ümuma qoşul. Dövrə vurursan və imkan qədərində Kəbəyə yaxın olmağa çalışırsan. Hiss edirsən ki, tək deyilsən. Hiss edirsən ki, sən getmirsən, səni aparırlar. Səni daim fərdiyyətə aparan ayaqların heç nəyə qadir deyil. Bu cəm qüdrət, cəm hərəkət, cəm ahəng, cəm cazibə, bəşərin namusu səni ağuşuna alıb. Nə öz ayaqların üstündəsən, nə başqalarının əlində! Artıq külli olmusan. Dərinə getdikcə toplumun təzyiqi artır. Bu təzyiq səni sıxır, sanki mənliyinə görə məzəmmət edir. Axırsan. Amma öz gücünlə yox, cəmin gücü ilə. Səni bu cəmə bağlayan siyasət yox, !eşqdir

İbrahimin Allahına bax! Bəndəni özünə, fərdi cəmə bağlamışdır. Necə də lətif, necə də gözəl və dərin! Səni öz eşqinin cazibəsinə, cəmə çəkir. Allahla görüşə hazırsan, özü də xalqın izdihamında. Səni öz evinə çağırdı. Sən də xəlvəti bir görüş ümidində oldun. Bir bu qədər yol gəldikdən sonra sənə deyirlər ki, xalqa qoşul, xalqla gəl, Kəbəyə daxil olma, ətrafında fırlan və fırlandığın zaman Kəbəyə baxma. Xalqla çiyin-çiyinə hərəkət et. Təvaf zamanı üzünü Kəbəyə, yəni qibləyə tutsan, təvafın batildir. Səs salma, sağ-sola çevrilmə, geriyə dönmə. Kəbənin iki addımlığında durduğun halda, ona üzünü !çevirmə, ziyarət etmə

Artıq yaranış nizamının bir zərrəsi olmusan, bu mənzumənin cazibəsinə düşmüsən. Günəşin cazibəsində olan planet necə dövr edirsə, sən də dövr edirsən. Amma sənin məhvərin günəş yox, Allahdır. Fırlandıqca əridiyini, əzəmətli bir tamın zərrəsinə ,çevrildiyini hiss edirsən. Eşqin cazibəsində özünü, heyvani məni unutmusan. Fırlanır

fırlanır və anlayırsan ki, yalnız O var, başqa heç nə! Sən isə bir heçsən, öz varlığını hiss !edən bir heç

Kəbənin ətrafına bir nöqtə kimi dövr edirsən. Səni məhvərlə birləşdirən xətt ilahi eşqdir. Sən Ona təslimsən. Azadlıqdan çox-çox üstün bir təslimçilik. Onu sən özün !seçmisən

Eşq öz zirvəsinə, mütləqə çatmışdır. Artıq özündə ayrılmısan. Zərrə-zərrə Onda .əridiyini hiss edirsən. Başdan ayağa eşq içində fəda olursan

Eşqi hərəkətlə necə göstərmək olar? Bunu pərvanədən az-çox öyrənmişik. Pərvanə öz .məşuqunun, yəni şamın başına fırlanaraq özünü onun odunda fəna edir

Kəbə eşq nöqtəsidir. Sən onun ətrafındakı çevrədə dolanan nöqtəsən. Bunu bizə .Hacər öyrətdi

Allah, o böyük məşuq öz bəndəsinə göstəriş verir ki, südəmər körpəsini götürüb şəhərdən çıxsın və ot bitməyən bu susuz səhraya gəlsin. Hacər öz Allahına təslimdir. Bu göstərişi yalnız aşiq qəbul edə bilər. Südəmər körpəli tənha qadın və dağlarla əhatə !olunmuş tikanlı çöl

Nə etməli, bunu Allah istəmiş! Bu istəyi əql və məntiqlə qəbul etmək mümkünsüzdür. Dirilik, su, körpə, süd, insan yoldaş, qadın himayədara ehtiyaclıdır. Amma eşq bütün ehtiyacları əvəz edə bilir. Həqiqi eşqlə heç nəsiz yaşamaq, əli yalın döyüşmək çətin .deyil

!Ey tənha, zəif kəniz. Ona təvəkkül et, eşqə üz tut

Yeddinci dövrənin sonunda təvafdan çıxırsan. Burada yeddi sadəcə rəqəm yox, əbədiyyət simvoludur. Yəni sənin Allaha təslimçiliyin və xalqa isarın əbədidir. Daim .xalqın yolunda, Allaha doğru dolanasıyam. Bu, ziyarət yox həccdir

Yeddi dünyanın yaranışını xatırladan əlamətdir. Axı sən təvaf zamanı özünü bu aləmin ?!bir zərrəsi bildin! Bir mərkəz ətrafında təvaf varlığın nümayişi deyilmi

Tövhid, yəni Allahın birliyinə etiqad əqidəsini məhz zikr olunduğu kimi hərəkətlə !göstərmək mümkün olur

İndi isə “İbrahim məqamında” iki rəkət namaz. İbrahim məqamı haradır? Bu məqam üzərində İbrahimin ayaq izləri olan daş parçasıdır. İbrahim bu daşın üzərində durub Həcərül-əsvədi, yəni qara daşı Kəbə binasına qoymuşdur. Demək təvafa başlayan şəxs İbrahimin ayaq izlərindən başlayır. Ayağını bu ayaq izləri ilə yanaşı qoyanda keçirdiyin hisslər tövhidin ecazıdır. Qəribədir, bəzən heç olursan, bəzən isə hər şey səni sıxır, inkar edir, fənaya çıxarır, boynuna bəndəlik buxovu taxır, səni səcdəyə endirir və bütün bunlarla yanaşı sənə belə xitab edir: “Ey dost! Ey rəfiq! Ey mənim !tənha həmdəmim, ey mənim əmanətçim, ey yaranışın məqsədi, ey mənim xəlifəm

Bir saat əvvəl bu təvaf selinin sahilində dünyanın milyardlarca tamaşaçılarından biri kimi durduğun vaxt səni “üfunətli palçıq” adlandırmışdı. Amma elə ki, xalqa qatılıb təvafa başladın, özünü nizamlı bir sistemin elementinə çevirdin, bütün üfunət və çirkinliklərin aradan qalxdı. Çünki qatıldığın seldə çirkinliyə yer yox. Bu sel səni yuyuraq üzü behiştə aparır. Artıq sən dünyada Allaha doğru hərəkətinə mane ola biləcək hər (şeyi dəfn etmisən. “Onu (nəfsini) batıran isə, əlbəttə ki, ziyana uğrayacaqdır”.(۱

Sel axır və onda həyatverici məsihalıq ruhu var. Əgər bu selə qatılmasan, öz tərkidünyalıq guşəndə qalsan, fərdiyyətçilikdən çıxa bilməsən, müvəqqəti ləzzət alsan belə, zaman ötdükcə dirilik ətrini itirəcək və həmin üfunətli palçığa dönəcəksən. “Biz (insanı quru və qoxumuş qara palçıqdan yaratdıq”.(۲

səh:۳۷

---

.Şəms”, ۱۰“ [۹]-۱

.Hicr”, ۲۶“ [۱۰]-۲

,Daşdan yol tapanın xoş olsun halı

.Qana bulaşsa da solğun camalı

,Səhrada, yenişdə qaçmağa nə var

.Əhsən o kəsə ki, quyudan çıxar

Qəlbin nə qədər sakit və aramsa ölü su kimisən. Tərpən, coş, sel kimi hərəkətə gəl, !çırpın, təmizlən, Həcc et! Təvaf edənlər burulğanına qatıl

İndi, xalqın fəna dəryasına baş vurduqdan bir saat sonra yaşam tapmış xalqın nəzdində Allaha üz tutur, xalqın yolu ilə Allah ətrafında dövr edir, əbədi fələk çarxına !qoşulursan. İndi "İbrahim" olmusan

**İbrahim məqamı**

Baş vurduğun nöqtədə təvaf dövrəsindən çıx. Ölümdən həyat, yoxluqdan varlıq! Qürub etdiyin üfüqdə yenidən doğursan! Dövrdən çıxan həmin palçıq varlığa üfürülmüş Allah ruhudur. Bütün eqoist "mənlərdən" qurtulmaqla həqiqi "mənə" çatmısan. Pak və ağ ehram libasında, Allahın hərəmində, İbrahimin rolunda! İbrahimin ayaq izləri ilə yanaşı üzü Allaha dayanıb, namaz qılırsan. İbrahim olmusan, tarixdə böyük, bütqıran, tövhid banisi çiynində öz qövmünün hidayət yükü, səbirli, üsyançı İbrahim ardıcılı! Canı dərdli, qəlbi aşiq, başında nur, əlində balta bir peyğəmbər! Küfrün qəlbindən iman baş çıxarır, şirk məngənəsindən tövhid şölələnir, bütyonan Azərin evindən bütqıran İbrahim zahir olur. Bütqıran, Nəmrudqıran, cəhalətin bağrını yaran, !məzlum qəbilələrin oyanışında öncül olan İbrahim

Ey İbrahimi! Alovun içinə gir, xalqı cəhalət alovundan xilas et. Bu bir atəşdir ki, tövhid .Allahının əmri ilə ibrahimilərə gülzar olur. Yanmazsan, külə dönməzsən

səh:۳۸

.Məqsəd budur ki, sən ümmət yolunda oda da girəsən, ən ağrılı şəhadətə razı olasan

Ey İbrahimi! Öz İsmailini öz əlinlə qurban verməyə hazır ol. Əgər öz İsmailinin boğazına bıçaq qoya bilsən, xalqın boğazından zalımların bıçağını qaldıra bilərsən. !Cəlladların əlindən bıçağı almaq üçün bu işi görməlisən

Amma İbrahim Allahı özü ismaillərin diyəsini ödəyib onları qurtarasıdır. Arxayın ol ki, İsmailini əldən verməyəcəksən. Məqsəd budur ki, sən iman yolunda İsmailindən !keçməyə hazır olasan

İndi isə eşq təvafından sonra İbrahim məqamına çatmısan. İbrahim bu yerə çatdığı zaman artıq yeddi çətin mərhələdən keçmişdi. Bütlər qırılmış, Nəmrud sarsıdılmış, alovdan keçilmiş, İblislə savaş baş vermiş, İsmail qurbanlığa gətirilmiş, peyğəmbərlikdən imamlığa qədər əzablı bir yol keçilmişdir. Artıq fərdiyyətdən !cəmiyyətə, bütyonan övladlığından tövhid baniliyinə keçid baş vermişdi

Bax, elə bu yerdəcə İbrahim oturmuşdur. Saçları qocalıqdan ağarmış, ömrün son anlarına çatmışdı. Ona Kəbə evini tikmək, qara daşı yerləşdirmək əmr olunmuşdur. Yeganə köməkçisi İsmaildir. O, daş daşıyır, atası isə daşları sıraya düzür. Bəli, İbrahim və İsmail Kəbə evinin bünövrəsini qoyur. Biri alovdan, digəri isə qurbangahdan keçmişdi. İndi isə hər ikisi Allahın əmri ilə xalq üçün yer üzündə ən qədim tövhid məbədini ucaldırlar. Bu, bəşər tarixində ilk evdir. Azadlıq, eşq, pərəstiş evi! İlahi !məqamın rəmzi

Bəli, indi sən İbrahimin durduğu ən uca məqamda durmusan. Demək, Kəbənin baniliyi, azadlıq evinin memarlığı, bütqıranlıq, zalımlarla savaş, cəhalət və şeytan vəsvəsələri ilə mübarizə sənin öhdənə düşür. Bu da öhdənə düşür ki, işkəncə və təqiblərə səbr ,edib, alovdan keçəsən

İsmailini qurbana hazırlayasan. Unutma ki, durduğun ev yenə də məzlumların pənahgahı, təqib olunanların sığınacağıdır. Unutma ki, bu gün dünyanın məzlum xalqları sıxıntı və işkəncələrə məruzdur. Bütün yer üzü zülm və sitəmə bürünmüşdür. Bu günkü dünyada zülm və təcavüzdən başqa hər şey haram edilmişdir. Ey İbrahim məqamında dayanan, ey Allaha beyət edən, diqqətli ol! Sən İbrahim kimi yaşamalı, öz əsrinin Kəbəsini ucaltmalı, öz məzlum millətini zülm və cəhalət əzabından xilas etməlisən! Ey Allahla əhd-peyman bağlayan, ey İbrahim məqamında dayanan, yer üzündə əmin-amanlığı bərpa et, əsrinə ədalət gətir, dünyanı məzlumlar üçün sığınacağa çevir! Bu yer üzü insanlar üçün sığınacaq olan Allah məscididir. Amma !görürsən ki, bu belə deyil

## (Səy (Səfa və Mərvə dağları arasında

İbrahim məqamında təvaf namazını başa çatdırdın. İndi növbə aralarındakı məsafə üç yüz metrdən artıq olan Səfa və Mərvə dağları arasında "səy" əməlinə çatmışdır. Bu məsafəni yeddi dəfə qət etməlisən. Səfanın hündürlüyündən enir, irəliləyir, Kəbə müqabilinə çatır, yolun qalan hissəsini iti yeriyir, sonra adi hərəkətə qayıdır, Mərvənin .ətəyinədək olan qalan yolu səy edirsən

Səy çalışma, axtarış hərəkəti, tələsmək, qaçmaqdır. Təvafda Hacərin işini, İbrahim məqamında İbrahim və İsmailin işini gördün. Səy əməli ilə isə yenidən Hacəri xatırlayırsan. Burada bütün formalar, xüsusiyyətlər, məsafələr, nişanələr eyni ilədir. İman, eşq, əqidə, əməldən savay heç nə yoxdur. Söhbət heç də İbrahim, Hacər və İsmaildən getmir. Əsas məsələ, əməllərin mahiyyətidir. Bütün mənalar hərəkətlə ifadə .olunur və nəticə nəzmdir. Həcc kainatda mövcud nizama daxil olmaqdır

Afrikalı imtiyazsız qara Hacər Saranın kənizidir. Bu insanlara aid şirk nizamına uyğundur. Allahın nizamında isə bu kəniz böyük dəyərlər sahibi, peyğəmbər anasıdır. Ümumiyyətlə həcc mərasiminin ilkin qəhrəmanı anadır. Bu ana Allahın əmri ilə südəmər körpəsini götürüb tikanlı çöllərdə məşuqunun yolunu gözləyən Hacərdir. Yalnız eşq naminə. O bu səhrada Allaha təvəkkül edərək körpəsini susuz səhraların !ağuşuna gətirdi. Qorxunc dərə ölüm saçan tənhalıq və mütləq təvəkkül

Allah buyurur ki, belə et! Sonra isə səni, körpəni, həyatını, gələcəyini, ruzini öz .öhdəsinə götürür

!Ey Hacər, təslim nümunəsi, eşq və təvəkkül qəhrəmanı, sən mənim himayəmdəsən

Hacər Allahın buyuruğu ilə, təslim olaraq südəmər körpəsini tənhalıqda qoyur və eşq istəyir. Amma bu qadın yerindəcə oturmur, dərhal ayağa qalxaraq su axtarmağa başlayır. Məkkənin yalın dağları arasında nəfəs dərmədən qaçaraq su axtarır! Cəmiyyətinin idbar təbəqə qanunlarından məşəqqətlər görmüş bu qara kənizin bir an olsun belə iradəsi qırılmır. Onun ümiddən savay heç nəyi yoxdur! O, səsini çıxarmadan uca, sərt qayalıqlarda dolaşır. O, İbrahim mədəniyyətində Prometeyi xatırladır. O, su !axtarır, su

Səma və yer bu qızıl quşun nəzərləri altındadır. O qanad çaldığı fəzada hökmünü !oxuyur, yerdəki hər qarış torpağı öz iti nəzərlərinə təslim edir

Təvaf həqiqətə təslim olmuş insan, səy isə gerçəkliklə razılaşmış bəşərdir. Təvaf ilahi, .səy isə iqtidarlı insandır

Təvaf eşq, pərəstiş, ruh, gözəllik, fədakarlıq, şəhadət, əxlaq, xeyir, dəyər, mənəviyyat, həqiqət, iman, təqva, riyazət, xuşu, bəndəlik, irfan, qəlb, itaət, ilahilik, asiman, qeyb, !təvəkkül, xalq, din, axirət və Allahdır. Şərqin ruhunu dirildən də bunlardır

səh:۴۱

Səy əql, məntiq, ehtiyac, həyat, gerçəklik, maddə, təbiət, elm, düşüncə, sənət, fayda, ləzzət, iqtisad, cism, iradə, hakimiyyət, dünya, güc, qazanc və sənsən. Qərbi təlaşa !salan da bunlardır

!Təvaf Allah, səy isə bəşərdir

!Təvaf ruh, səy isə cismdir

!Təvaf əziyyət, səy isə ləzzətdir

!Təvaf yanğı, səy isə su axtarışıdır

!Təvaf pərvanə, səy isə qızılquşdur

Demək, həcc ziddiyyətlərin toplumudur. O, tarix boyu bu ziddiyyəti, yəni materializmlə idealizm ziddiyyətini həll etməklə məşğuldur. Seçim nədir: Dünya, yoxsa axirət, yer nemətləri, yoxsa səmavi həzz, maddiyyat, yoxsa mənəviyyat, bir sözlə, Allaha, yoxsa ?özünə güvənmə

İbrahimin Allahı sənə öyrədir ki, sən hər iki həyatı yaşamalısan. Burada nə fəlsəfə, nə də irfana ehtiyac var. Hər şey sadə bir dillə deyilmiş: Hər iki dünya insanındır. Bu insan .filosof və arif olmuş olsa belə, iman axtarışında Allahdan Hacər dərsini alır

Hacər bir kəniz, bir anadır. O, eşqin fərmanı ilə Allahına təslim olur və öz südəmər körpəsini susuz və kimsəsiz bir məkana gətirir. Onun bu işi təvəkkül və imana və !dünyəvi baxışların inkarına əsaslanır. Bu seçimdə bir hakim var: Eşq

Amma həqiqi iman əhli belə hallarda körpənin kənarında oturub möcüzə gözləmir. .Həqiqi mömin körpəni eşqə tapşırıb, yaşamaq uğrunda mübarizəyə qalxır

Bəli, Hacər susuz səhralarda su axtarışındadır. Amma onun axtarışı uğursuzluğa düçar olur və əliboş halda körpəsinin yanına qayıdır. Heyrət! Öz axtarışlarından

ümidsiz olmuş ana geri qayıtdığı zaman qaynar qumlar üstə suyun ayaq səslərini !eşidir! Zəmzəm! Daşdan fəvvarə vuran bir su

!Bu dərsdir. Bu su səylə yox, eşqlə tapılmış bir sudur. Amma səydən sonra

Ey eşqə güvənmiş insan, səy göstər. İmanla, təvəkküllə çalış. Təvafda olduğu kimi düz !yeddi dəfə

Amma bu hərəkət dairəvi deyil. Dairəvi hərəkətdə durduğun nöqtəyə çatırsan və nəticə əvəz olur. Bu lap ona oxşayır ki, yemək üçün işləyəsən və işləmək üçün də .yeyəsən. Nəticə isə ölüm olur

Yaşamaq, sadəcə, yaşamaq üçün yox, Allah üçün yaşamaqdır. Səy və çalışmaq da sadəcə səy üçün yox, xalq üçün olmalıdır. Hərəkət isə gəzinti deyil, onun başlanğıcı və .məqsədi olmalıdır

Səfadan Mərvəyə hərəkətin nəticəsi sıfr olmur. Çünki yeddi dəfə gedişin son nöqtəsi başlanğıc nöqtə deyil. Hərəkətə Səfa dağından başlasan da onu Mərvə dağında .bitirirsən. Cüt olmayan yeddi rəqəmi məhz bu baxımdan daimiliyi göstərir

Görən, Səfadan başlamaq başqalarının paklığını sevmək deyil ki? Ümumiyyətlə, paklıq mənasını verən “Səfa” paklıqdan başlamağa işarə etmirmi? Bəs Mərvə necə, insanlığın nəhayəti olan mürüvvətə çatmaq demək deyilmi? Həmin mürüvvət ki, bu xüsusiyyətin !hesabına başqalarının nöqsanını bağışlayırsan. Olsun ki, belədir

Beləcə, eqoist mənini itirdiyin təvaf burulğanından çıxıb, ayağını İbrahimin qədəminin yerinə qoy və Hacər kimi təşnə olduğun su ardınca get. Səfa təpəsinə çıx və Hacərin hisslərini dərk etməyə çalış. O Hacər ki, bu iki dağ arasında tövşüyərək qaçıb su axtarırdı. Səfadan Mərvəyə, Mərvədən Səfaya, yenə, yenə, yenə... Nəhayətdə isə əliboş. Amma indi

.durduğu nöqtə hərəkətə başladığı nöqtə deyil. Səfadan başlamışdısa, indi Mərvədədir

Ey damla insan, özünü Səfa qoynundan üzü Mərvəyə axan ağappaq selə at. Cəmiyyətin selində qərq ol, çalış, tər axıt! Yolda Kəbə müqabilinə çatanda cəmiyyətlə .həmahəngliyi gözlə

**Təqsir”, ümrənin sonu, kiçik həcc“**

Yeddinci səyin sonunda, Mərvənin hündürlüyündə ehramdan çıx, “təqsir” et, yəni saçından bir qədər kəs, həyat libası geyin, azad ol! Burada da tənha, təşnə və əliboş !İsmailin sorağınca get

Diqqət et, uzaqdan su zümzüməsi eşidirsənmi? Susuz quşlar bu quru səhraya uçur. Zəmzəm (çeşməsi) İsmaili sirab etmiş, uzaqdan gəlmiş qəbilələr bu məkana .toplaşmışlar

Yer üzünün susuzları zəmzəmə görə burada xeymələr qurmuş və kimsəsiz bir məkanda sanki şəhər cücərmişdir. Vəhy yağışı yağmış, azadlıq və eşq evi peyda .olmuşdur

Ey səydən qayıdan tənha kəs, artıq tənhalıq başa çatmışdı. Sənin İsmailinin ayağı altda zəmzəm qaynayır, insanlar sənin ətrafında dövrə vurmuşlar. Allah sənin evinlə divar-.divara evini qərar vermişdir

!Ey səydən yorulmuş, eşqə arxalan

!Ey məsul insan, çalış! Çalış ki, öz təşnə İsmailini sirab edəsən

!Ey aşiq insan, eşq istə! Eşqdir möcüzə yaradan

Ey səydən qayıdan hacı, daşlaşmış içindən bulaq qaynamışdır. Qəlbinin səsinə qulaq ?!ver! Daşdan qaynayan zəmzəmin səsini eşidirsənmi

Mərvədən üz tut zəmzəmə, bu eşq bulağından su götür. Vətəninə dön və insanlara !daşdan çıxan zəmzəmdən hədiyyə et

## Böyük həcc

Qeyd: Həcc iki mərhələdə həyata keçir. Bura qədər haqqında danışdığımız "ümrə" (kiçik həcc) idi. Ümrədən sonra ehram halından çıxırsan və ehram halında haram olan !əməllər halal olur. Doqquzuncü gün həccin ikinci mərhələsi, böyük həcc başlayır

## Böyük həcc

Zilhəccə ayının doqquzuncu günü böyük həcc əməlləri başlayır. Kəbədə, küçədə, !oteldə olmağının fərqi yoxdur. Niyyət et, ehram bağla, Məkkədən xaric ol

Kəbəni tərk edib, Məkkədən çıxırsan. Böyük həcc Kəbəni tərk etməklə başlayır. Kə'bə .ilə ötüşən həcc ümrə, yə'ni kiçik həcc idi

Kə'bə ilə həmahəng olmaq, üzü Kə'bəyə dayanmaq həcc deyil. Əgər düşünmüsənsə ki, həccin qibləsi Kə'bədir, səfər etmisən. İndi bil ki, həcc Kə'bəyə getmək yox, .Kə'bədən getməkdir

Öz canınla təcrübədən keçir, İbrahim tövhidindən öyrən ki, əvvəlcədən məqsəd .Kəbəyə olmayıb

Hər şey Kəbədən başlayır. İndi isə ey mühacir, başqa bir məkana qədəm qoyur, başqa bir yola çıxırsan. Artıq söhbət özünü tərk etməkdən yox, Allah evini tərk etməkdən gedir. İndi səni bəndəliyin və azadlığın zirvəsində görərək, deyirlər: Kəbədən ötüş! .Artıq sən Ona Kəbədən də yaxınsan. Artıq səndə eqoist "mən" yox, eşq hakimdir

Kəbə ziyarəti başa çatmışdır. Kəbə sənin üçün edə biləcəklərini etdi. İndi yolun Allaha doğrudur. İndi bu yol səni Allahın evinə yox, həmin evin Allahına aparır. Artıq söhbət mənzil başından yox, cəhətdən gedir. Əvvəlcə istiqamət Kəbəyə doğru idi, indi isə .başqadır

səh:۴۵

Ey hacı, harada dayansan, ölsən Ona doğu hərəkətdəsən! Ey Allahın ruhu olan insan! !Ey saleh əməl

Kəbə o zaman qiblə idi ki, digər qiblələr səni aldada bilərdi. İndi isə istiqamət Kəbədən böyük həccə doğrudur. Ona görə də harada olmağından asılı olmayaraq ehram libasını .geyib Məkkədən çıx

!Maraqlıdır ki, Kəbədən şərəfli yer haradır? Gedərsən, görərsən

### Ərəfat

Ehram geyib Məkkədən çıxdıqdan sonra şərqə üz tutursan. Unutma ki, Ərəfatdan Kəbəyə qayıdarkən əvvəlcə Məşər, sonra isə Minada dayanmalısan. Niyəsini sonra .bilərsən

Kəbədən çıxdıqdan sonra şərqə doğru yolun sonunadak gedirsən. Bu yolu axınla birgə mənzil-mənzil get. Doqquzuncu gün Ərəfatda, onuncu gecə isə Məşərdə qalırsan. Onuncu günün sübhündən on ikinci, bəzən də on üçüncü günədək Minada qalırsan. Nə Ərəfatda, nə Məşərdə, nə də Minada dayanmaq üçün gözəgəlimli bir yer tapa bilməzsən. Ərəfatdan Minayadək olan iyirmi beş km-dək yolda yeknəsəqlik hökm .sürür. Bu yol nə təbii, nə tarixi, nə də məzhəbi cəhətdən fərqlənmir

.Bu yolu üç hissəyə bölən həccin mərhələlərini tənzim etmək üçün verilmiş bir qərardır

Məsələni mühüm edən bu mərhələlərdəki dayanacaqdır. Ərəfat və Məşərdə əsas iş dayanmaqdır. Ərəfatda heç bir iş görülmür, Məşərdə isə görüləsi iş yalnız yetmiş kiçik daş toplamaqdır. Amma Məşərdə də dayanmağın əsil səbəbi bu deyil. Gecəni .gündoğanadək qalmaq isə əsas şərtdir

Minada da əsas iş dayanmaqdır. Zilhəccənin ۱۰-cu günü, yəni qurban günü şeytanı daşlama və qurban kəsmək günortayadək başa çatır. Amma burada üç gün qalmaq .zəruridir

Bu üç məkanda dayanma təxir xarakterindədir. Yəni hərəkət zamanı fasilələr baş verdiyi kimi bu yolda da üç fasilə var. Bu üç dayanacaqda məqsəd birdəfəlik .dayanmaq yox, bir müddət sonra yola davam etməkdir

Mina nə son mənzil, nə də son məqsəd deyil. Bəs bu səfər nə vaxt başa çatır? Karvanın son dayanacağı haradır? Diqqət et! Əgər bu səfər Allaha doğrudursa, başa çata bilərmi!? Allah mütləq və əbədiyyətdir. Deməklə bu hərəkət də nəhayətsiz və (dayanacaqsızdır. "Axır dönüş ancaq Allahdır!"(۱)

Allaha doğru səfərdə yalnız istiqamət var. Bəşərdə nə varsa, ötəri və dəyişkəndir. Yalnız cəhət sabitdir. Əbədiyyətə doğru yönəlmiş cəhət! "Allahdan başqa hər şey (məhvə məhkumdur".(۲)

Kəbədən çıxıb yubanmadan Ərəfata gəldik. Mərhələ-mərhələ Minaya çatdıq. İndi isə (yenidən Kəbəyə qayıtmalıyıq. "Biz Allahın bəndələriyik və Ona tərəf qayıdasıyıq".(۳)

Hər yerdə hərəkətdən danışılır və bütün hərəkətlər ona tərəfdir. Bu səbəbdən də həcc .mütləqə doğru hərəkətdir

Həcc səfər deyil. Çünki səfərin sonu olur. Həcc ziyarət də deyil. Çünki ziyarətçinin !məqsədi olur. Həcc mütləq bir hərəkətdir. Sonsuz bir hərəkət

Ona görə də Minada azad edilirsən. Ərəfatdan qayıdarkən Kəbəyə çatmırsan. Məkkənin divarlarına çatdığın



---

.Fatir", ۱۸" [۱۱]-۱

.Qəsəs", ۸۸" [۱۲]-۲

.Bəqərə", ۱۵۶" [۱۳]-۳

vaxt həccin yerinə yetir. Deməsk, həcc Kəbədən Ərəfatadək getmək və Ərəfatdan üzü !Kəbəyə Minayadək qayıtmaqdır

Ərəfatdan Minayadək olan üç dayanacaqda niyyət hansısa əməl yox, dayanmaqdır. Demək, əsas da bu üç məkanda dayanmaqdır. Bəs, bu dayanmaların mənası nədir? Allah-təala özü bu üç mərhələyə ad vermişdir. Ərəfat mərifət, tanıma, elmdir. Məşər .şuur, düşüncədir. Mina eşq və imandır

Demək, Ərəfat bizim bu dünyada yaranışımızın başlanğıcıdır. Adəmin əhvalatında !məhz bu yerdə Adəm və Həvva ilk dəfə görüşür. Görüşürlər və bir-birlərini tanıyırlar

Bu behişt həqiqi behişt yox, yer üzünün behiştidir. Burada torpaq növbənöv ağaclar və .otlarla bürünmüşdür. Adəmin heç bir zəhmət çəkmədən yaşadığı yer buradır

Adəmə səcdə etməkdən boyun qaçırmış İblis öz vəsvəsələri ilə Adəmi həddi aşmağa vadar etmişdi. Qadağan olunmuş bir meyvə vardı. İblis Adəmə pıçıldadı ki, bu meyvədən yesən, əbədilik tapacaqsan. Adəm İblisin bu təklifindən imtina etdi. İblis Həvvaya yaxınlaşdı. Fənd baş tutdu. Adəm qadağan olunmuş meyvədən yedi. O, .günah, tövbə və itaət yolunu keçdi

Üsyan Allah iradəsinə qarşı çıxmaqdır. Allahın iradəsi ilə varlıq aləminin bütün sferalarında qanunlar hökm sürür. Azadlığa şirnikən insan öz məsuliyyətini unudaraq .qanunları pozdu. Nəticədə cənnət bağı ehtiyaclarla dolu dünya həyatı ilə əvəz olundu

Sanki qamışlıqdan kəsilmiş ney öz vətəni üçün sızıldamağa başladı. İnsan özünü qəfəsdə hiss edir və kor-koranə ilkin vətəninə dönməyə çalışır... Həcc yaranışın təcəssümüdür. Cənnət bağına qayıtmaq istəyi həcdə öz əksini tapır. Həcc insana .qayıdış yolunu göstərir

səh:۴۸

Behişt insanının yer insanına, yer insanının bu günkü günahkar fərdə çevrilməsi üsyankar ağılın qadağan olunmuş meyvəni yemək hökmü verməsi ilə baş tutdu. İnsan .bir də gözünü açdı ki, üryandır və özünü tanıdı

Behiştdən dünyaya və Kəbədən Ərəfata hicrət! İnsanın yer üzündə peyda olması və özünü tanıması! Adəmin Həvva ilə görüşü! Adəm öz həyat yoldaşını, öz həmnövünü yenidən tnıdı. Öz arvadı ilə görüşdü. Həmin an insan fəlsəfi baxımdan öz yaranış .mahiyyətini dərk etdi. O, elmi baxımdan tarixi varlığını hiss etdi

Həcdə isə ilkin hərəkət Ərəfatdır. Ona görə də Ərəfatda günorta dayanılır, günəş ən zirvə nöqtəsində olanda! Bu, agahlığın, təbiət buxovundan qurtuluşun başlanğıcı, .günəşin nurlu şüaları altında təbiətlə insanın tanışlığıdır

Günəş qürub edəndə Ərəfatda dayanacaq başa çatır. Artıq zülmətdir, göz gözü .görmir. İnsan günəşin ardınca qərbə üz tutur

Gecə hərəkət! Məşərdə, şüur və düşüncə məkanında dayanacaq! Tanışlıq mərhələsindən sonra agahlıq mərhələsi gəldi. Necə də ecazkar! Axı hamı bilir ki, ?tanımaq üçün şüur lazımdır. Bəs necə olub ki, şüur ikinci dayanacağa düşüb

Amma tanıma və şüurun yaradıcısı başqa söz buyurur: "İki zidd cinsin (kişi və qadın), iki düşüncənin rastlaşması fərdi həyatın sonu, ictimai həyatın başlanğıcıdır. İki insanın birləşməsi ilə ailə qurulur və tanışlıq başlanır. Bu tanışlığın inkişafı ilə şüur ortaya çıxır, elm və dərk gücü qüvvətlənir. Nəhayət, agahlıq, insanın özündən agahlığı vücuda ".gəlir

Eyniyyət (obyektivizm) zehniyyətin (subyektivizm) mayası, əsasıdır. Zehnin (ideyası) gerçəkliklə (realizm) bağlı elmlə əlaqəsində əql inkişaf edir. İnsanda mənəvi istedadlar .çiçəklənməyə başlayır

Əgər əvvəl Məşər, sonra Ərəfat gəlsəydi, bu ardıcıllıq xəyaldan doğmuş idealizmə .uyğun olardı

Əgər əvvəl Mina gəlsəydi, bu gediş sufilik, başqa sözlə, bilik və şüursuz dindarlığa .apardı

.Məşər və Minasız Ərəfat materializmdən, məqsədsiz həyatdan başqa bir şey olmazdı

Ərəfatsız Məşər və Mina isə çoxlarının qəbul etdiyi dinin özüdür. Çoxluğun! Amma bu dində insan torpaqdan yaranır, dəyərsiz bir maddədən! Bəs ondakı ilahi əmanət!? O, hərəkətə tanışlıqla, dünya gerçəkliklərindən xəbərdarlıqla başladı. Sonra öz insanlığını dərk etdi. Şüur elmdən doğdu və eşqi doğurdu. Bu, Məşər və mənzilinə uyğundur. Nəhayət, kamilliyin son mərhələsinə pərvaz edildi. Meracı xatırla. "İki yay (uzunluğunda, bəlkə, ondan da yaxın oldu.(۱)

Bəli, bu reallıqdır. Amma dayanacaq məqsədi olan realizm deyil! Maddə üzərində qurulmuş idealizm də materializm olardı. Bu məktəbdə insan ziddiyyətlər toplumudur. Yarı üfunətli torpaqdan və bu torpağa üfürülmüş ilahi ruhdan! Sən seçim ?qarşısındasan. Üstünlüyü nəyə verəcəksən? Maddəyə, yoxsa eşqə

Məzhəb nədir? Yol! Hikmət? Agahlıq! Peyğəmbərlik? Hidayət! Ümmət? Yolçular! İmamət? Rəhbər! İbadət? Yolu hamarlamaq! İtaət və nəfsin tərbiyəsi? Səni ağırlaşdıran, özünə çağıran hər şeydən çəkinmək! Allahın yolu? Özünü tərk etməklə Allaha xatir xalqa xidmət! Dua? İstəklərini, arzularını, ehtiyaclarını Ondan diləmək! !Zikr? Onu yaddan çıxarmamaq! Həcc? Hazırlaşmaq

Düşünürük ki, bütün təzadlar və ziddiyyətlər var-dövlət üstündədir. Amma hər şey ilahi tərəzidə ölçülməlidir. Əgər namaz insanı xeyir işdən məhrum edərsə, vay o namazqılanların halına! Amma, mümkündür ki, öhdəsindəki



---

.Nəcm", ۹" [۱۴]-۱

puldan düzgün istifadə edən şəxs bu puldan xeyir görə. Məgər peyğəmbər puldan .imtinamı edirdi

Ərəfatda, Kəbədən ən uzaq məsafədəyik. Kiçik təpələrin arasındakı "Cəbələr-rəhmə" .daşı Peyğəmbərin vida həcci zamanı son nitqi üçün minbər seçilmişdi

Bircə gün ərzində cücərmiş şəhərdə şam namazıdır! Bu şəhərdə dünyanın ən ucqar nöqtələrindən gəlmiş müxtəlif irqdən və soydan olan insanlar səfə düzülmüşlər. Sən soruşursan ki, burada ziyarətlik nə var? Burada heç yerdə misli görünməmiş bir azadlıq var. Sən burada gününü istədiyin kimi keçirə bilərsən. Burada heç bir vəzifə olmadığı kimi, heç bir görməli şey də yoxdur. Sən ən əzəmətli anlarını yaşayırsan. .Çünki əzəmət ilə gözünü gücdən salacaq heç nə yoxdur

Düşün! Çalış ki, Ərəfatın pak günəşi altında yatmış fitrət qönçən çiçəklənsin. Əsrimizin !vərdişlərindən qaç: İşığa, günəşə, azadlığa, cəmiyyətə qucaq aç

Ey zülmün kölgədə böyütdüyü, ey cəhalətin xanənişin etdiyi, ey eqoist mən! .Xeymələrdən çıx, bu insan okeanında qərq ol, qoy Ərəfat günəşi səni yandırsın

!Bir günü də ötür ey mum! Cəmiyyət qoynunda işıqlan, oyunçuların əlində yumşalma

.Ərəfat sənə çətin gəlməsin. Burada səndən tələb olunan yeganə şey dayanmaqdır

**Məşər**

Ərəfat günəşi qurub etdi, Ərəfatdan çıx. Bu gecə Ərəfatda qalma. Hamı köç hazırlığındadır. Gecə düşənədək burada bir müsəlman da qalmayacaq. Bir anda .yaranmış günəş şəhəri bir anda da məhv olacaq

Yol Məşərə aparır. Dayanmadan yola davam edirsən. Yalnız üç yerdə dayanacaq var. Ərəfatda yarım gün, Məşərdə

bir gecə, Minada isə iki-üç gün! Dünən qurulan xeymə bu gün sökülür. Bütün bu hərəkətlərin arxasında sənə deyilənləri eşidirsənmi. Ey yer üzündə qonaq! Ey əbədiyyətdən cəmi bir an! Ey yoxluqla sakitləşən bir dalğa! Ey tənhalığı heç olan! Ey !mütləqə üz tutanda hər şey

Rəbbinizdən ruzi diləməniz sizin üçün günah deyil. Ərəfatdan qayıdarkən Məşərül-“ həramda Allahı xatırlayın. Sizi doğru yola yönəltdiyi üçün Onu yada salın, çünki siz bundan qabaq azanlardan idiniz; Sonra camaatın döndüyü yerdən siz də dönün! (Allahdan bağışlanmaq diləyin, şübhəsiz ki, Allah bağışlayan və rəhm edəndir!”(١

Gecəni Məşərdə olmalısan, sıxlıq get-gedə artır. Qəfildən məğrib tufanı Ərəfatı bürüyür. İnsan seli Cəbəlür-rəhməni sanki dövr edərək gecədən qaçır. Gecənin .qaranlığı Ərəfatı işğal etməkdədir

!Sən bu ağ yolda ağ bir nöqtəsən! Sən bu ağ okeanda ağ bir damlasan

Maraqlıdır! Sanki günəş şəhəri Ərəfat günəşi altında ərimiş və bu şəhərdən axan sel yuxu şəhərinin vadisinə dolmuşdur. Gecə və izdiham hamını qərq etmişdi. Amma bu yolda qorxu yoxdur. Qorxu yolu itirib, “ özünü” tapmaqdır. Qurtuluş elə bu yolda özünü .itirməkdir. Ən üstünü isə özünü yol etməkdir

Bəli, bu daşlıqda öz eqoist mənini itirib, Allahın iradəsinə tabe olmaq ibadətdir. Belə olsa varlığın fitrətində olduğu kimi, sənin də fitrətində gözəllik baş qaldırar. Bil ki, bu .yolun sonunda sənin intizarında olan var

Artıq Məşərdəyik. Məşər şüur, düşüncə yeri deməkdir. Huşyar ol. Əgər Ərəfatda Mərifət cəmidisə, Məşərdə şüur təkdir. Gerçəkliklər müxtəlif, həqiqət və ona aparan !yol isə təkdir. Bu xalqın Allaha doğru uzanan yoludur



---

١- [١٥] “١٩٨-١٩٩ ,”Bəqərə.

Peyğəmbər yaxınları ilə bir yerdə olduğu vaxt yerə oturub, öz əl ağacı ilə torpağın üstünə çoxlu yollar çəkdi. Qayğısız idi. Çünki mərifət (tanıma) həqiqətə varmaq, elm və agahlıqdır. Ərəfat hər şeyi olduğu kimi göstərən bir güzgüdür. Elm isə din müqabilində aynadır. Elm üçün yaxşı və pisin, xidmət və xəyanətin, paklıq və çirkinliyin əhəmiyyəti yoxdur. Elm, elmdir. Yaxşı və pis isə şüurda fərqlənir. Elmdən istifadə edib ona cəhət verən də şüurdur. Əgər kapitalist cəmiyyətdə bütün vasitələr bir məqsədə xidmət edirsə, bu elmin yox, şüurun hökmüdür. Birini cəllad, o birini şəhid, birini zalım, o birini xeyirxah, birini pak, o birini çirkin edən elm yox, şüurdur. Əgər elm sabitdirsə, şüurun necəliyi haqqında danışmaq lazım gəlir və həcc bu suala cavab verir:

Qeyd: “Haram” və ya “haram” kəlməsi yalnız qadağan mənasında işlənmir. Bu) kəlmədə “ehtiramlı”, “ hörmətli” mənası da var. Məsələn, “ Məscidül-həram” dedikdə bu yerin hörmətli olması və bu hörməti qorumaq üçün çirkin işlərə yol verilməməsi nəzərdə tutulur).

**Haram şüur!**

İlkin mərhələdə yalnız Ərəfat vardı. İndi isə Məşər yox, Məşərul-həramadan söhbət gedir.

Maraqlıdır ki, Məşərul-həramda dayanacaq gecəyə düşür. Ərəfatda isə gündüz dayanılmışdır. Nə üçün?

Ərəfat agahlıq mərhələsidir. Ərəfatın mahiyyətini təşkil edən tanıma “eyni”, obyektiv rabitədir. Zehn xaric aləmlə rabitədə olmaq üçün gözə ehtiyaclıdır. Amma şüur özündənagahlıq mərhələsi, dərk qüvvəsidir. Bu batinə aid olan zehni (subyektiv) bir məsələdir.

Eyni müşahidədə hiss, nəzər aparıcıdır. Düşüncə mərhələsində isə bəsirətə (iç gözə) ehtiyac var.

Amma nəinki məsuliyyətsiz, xəstə, qarışıq bir fikir! Nəzərdə tutulan məsul, təqva və imana uyğun düşüncədir. Məşərül-həram şüuru Məscidül-həram kimidir. Məscidül-həramda, bu hörmətli məkanda günah, fəsad, təcavüz, hətta bir canlını incitmək belə .haramdır. Bu məkan sülh və əmin-amanlıq, təqva hasarındadır. Bura pak və işıqlıdır

Məşərul-həram şüuru mərifətdən doğulmuş və eşqi doğurmuşdur. O, elm və imanla divar-divara qonşudur. Ərəfatla Mina arasındadır. Ona görə də bu şüur düşüncədən .qidalanıb nur saçır

Peyğəmbələrin gətirdikləri və insanlara bəxş etdikləri özündənagahlıq, hikmət budur. Bu nə fəlsəfədir, nə də elm. İslamda haqqında danışılan elm təsəvvürün məhsulu deyil. İslamdakı elm Allahın qəlblərdə işıqlandırdığı elmdir. Əgər Ərəfat elmini hər kəs öyrənə bilərsə, Məşər elmi yalnız Allahın istədiyi şəxslərin qəlbində özünə yer tapır. Bəs bu istənilən şəxs kimdir? Bu şəxs öz nəfsi yolunda yox, Allah yolunda çalışır. Bu doğru yolu tapma elmidir. Bu elm bədəvi ərəbi bir qövm üçün, dünya üçün həqiqətə bələdçi edir. Bu elmdə dəftər və kitabın rolu yoxdur. Onu məktəb və universitetlərdə öyrətmirlər. Yalnız cihad səhnəsində həqiqət yolunda vuruşanlar, Allaha yol axtaranlar .bu elmə sahib olur. Məşər elmi kağız və mürəkkəb yox, nurdur

.Bu elm ilə hətta Məşər gecəsinin qaranlığında da görmək olur

Əmr olunur: “Xalqın hərəkətə gəldiyi yerdən hərəkətə gəlib, tərpənin!” Necə əzəmətli bir izdiham! Şüur məkanının gecəsində qurtuluş üçün silah axtarışı! Əgər gecə olmasaydı bu axtarış nə üçün idi?! Sübhün intizarında məqsəd nədir?! Axı nə üçün sabah cihad olasıdır?! Məşərdəki dayanacaq hazırlıq üçündür. Bura döyüş olacaq .məkanla qonşudur

.Bu gün döyüş gününə bitişikdir

Bütün hazırlıqlar gecə, gizli şəraitdə baş tutur. Bura zülmün hakim olduğu Mina ilə .həmsərhəddir

Hazırlıq gecənin qaranlığında getsə də, şüurlar Məşər şüurudur, işıqlıdır. Bu gecə !intizar gecəsidir. Sübh isə Minada qələbə və eşq olasıdır

Qaynar izdiham Məşərə yetişir. Xırda daşlar topladıqdan sonra dağlıq məkanda araya !sakitlik çökür. Sükut! Düşüncə

Burada heç bir əlamət yoxdur. Nə xeymələr, nə qapı, nə divar, nə tavan! Kimi isə tanımaq üçün boş yerə çalışma, Məşərdə hamı özü ilədir, hamı gecə ilədir! Məşərdə .sıxıntı var

)O gün insan qaçacaq öz qardaşından”.(۱“

Ey özünü itirmiş, indi özünə çatmısan. Ehramda “özünü” çıxardın, miqatda topluma çatdın, təvafda burulğana tapşırdın, səydə yenidən özünü tapdın. Ərəfatda verdiyini .Məşərdə yenidən geri aldın

Bu toplumda hamı tənhadır. Ey özünə çatmış, özü olmuş! Bu “mən” əvvəlki eqoist “mən” deyil həqiqi bəndədir. Bu “mən”də heç bir əlamət, bəzək, haşiyə, niqab, maska !yoxdur. Bu əsil sənsən

?Bu gecə Dostla xəlvətə çəkil! Özünü gizlədiyini etiraf et. Bilirsənmi bu etirafın dəyərini

Artıq barını aşırmaq, pərdəni yırtmaq vaxtı çatıb. Bu pərdə səni bir ömür zülmətdə !saxlayıb, həbs edib. İndi isə azadsan, olduğun kimisən

Sən cəmiyyətə tənha qoşulmuşdun. İndi isə izdihamın içində tənhalığa çatırsan. Toplum içində əldə edilən fərdiyyət çox dəyərlidir. Bu tənhalıq üzgüçünün dərya .dibindən çıxardığı mirvari kimi qiymətlidir



---

.Əbəsə”, ۳۴“ [۱۶]-۱

Bu izdiham öz ağuşunda hər bir kəsi fərdiyyətə doğru sıxır, çiyin-çiyinə dayanmış .insanların ruhu təkbətək ərşə çəkilir

Gecə səni öz iffət ağuşuna almışdır. Səni sıxan baxışlardan əsər-əlamət yoxdur. .Özünü rahat hiss et

Məşərdə nəzərə çarpan yalnız gecədir. Onun göylərinə ilahi pərdə çəkilmişdir. Əgər həyəcanlı qəlbini qeybi yağışlarla sakitləşdirə bilsən, buxovlanmış baxışlarını pərvanə .tək azad etməyi bacarsan ilahi bir səda eşidəsicən

.Məşər gecəsi öz əzəmət zirvəsinə çatır və bu əzəmət qarşısında həyəcanlar lal olur

Birdən Məşərə səsli-küylü bir sel hücum çəkir. O, Məşər məhəllini bürüdükdən sonra .yenidən sükut yaranır

Məşər gecəsi başlamışdır. Burada çıraq yoxdur. Gecəni ay işıqlandırır. Eləcə də !ulduzlardan yağan nur yağışı

Məşər gecəsini şəhərli-kəndli tanımır. Onların tanıdığı gecələr Məşər gecəsi ilə müqayisəyə gəlmir. Bu gecə cazibədar behişt gecələrinin kölgəsidir. Onu işıqlandıran ay tamam başqadır. O, sanki Allahın mərhəmət təbəssümüdür. Bəlkə, elə ona görə də aya and içilmişdir. Başqa yerlərin gecələrindən boylanan ay və ulduzlar nəfəslərin !buxarından islanmış, xəstə görkəm almışdır. Bu ay o ay deyil

Zilhəccənin onuncu gecəsidir. Əzəmətli tövhid ordusu sakitcə dayanmışdır. Məşər səması aşiqanə düşüncələrə qərq olmuşdur. Arabir qeyb quşları bu ecazkar gecəyə .baş vurub başqa bir dünyaya pəncərələr açırlar

Nəvazişli bir təbəssüm olan ay işığı yer üzünün nifrin olunmuşlarına da nəvaziş göstərərək, dağın zirvəsindən Məşərə süzülür. Bu işıqda almas çiçəklər açır. Sanki bir mələyin görünməz əli səmadan bu məkana nur çiləyir. Bu an işıqlanmış yol sanki əbədiyyətə uzanır. Əlinin kəhkəşan yolu! Məkkə yolu! Yoxsa Əlinin Məkkəyə getdiyi !?yol

Ərəfatda bir sıra alimnümaların güldüyü əsrarəngiz mənalar var. Bəzi əsatirlər gerçəkliklərdən qat-qat dərin və mənalıdır. Amma tarixçilər yalnız reallıqla razılaşır. Həmin əsatirlərdə daha faydalı ibrətlər olduğu halda ömrünü səmərəsiz gerçəkliklərə .sərf edənlər var

.Deyirlər ki, sultan Mahmudun məşuqu Ayaz həqiqətdir, Prometey isə yalan

**.Məşər səmasına nəzər sal**

Məşər səmasına nəzər sal. Gecənin qara bağrını yaran işıq oxları Allahın pak mələklərindən yollanır. Bu möhtəşəm gecəyə, ilahi paklığa uzanan qara əllər həmin .oxlarla vurulur

Ey xalqla çiyin-çiyinə duran izdihamda itmiş insan, xəlvətdə Allahınlasan. Sabah səni Minada gözləyən cihadın intizarındasan. Əynində ölüm paltarı, əlində silah! Başqa heç nə! Allahla xəlvətə çəkil, bu gecə silahına güvən! Silahın və imanın! Başqa heç nə! Məşərin ulduz pəncərələrindən ərşə qalx, ilahi fəzada pərvaz et, dünya zindanından xilas ol. Ey Məhəmməd davamçısı, fitrətində eşqi dirçəlt, qorxu və zəiflikləri oda çək. Sabah üçün bu gecə hazırlıq gör! Mina cəbhəsində Xənnas sənin intizarındadır. Qəlbini !eşqlə, əlini güllərlə doldur, dua et

Soruşursan ki, buraya nəyin ziyarətinə gəlmisən, hansı işi görməlisən? Burada sənin üçün mümkün olan yalnız azadlıqdır, başqa heç nə! Sən bu gecəni yuxuda da keçirə bilərsən. Amma Məşərdə olduğunu unutma. Burada sənin qazancın bütün əməllərin !dəyərindən uca olan bir şeydir: düşüncə

Yüz minlərlə insan bu gecə ulduzların tamaşaçısıdır. Çalış, iç susuzluğunu qeybi yağışlar sirab etsin. Sükutun səsinə qulaq as. Bu fəzada sənin Allah haqqında düşüncənə mane olası heç bir şey yoxdur. Bir çiçək ətri tək Onun ətrini duy, hüzurunu .canınla, qanınla hiss et

Məşərdə islam siması var. Lap Əlinin oxşarıdır: qəlbində eşq, əlində şəmşir! Məşərdə müsəlman olmağı məşq et. Bu gecəni özünü axtarışda başa vur. Məşər səmasını Allahın axtarışı üçün ruhuna merac qərar ver. Məşər torpağı isə cihada hazırlıq məkanıdır. Ərəfatdan Məşərə axan izdiham Məşərdə silah axtarışı üçün pərən-pərən .düşür

.Bu tövhid qoşununda fərq yalnız imandadır. Fərq hər kəsin daxili mənindədir

İbrahim fərman verir! Silah toplanılsın! Gecənin qaranlığında hər kəs yalnız öz .məsuliyyətini düşünərək dağların sinəsinə dırmanıb silah toplayır

.Növbəti mənzil Minadır. Sabah döyüş başlayır

Tövhid qoşunu çiyin-çiyinə sabahkı döyüşə silah axtarışındadır. Amma məsuliyyət o qədər böyükdür ki, qardaş-qardaşı, dost dostu tanıya bilmir. Sabah bu daşlar Mina .səhnəsində İblisə atılasıdır

Bu kiçik daşlara “cəmərə” deyirlər. Diqqətli ol ki, gecənin qaranlığında bu daşları seçə biləsən. Bu daşın ölçüsü var və ölçü dəqiq gözlənilməlidir. Hansı daşın seçilməsi .olduqca əhəmiyyətlidir

Bu daş saf, hamar, yumru, girdəkandan kiçik, püstədən böyük olmalıdır. Bu daşlar !sənin iblisə tuşlanacaq sılahının güllələridir

Hər şey hesablanmışdır, dəqiq müəyyənləşdirilmişdir. Sabah İbrahim cəbhəsinin hər bir əsgəri Minada düşmənə ٧٠ daş atmalıdır. Düşmənə dəyməyən daşlar hesablanmır. Əgər yaxşı atıcı deyilsənsə, daşı artıq yığ. Öz məharətindəki zəifliyi ciddi hazırlığınla aradan qaldır. Əgər nəzərdə tutulduğundan bircə daş əskik vursan döyüşdə və həcdə .iştirak etməmiş sayılacaqsan. Bəli, islamda hərbi intizama bu qədər diqqət verilir

Bunu da unutma ki, Minada üç gün qalmalısan. Bu üç gün zilhəccənin onu, on biri, on ikisinə təsadüf edir. Birinci gün şeytanın mücəssəməsinə yeddi daş atmalısan. Unutma ki, atdığın yox, vurduğun daşlar sayılır. Bu əməl hərbi bir əməldir. Ümumiyyətlə bu məkan əməl məkanıdır. Göstərişlər dəqiq və qətidir və heç bir dua ilə bu işin nəticəsini dəyişmək olmaz. Şeytana yeddi daş dəyməlidir. Hər hansı bir səbəbdən bir daş əskik vuranın həcci qəbul deyil. Əgər səhvə yol verilmişsə, cərimə ödənməlidir. Başqa yol .yoxdur

İkinci və üçüncü günün hər birində şeytan üç dəfə daşlanmalıdır. Hər dəfə yeddi daşın .vurulması zəruridir. Bu üç gün ərzində şeytana ۴۹ daş vurulur

Dördüncü gün isə azadsan, Minada qala bilərsən, gedə də bilərsən. Əgər qalsan, əvvəlki iki gündə olduğu kimi üç şeytan mücəssəməsinin hərəsinə yeddi daş vurmalısan. Minada sakit dayanmaq olmaz. Dördüncü günün daşlarını da vursan, cəmi .۷۰ daş olacaq

Cihad və hərbi əhvali-ruhiyyədən sonra ab-hava dəyişir, irfani məqamlar başlayır. Qərbdə aramlıq hakim olur, aşiqanə düşüncələr öz zirvəsinə çatır. Güllə səslərini eşq !zümzüməsi əvəz edir. Allahla söhbət məqamıdır

Burada baş verənlərin iştirakçısı bu günkü maşınlaşmış cəmiyyət yox, inqilabi bir ümmətdir. Bu insanlar elm, əməl, siyasət, ibadət, dünya, din əhlidirlər. Amma sadalananlar arasında süni sərhədlər çəkilməmişdir. Burada biri alim, digəri siyasətçi deyil. Onların Allahı, yolu, qibləsi birdir. Burada ziyalı üçün də, həkim üçün də, əkinçi üçün də cihad var. Əgər Ərəfatda çöhrələr elm işığına bürünmüşsə, Məşərdə vəziyyət .tamam başqa idi

Məşər gecəsinin düşüncələri və cihad hazırlığında hamı bir rəngdə idi. Məşərdə .hamının başına sanki quş qonmuşdu

.Bu quşun uçmasından qorxanların sükutunda məhbubun səsi eşidilirdi

Məşər ordusu dünyada yeganə ordudur ki, onun hər bir əsgəri komandandır. Yəqub Yusifin fərağında ölüm üçün qərarsız olduğu kimi, bu qoşun da sabahkı döyüş üçün təşnədir. Bu döyüşdə ən böyük mükafat yalnız Allah-təalanın nəsib edə biləcəyi uca .şəhadət dərəcəsidir

.Məşər! Əldə silah, dildə dua və döyüş intizarı

Sübhün açılmasına az qalır. Cənub səhər nəsimi orduda əsraramiz bir ab-hava yaratmışdır. Qəfildən həmahəng azan səsləri ucalır. Yüz minlərlə qamət rüku və səcdəyə əyilir. Azan nəsimi tavansız ağ tövhid selinin üzərindən əsir. Eşq dalğaları .ləpələnir

Sübh namazıdır. Amma bu başqa bir namazdır. Azan bitib və Məşər yuxuya gedir. Gecə .Ərəfatdan enərək Məşərdə yatanların üzərindən keçir və Minada gözdən itir

**Mina**

Ən uzun dayanacaq, son mənzil. Yəni arzu, amal, ideal və Mina! Tanışlıq və şüurdan sonrakı mərhələ! Əgər bu günkü dünyanı qaranlığa sürükləyən dantelər əql və eşqdən başqa bir şey tanımırdılarsa, böyük həcc dramında üç həqiqətdən danışılır: mərifət, !şüur və eşq

Həcc öz zirvəsinə yaxınlaşır. Bu gün zilhiccənin onuncu günü, qurban bayramı !günüdür

Sübh Məşər dəhlizinə süzülür. Müsəlmanlar nurun dəvəti ilə ayağa qaldırılır. Mücahidlərin kiçikli-böyüklü axınları Məşər yatağından axmağa başlayır. Onlar get-gedə birləşərək əzəmətli çayı xatırladırlar. Getdikcə bu çayın yatağı sıxılır və çay bir az .da güclənir

Məşərdə dayanacaq başa çatır və yenə də köç başlayır. Ürəklər bir mənzildən qalxıb, o .biri mənzilə üz tutur

Ağ tövhid qoşunu yola düşmüşdür. Gecəni silah toplamaqla, Allahla söhbətlə keçirmişlər. Hamı döyüş anının intizarında olmuş! Məşər pəhrizkarları artıq Mina şirləridir! Könüllər eşq və qəzəbdən cuşa gəlmiş! “Onlar kafirlərə qarşı sərt, bir-birlərinə isə mərhəmətlidirlər”.(۱)

.Üz Minaya, Allah və İblis torpağınadır

Məşər hərəkətə gəlib, qərbə doğru irəliləyir. Qarşıdakı mənzil çox əzəmətlidir. Bayram səhərinin təbəssümü hamını həyəcanlandırır.

Qoşun “Muhəşşər” boğazına çatır. Bu, cəbhəyə aparan çox dar bir keçiddir. Hücum əmri gəlir. Qısa və iti addımlarla irəli! Cəbhəyə yaxınlaşmış sel daha da sıxılıb cuşa gəlir, hövsələsiz olur. Dar keçid və tələsmək əmri! Hələ də dünənki gecənin sakitliyinə malik olan qoşun cəldləşib Minaya doğru hücuma keçir.

Qəfildən, hücuma keçmiş qoşun keçilməz bir sədd ilə qarşılaşır. Geri çəkilib dayanır, bircə addım da ata bilmir. Yalnız qoşunun axır cərgələrində zəif hərəkət gözə dəyir. Nə baş verdi?

Axı bu dünyada belə bir coşqun selin qarşısını kəsib, onu yerində dondura biləcək hansı sədd ola bilər? Bu cür qəti “dayan” əmrini kim verə bilər? Bu əmri verən hələ üfüqə çatmamış günəşdir. Hərəkətin davam etməsi üçün günəş tülu etməli, doğmalıdır! Odur hücum göstərişini verən.

Qoşun Mina sərhəddinə çatmışdır. Milyonlarla mücahiddən ibarət olan və dünyada heç bir qüvvəyə baş əyməyən bu azadlıq ordusu sanki iti bir qılıncla kəsilmiş və bir xətt boyunca düzülmüşlər. Onları Minadan ayırmış gözəgörünməz divarı yarmağa kimsədə güc yoxdur. Hətta İbrahim, hətta həzrət Məhəmməd (s) bu işdə acizidir. Çünki bu sədd bəşəri qanun yox, təbiətdə olduğu kimi ilahi



---

۱- “Fəth”, ۲۹.

dərgahdan enmiş sünnət qaydadır. Bu səddi o kəs çəkmişdir ki, təbiət qanunlarını yaratmışdır. Onun qoyduğu qanunlar dəyişməz və sabitdir! Axı kainata hakim olan !?cazibə qüvvəsini, ölüm hökmünü kim dəyişə bilər

Bəli, hərəkətə başlamaq üçün sübh açılmalıdır. Hücuma keçənlərin qarşısından maneəni yalnız o götürə bilər. Qoy səhər açılsın. Günəşin bir təbəssümü ilə bu keçilməz .sədd məhv olasıdır. Bu xoşbəxt ana sayılmış ləhzələr qalır

Yer üzünün heç bir nöqtəsində, heç vaxt, heç bir ümmət üçün sübh bu qədər əhəmiyyətli olmayıb. Savaş və eşq üçün qərarsız olan sevdalılar Mina qapısında günəşin yolunu gözləyir. Milyonların gözü və qulağı işığın hökmünün intizarındadır. Bu qoşun günəşin hökmünü gözləyən yeganə qoşundur. Onlar sübhün hakimiyyəti .altındadır

Sübh Ərəfata dırmanır. Dağın arxasında nəfəsini dərir. Qırmızı şəfəq tövhid ordusunu tarixin üç tağutuna doğru yürüşə səsləməkdədir. Əzəmətli anlardır. Günəşin parıltısı, təngiməkdə olan nəfəslər! Hamı həyəcanlıdır. Allahın bu müqəddəs ayətləri bütqıranlara hücum əmri verməkdədir. Bu gün İblisin yer üzərindəki ən böyük qərargahı məhv ediləsidir. Bu gün şirk məğlub olur. Bu gün tövhid, eşq, isar ən gözəl .çöhrəsində təcəlla edir

Qəfildən dağın zirvəsində günəş görünür və keçid üçün əmr verir. Şadlıq fəryadı, günəşin nuru və insan seli bir-birinə qarışıb Minaya axışır. Bu toplum təkcə ağ sülh göyərçini yox, daha çox silahlı mücahidlərdir. Ona görə də hərbi intizam hələ də davam "!edir: "Gecəni Məşərdə qalmalı, yalnız onuncu gün Minaya daxil olmalısınız

Sübh sərhəddi Mina sərhəddidir. Gecəni gündüzdən ayıran sübh xəttidir. Ona görə də bu sərhəddən keçid əmrini zilhəccənin onuncu gününün günəşi verir.

Mina qərbdə Ərəfat isə şərqdədir. Qoşun üzü Minaya dayanmışdır. Günəş Ərəfat yüksəkliyindən doğub Minaya süzülür. Günəş də Ərəfat, Məşər, Mina mənzillərini keçib həcc edir.

Ərəfatdan gəlmiş, Minada gecələmiş eşq ordusu şəhadətgah olan Minanın qapısında günəşin əmrini gözləməlidir.

Günəşin ayaq səsləri eşidilir!

Gecənin hökumətində özünüzü düzəldin!

Silah toplayın!

Günəş doğmamış Minaya daxil olmayın, gecəni Məşərdə qalmalısınız!

Günəş doğduqdan sonra Məşərdə qalmayın, gündüzü Minada olmalısınız!

Günəş doğan kimi hərəkətə başlayın. Artıq zilhəccənin onudur. Minaya həmlə vaxtıdır. Zamanın hökmünü yerinə yetirin. Yalnız günəşin əmrini dinləyin. Gözünüz yalnız günəşdə olsun.

Mina sərhəddindən İblisin düşərgəsinə qədər bir qədər məsafə var. Yalnız cəbhədən çıxarkən bayram etmək olar. Yalnız İblisi məğlub etdikdən sonra, yalnız qələbədən sonra, yalnız şeytanı daşladıqdan sonra!

Sən tövhid millətinə, onun ənənəsinə bax. Onlar qələbəni qərara gəldikləri an qazanırlar. Hələ düşmənə qələbə çalmamış, hələ döyüş başlamamış onlar qalibdirlər! Mina torpağına ayaq basan mücahid qalibdir!

### Bu sadə ümmət

Bu sadə ümməti anlamaq bir o qədər də asan deyil. Onların qələbəsi zamanla ölçülür. Əgər Ərəfatda olmuşsa, əgər gecəni Məşərdə qalmışsa və başqa bir çox əgərlər...

Həcc təbiətin misli, islamın özüdür. Bu islam söz yox, hərəkətlə bəyan olur. Ayələr tək mütaşabehdir. Bu dəryada nə qədər üzsən də sahilə çatmaq mümkünsüzdür. Çünki bu ...dərya sonsuzdur. Əgər mövsümdə gəlsən, Miqatda olsan, ehram bağlasan

.Sən, mən, o, ümumiyyətlə, fərd heç kimdir. Quran xalqdan danışır, fərddən yox

Allahın əli xalqın üzərindədir. Qələbə fərdin yox, xalqın qismətinə yazılıb. Bu dəyişməz !bir qanundur

Bizim görə biləcəyimiz iş ilahi sünnətin, qanunların kəşfi və doğru yolun seçilməsidir. Bu yol tarixi zərurətlər, ilahi müqəddərat, insanın taleyi, nəhayət, dünyanı bürüyəcək ədalət inqilabı ilə müəyyənləşmişdir. “Ənbiya” surəsinin ۱۰۵-ci ayəsində buyurulur: “Biz Tövratdan sonra Zəburda da yer üzünə yalnız mənim saleh bəndələrimin varis olacağını yazmışdıq”. “Qəsəs” surəsinin ۵-ci ayəsində oxuyuruq: “Yer üzündə zəif düşüb əzilənlərə bol nemət vermək, onları rəhbər etmək, Fironun mülkünə varis .”etmək istədik

Zəif bilmək! Bu münasibət insanı dəyişir, onu sındırır, bütün maddi və mənəvi qüvvələrini puça çıxarır. Bütün qeyri-insani hakimiyyətlərdə xalqlara belə iflicedici münasibət mövcuddur. İstismar, istibdad, müstəmləkəçilik hər biri insanlıq .düşmənlərinin ixtiralarıdır

Qoy işlərində olsunlar. Allah da öz işindədir. Allah-təala məzlumların xilasını elan etməklə kifayətlənməyib, hamını əmin edir ki, müəyyən tarixi dönəmdə dünya, dövlətlər, qəsrlər, xəzinələr, mədəniyyətlər üzərində hakimiyyət məhrumların əlinə .keçəsidir

Yer üzünün zəif düşmüşləri! Quranın “Fatihə” surəsində “məğzubin” yəni “qəzəbə düçar olmuşlar” ifadəsi var. Yer üzünün məhrumları qəzəbə düçar olmuşları xatırladır. .Qiyamət günü insanlar iki dəstəyə bölünür

Onlardan bir hissəsi nicat taparaq behiştə gedir, digər bir hissəsi qəzəbə düçar olaraq cəhənnəmə yuvarlanır. İlahi qanunlara münasibəti ilə insan öz taleyini müəyyənləşdirir. Yer üzündə isə taleləri müəyyənləşdirən İblisdir. Yer üzündəki insanların kiçik bir hissəsi İnsan, qalan böyük hissəsi isə zəifliyə düçar edilənlərdir. .Həmin bu böyük hissə dünya cəhənnəminin sakinləridir

Bəs dünyada baş verənlərlə və ya tarixi zərurətlərlə ilahi müqəddərat arasında nə fərq var? Yer üzünün qəzəbə düçar olmuşlarının və ya zəif salınmışlarının qələbəsində nə fərq var? Demək, hər şey təzmin edilmişdir. Şəhid Habilin övladlarının taleyi Allahın iradəsi ilə təyin olunmuşdur. Tarixi zərurət Allahın dəyişməz sünnətidir. "Bilin ki, (yaratmaq da, əmr etmək də Ona məxsusdur". (۱)

Sənin taleyin ilahi sünnəti kəşf edib, seçim aparmaqdan asılıdır. Təbiət də, tarix də, .insan da müəyyən olunmuş yolu gedir

Sən dörd zindanın məhbususan: təbiət, tarix, cəmiyyət və şəxsiyyət. Təbiət qanunlarını kəşf edərək onun zindanından azad olmalısan. Bu yolda bələdçin elmdir. Tarixi kəşf edib onun zəruri etdiyi yollardan birini seçməlisən. Bu işdə bələdçin tarix fəlsəfəsidir. İctimai mühitinin qanunlarını kəşf edib bu zindandan da qurtulmalısan. Bu işdə bələdçin sosiologiyadır. Demək, hər üç zindandan elm vasitəsi ilə xilas ola .bilərsən

Amma elm səni dördüncü zindandan, nəfsinin əsarətindən qurtarmaqda acizdir. Əvvəlki üç zindan xaricdədirsə, dördüncü zindan sənin daxilindədir. Bəlkə də bu əsarət elə sənin alim olmağındadır. Çünki bu elm səni özünə tanıtdırmaqda, səni kəşf etməkdə, nəfsinə qalib gəlməkdə heç nəyə qadir deyil. Səni bu zindandan yalnız



---

۱- [۱۸] "Ə`raf", ۵۴.

hikmət qurtara bilər. Hikmət peyğəmbərlərin bəşəriyyətə gətirdiyi din nurudur. Hikmət səni özünə tanıtdırır, içində işləyən mənfi qüvvələri kəşf edir. Səni bu zindandan qurtara biləcək qüvvəni də hikmət yolu ilə tanıya bilərsən. Əgər canın sənə zindandırsa, bu zindanı şəhadətinlə uçurur, əgər İsmailin sənə buxovudursa, sənin .əlinlə onu qurban edir. Bu isə şəhadətdən də üstündür

Səni dördüncü zindandan yalnız eşq xilas edə bilər. Hikmət sənə agahlıq verir ki, təbiət .qanunlarına qiyam qaldırıb, özünü Allah istəyincə qurasan

Sən yeganə vücudsan ki, öz mahiyyətini özün yaratmalısan. Bu mahiyyəti yaradana qədər heç kimsən. Amma hər şey ola bilərsən. Əgər fitrətini kəşf etsən, yeganə həqiqi yolun din olduğunu anlasan, bu yolda qədəm atsan nəfsinin zindanından qurtula bilərsən. İnsan ol, hərəkətə gəl. Bu yol əbədi və sabitdir. Onu kimsə döndərə bilməz, qarşısına sədd çəkə bilməz. “ Sən Allahın qoyduğu qayda — qanunda heç bir dəyişiklik (tapmazsan”.(١

Sənin taleyin elə bir mətndir ki, əgər özün bilməsən, başqaları yazasıdır. Əgər mövsümdə Miqata gəlsən, öz fitri yolunu tanıyıb seçim etsən yolun hamar olacaq. Bu yol səni üfunətli palçıq halından çıxarıb, Allaha doğru aparacaq! Bu yolda hakim, Allahın .müqəddəratıdır. Hakimiyyət elmi zərurətdir

Sən azadsan, hər şey seçimindən asılıdır. Həm sahildə qalmaqla ölümünü, həm də daimi xalqla hərəkəti seçə bilərsən. Amma imamın təbirincə, seçim nə cəbrdir, nə də .ixtiyar, məcburiliklə azadlığın ara məqamıdır

!Bəs “azad məcburluq” nədir? “ Təfviz”! (“həvalə etmək”) İtaət və təslimçilik! İslam



---

.Fatir”, ۴۳“ [۱۹]-۱

Bəli, əzəmətli ümmət seli Mina sərhəddini adlayıb, İblis cəbhəsində qalib olur. Zilhiccənin onuncu gününün günəşi erkən sübh bürcündən qələbə bayrağını qaldırır və !hücum göstərişi verir. Sonra isə qələbənin elanı və bayram

Bu tarixi zərurət, məcburiyyət, cəbrdir. Amma yenə də insanın öz ixtiyarındadır. Sən yalnız o zaman qalib ola bilərsən ki, Allaha üz tutmuş xalq axınına qoşulasan. Bu tövhid ümməti hər şeyi, hətta tarixi zərurətləri də öz yolundan silib-süpürməyə qadirdir. O, !bütün sədləri keçib dəryaya töküləsidir

Əgər sən Məşərdən keçib Minaya üz tutduğun zaman ümmətdən ayrı düşməsən, Minaya çatıb İblisi daşlasan, İsmail qurbanını kəssən, uca iman məqamına çatasısan. .Xalqla yanaşı addımlasan, bu axına qatılsan, əbədiyyət dəryasına qovuşasısan

!Silahlı və qəti qərarlı tövhid ordusu Minaya, döyüş meydanına axışır

## Şeytanı daşlama

!Bir xətt boyunca bir neçə yüz metr aralı yerləşmiş üç İblis mücəssəməsi

!Tövhid ordusu döyüş səhnəsinə çatır. Daşlar əllərdə hazırdır

Birinci və ikinci sütun formalı mücəssəmədən ötüş, üçüncü mücəssəməni daşla! Nə üçün? Məgər aqillər, müəllimlər nəsihət etməyibmi ki, hər işdə ahəstəlik, tərtib və nizam gözlənilsin? Amma burada əmr verən İbrahimdir: “İlk həmlədə sonuncu bütü ”!vur

Vurdunmu? Əmin oldunmu ki, başına və surətinə yeddi daş dəydi? Əgər əminsənsə, birinci hücumun başa çatdı. Sonuncu İblisi yıxdıqdan sonra əvvəlki iblislərin ayağa

qalxmaq gücü qalmır. Son cəbhədən qayıdırsan. Qurbanlıqdan başqa bir işin yoxdur. !Qələbəni elan et

Sonuncu şeytan bütünü sındırdıqdan sonra bayram et, ehram halından çıx, həyat ...libasını geyin, ətir vur, bəzən

.Artıq o yerə çatmısan ki, Onun yolunda İsmailini qurbanlıq etməlisən

**Qurbanlıq**

Sonuncu bütü daşlamadan sonra qurbanlığa tələs. İblisin üç məqamına işarə olan üç .mücəssəməni unutma. Agah şəkildə nəyyətini sabit et

Nə etdiyini, nə üçün etdiyini bilirsənmi? Etdiyin əməllərin zahiri səni çaşdırmasın. Bu əməllər zahiri xarakter daşıyır və hər birinin dərin mahiyyəti var. Mahiyyətlərə diqqət et, formalistlikdən çəkin. Unutma ki, burada hər şey niyyətə bağlıdır. Hər hansı bir .əməl zamanı məzmunu unudub, formaya baş qatsan, bu əməl səmərəsiz olar

Oruc tutarkən niyyət etməsən də hansısa bir təsir olacaq. Cihad da belədir. Amma həcdə niyyətsiz hərəkətlər tam faydasızdır. Bilməlisən ki, həcc mərasimində bütün hərəkətlər rəmzidir. Etdiyi əməllərin mənasını düşünməyən insan Məkkədən iman dolu !qəlblə yox, yalnız ağır çamadanlarla qayıda bilər. Zənbillər dolu, iç isə boş

Sən təvaf etməklə tövhid əməl etmiş olursan! Səfa və Mərva arası səyinlə Hacəri !xatırlayırsan

!Kəbədən Ərəfatadək Adəmin behiştdən çıxarılmasını yada salırsan

Ərəfatdan Minayadək insanın yaranış fəlsəfəsi haqqında düşünürsən. Düşüncən .elmdən eşqədək Allaha doğru merac edir

Minada kamilliyin sonuncu mərhələsini, mütləq azadlıq və mütləq bəndəliyi, İbrahimi !anırsan

İndi isə Minadasan və İsmailini qurbanlığa gətirmisən!

Kimdir sənin İsmailin? Məqamındırmı, vəzifəndirmi, sənətindirmi? Pulundurmu, evindirmi, avtomobilindirmi? Ailəndirmi, libasındırmı? Gəncliyindirmi, gözəlliyindirmi, gücündürmü? Sən özün bilirsən o nədir? Hər nədirsə, Minaya gətirib qurban etməlisən.

Amma mən sənə həmin qurbanlığın əlamətlərini deyə bilərəm: İmanı zəiflədib, səni doğru yoldan saxlayan hər şey! Səni şübhəyə salıb, özünə bağlayıb ardınca çəkən hər şey! Həqiqəti etiraf etməyinə, İblisin cəngindən qurtulmağına mane olan hər şey. İbrahim yolunda qazandıqlarını itirməyə vadar edən sənin İsmailindir. Sənin İsmailin ağlını başından çıxarmış bir şəxs və ya cansız bir əşya ola bilər!

Amma İbrahimin İsmaili onun doğmaca övladı idi.

Saçları ağarmış, bir ömür qovğalar içində yaşamış, zalım Nəmrudla cihad meydanına girmiş, bütpərəstlərin və ulduzpərəstlərin cəhalət ağrısını yaşamış, bütpərəst bir kişinin evində azadlığını tapmış, evində təəssübkeş arvadı olan, ağır peyğəmbərlik vəzifəsi ilə yüklənmiş, cəhalət və şirklə mübarizədə qocalmış İbrahim ömrünün sonunda Allahdan bir övlad istəyir. Amma arvadı Sara da, özü də o qədər qocalmışlar ki, onlar üçün övlad yalnız şirin bir xəyaldır. Bununla belə Allah-təala ömrünü Ona xidmətdə keçirmiş sevimli peyğəmbərinə övlad hədiyyə edir. Saranın kənizi Hacər İbrahimlə izdivaca girərək onun üçün İsmaili dünyaya gətirir.

İsmail İbrahim üçün sadəcə bir övlad deyildi. İsmail bir əsr əziyyətin hədiyyəsi idi.

Bəli İbrahim üçün İsmail böyük dəyərə malik idi. Amma İbrahim hətta belə bir oğulu qurban verməyə hazır idi. Sənin İsmailin isə dünya malı, vəzifə, hansısa dəyərsiz bir şeydir.

səh:۶۹

İndi gözlərinin qarşısına həqiqət yolunda çarpışmalarına hədiyyə olaraq İsmaili almış qoca İbrahimi gətir. Geniş bir səhrada gözünü yeganə ağaca tikmiş bağban!

Bütün ömrü əzab-əziyyətdə keçmiş İbrahimin heç olmaya ömrünün son anlarında öz övladından ləzzət alması təbiidir. İsmail yüz il yolu gözlənilmiş oğuldur. O, bütün ümidlər üzüldüyü bir vaxt doğuldu. Vaxt ötürdü, İbrahimin həyatının yeganə meyvəsi olan İsmail sevgili bir gənc həddinə çatdı. İbrahimin qəlbi övlad eşqində qərq olmuşdur...

Amma ömür durduqca sınaqlarda durur. Vəhy qapıları açılır və Allah-təala ən çətin sınaq üçün əmr verir: “İbrahim! Bıçağı İsmailin boğazına qoy və kəs!”

İbrahimin halını təsəvvür etmək mümkündürmü, görən?! Allahın xalis bəndəsi olan, bəşər tarixinə qarşı qiyam qaldırmış İbrahim ömründə ilk dəfə titrədi. Amma bu əmri Allah vermişdi.

İbrahim həyatında ən böyük cihada qalxdı. Bu cihad meydanı onun qəlbi idi. İbrahimin köksündə “Allah, yoxsa İsmail” seçimi gedirdi. İbrahim kimi seçməli idi? Allahı, yoxsa özünü? Bağlılığı, yoxsa azadlığı? İstəyi, yoxsa həqiqəti? Ləzzəti, yoxsa məsuliyyəti? Həyatı, yoxsa axirəti? Atalığı, yoxsa peyğəmbərliyi? Bir sözlə, Allahı yoxsa İsmaili?

Seç, İbrahim! Xalq arasında bir əsirlik risalətinin sonunda peyğəmbərliyə və imamlığına, şirkə qarşı cihadına, tövhid binasını qoymağına, bütləri sındırmağına, cəhaləti puça çıxarmağına, bütün cəbhələrdə qələbənə, bir an belə olsun büdrəməməyinə, bütün imtahanlardan üzüağ çıxmağına qürrələnmə! Səni yüz illik cihad qələbələrin aldatmasın. Elə düşünmə ki, büdrəməkdən sığortalanmısan. Səni səndən daha yaxşı tanıyan var. Büdrəyə də bilərsən, çaşa da bilərsən,

aldana da bilərsən. Gözün dünyada qalsa səni məhv etməyə nə var?! Simurğla !Rüstəmin əhvalatını unutma

Ey İbrahim! Ey tarixin ən əzəmətli döyüşünün qəhrəmanı! Ey ülul-əzm peyğəmbər! Hələ peyğəmbərliyin başa çatmayıb. Allah insana boyun damarından yaxın olsa da, .Ona doğru, insanın yolu nəhayətsizdir

**Kamalın ən uca zirvəsi**

Sən peyğəmbərliyində kamalın ən uca zirvəsinə çatmısan. Amma bunun bəndəliyə nə dəxli?! Ey Musa, İsa, Məhəmməd (s) üçün yol açan Allah dostu! Bəndə olmaq çox çətindir. Bunun üçün mütləq azadlığa çatmalısan. Kamalın zirvəsinə qalxmış insanın da !süqut qorxusu var. Nə qədər ucadan yıxılsan bir o qədər çox əzilərsən

İsmailini qurban et! Öz əllərinlə! Sevgili övladını, ömür meyvəni, ciyərparanı, gözünün !nurunu, bir sözlə, səni bu dünyaya zəncirləmiş sevgini qurban ver

Sən isə, ey hacı öz İsmailinin qurban verilməsinə rəmz olaraq qurbanlıq bir qoyun al, ayaqlarını tut, yerə yıx. Başının tükündən bərk yapışıb arxaya çək ki, boğaz damarı .görünsün. Bu damarı kəs, bədəni soyuduqdan sonra ayağa qalx

!Ey Allahın bəndəsi, həqiqətin, imanın, peyğəmbərliyin səndən istəyi budur

İbrahim öz peyğəmbərlik yolunun sonunda seçim qarşısında qaldı: Allah yoxsa İsmail? Bütün vücudu fəryad çəkirdi ki, İsmail! İlahi dərgahdan gələn əmr isə qəti idi: Kəs! İbrahimin daxilində savaş gedirdi. Allah İbrahimdən onun öz canını istəsəydi, nə vardı ki! İbrahim bütün ömrü boyu canından keçməyə hazır olmuşdu. Ona görə də arxayın olmuşdu ki, azad bəndədir. Bu arxayınlıqsa zəiflik doğurur. Adi insanlar üçün gözəl .sayılan bir sifət İbrahim üçün maneədir

səh:۷۱

Ey canından keçən, İsmailindən keç! Tərəddüd... Necə də qorxulu! İmanın istədiyini könül istəməyəndə çox qorxulu məqam yaranır. Bu vaxt iman əmr edir, könül isə yayınmağa yol axtarır. Hətta həqiqətə yox demək üçün "həqiqət" də tapılır. İblisin, batilin, nəfsin həqiqət üzərinə hücuma keçərkən ağılı vasitə etməsi necə də böyük faciədir! Bir zaman beləcə Quranı bayraq edərək həzrət Əlinin üzərinə hücum etmişdilər. Batilə həqiqət donu geydirənləri Yezidin aqibəti gözləyir. Məsuliyyətdən .qaçmaq üçün əqli və şəri bəhanələr hər an bizi izləyir

Məsələn, İsmailin qurban kəsilməsi əmri qarşısında şeytan bəhanələr gətirir. Şübhə yaradaraq pıçıldayır ki, İsmailin qurbanlığı məcazi mənadadır. Guya Allah İsmail dedikdə azğın nəfsə işarə edir. Guya İsmaili öldürmək nəfsi öldürməyə işarədir. Hətta bu fikri təsdiq etmək üçün "ölməzdən qabaq ölün" kəlamından istifadə edilir. Əlbəttə .ki, bu kəlamda əvvəlcə azğın nəfsi öldürmək nəzərdə tutulur

Haradan məlumdur ki, Allah "sən" deyəndə məhz mənə müraciət edir?! Bu da şeytanın vəsvəsəsidir. Məsuliyyətdən yaxa qurtarmaq istəyən nəfs Qurandan, fəlsəfədən, məntiqdən, dəlillər də gətirir. Gah da belə bəhanələr ortaya çıxır ki, nə qaçaqaçdır, ay !var, il var

Çox yanlış bir mühakimə aparılır. Elə düşünülür ki, dini vəzifələrin icrası yalnız axirət xoşbəxtliyi üçündür. Əgər cihad, elm və bilik qazanmaq, həcc hökmü verilmişsə, guya hələ ölən günədək bu işlərin icrasına vaxt var. Məgər cihadın, elmin, həccin dünya həyatında rolu kiçikdirmi?! Əgər sən dini vəzifələrinin icrasını yubadırsansa bu gün bir şey itirmirsənmi? Əgər hamı elm öyrənməyi, ibadəti, cihadı, paklığı, zülmlə mübarizəni !ömrünün axırına saxlasa, dünya nə hala düşər

səh:۷۲

Dini məsuliyyətdən yaxa qurtarmaq üçün hətta Quran ayələri dəlil göstərilir. Guya Allah bəzi əmrlərlə sadəcə münasibətini bildirir. Məsələn, “İsmailini qurban et” əmrini verərkən, guya, nəzərimizə çatdırmaq istəyir ki, Allaha itaətlə müqayisədə övlad sevgisi heçdir. Guya, Allaha ibadət məqamında övlad sevgisi bir maneə olduğu üçün “İsmaili qurban et” əmri verilir. Belə bir yozumun nəticəsində İsmaili qurban kəsmək !zərurəti aradan qalxır

Bəli, yanlış yozum! Məsuliyyət ağır gəldiyi zaman könlün istəyinə uyğun olaraq bəhanə axtarılır. Amma həqiqət dünya istəklərinə uyğun olduqda əksər insanlar “həqiqət” deyə fəryad qoparır. Həqiqətlə yalnız o zaman razılaşırlar ki, bu həqiqət rahatlığa, alverə, istirahətə mane olmasın. Gündəlik həyat rahatlığına əngəl olmayan həqiqətə .hamı səs verir, hamı həqiqətpərəst olur

Həqiqət yeni vəzifələr yaratdıqda isə münasibət dəyişir. Bu vəzifələr qaranlıq və soyuq gecələrdə daşlıqdan və bataqlıqdan keçməyi tələb edirsə, azğın nəfs dilə gəlir, “dayan, gözlə, fikirləş, başqa yol var” pıçıldayır. Vəzifəni boynundan atmaq üçün yollar axtarılır. Din təhrif edilərək dünyaya uyğunlaşdırılır. İnsanlar cəhd edirlər ki, həm ismaillərini qorusunlar, həm də imansızlıq damğasından yaxa qurtarsınlar. Şərab içib adını şərbət qoyurlar. Yanlış yozuma istər şəri, istər əqli, istər ürfi, istər elmi don geyindirilsin, fərqi !yoxdur. Yanlış yanlışdır

Amma həcdə, xüsusi ilə İbrahimin əhvalatında ilahi imtahanların təhrifini Allah “İblisin təhrifi” adlandırır. İbrahimə də vəsvəsə olunur: “Bu əmri yuxuda eşitmisən, haradan bilirsən ki, həqiqətdir?! İblis İbrahimin qəlbində övlad sevgisini alovlandıraraq, onu .çaşdırmaq istəyir. İlkin daşladığın mücəssəmə həmin İblisdir

İbrahim, İsmailini qurban kəs!” Əmr tam aydındır. İbrahimin qəlbində çəkişmələr“ başlayır. Tarixin böyük qəhrəmanı pərişandır. İblis tövhid risalətinin bayraqdarı ilə oyun-oynayır. Allahla İblis arasında qalmış İbrahimi dərd üzür. Əql və eşqin, şüur və vicdanın, həyat və imanın, nəfs və Allahın qarşıdurmasında seçim etmək zəruridir. Heyvanlıq və insanlıq, təbiət və Allah, nəfs və agahlıq, yer və göy, dünya və axirət, !xudpəsəndlik və iman, ləzzət və fəzilət, şirk və tövhid arasında seçim

İkinci gündür. Məsuliyyət əvvəlki gündən daha da ağırdır. İsmail təhlükədədir. Onu qurumaq olduqca çətindir. İblis İbrahimi aldatmaq üçün bütün məharətini işə salmışdır. Bu, Adəmə qadağan olunmuş meyvəni yedirən İblisdir! İbrahim işıqla zülmət, Hörmüzlə Əhrimən, cismlə ruh, ziddiyyətləri arasında çırpınır. “Ona günahlarını (və pis əməllərdən çəkinməsini öyrətdi.”(۱

?Nəyi seçsin? Könül istəyini, yoxsa ilahi buyuruğu

Ey Allahın rəsulu, ey məsul, sən İsmailinin atası olaraq qalmaq istəyirsənmi? Onu öz əllərinlə qurban kəsməlisən! Bəli, İsmailindən keçməlisən. İman məsuliyyəti, eşq .məsuliyyətindən üstündür

İblis məntiqi dəlillərini işə salıb yenidən vəsvəsəyə başlayır: “Axı sən bu əmri yuxuda ”!eşitmisən

!Bu ikinci dəfədir. İblisin ikinci mücəssəməsini daşla

...İbrahim tərəddüddədir

!İbrahim! İsmailini qurban kəs!” Aşkar və qəti bir əmr“

Bu əmri başqa bir yerə yozmaq çətinləşir. İbrahim hiss edir ki, başqa bir yozum xəyanət olasıdır. İbrahim hiss edir ki, yalnız İblisə itaət etməklə bu əmrdən boyun .qaçırmaq olar



---

.Şəms”, ۸“ [۲۰]-۱

İbrahimin ayaqlarının altında yer titrəyir. Süqut qorxusu var. Büt sındıran ülul-əzm .peyğəmbər tövhid zirvəsindən süqut edə bilər. Aşağıda isə şirk bataqlığı qaynayır

Şirk? Yox, şirk çoxallahlılıqdır. İbrahim isə Allahla üzbəüz durduğu halda İblisə itaətə !sürüklənir. Bu vəziyyətdən seçimsiz çıxmağa imkan yoxdur. Necə də çətin məqamdır

İnsan zəif məxluqdur. Allahın ruhuna malik olduğu halda kövrəkdir. O, heç bir məqamda süqutdan suğortalanmayıb. O, ömrü boyu körpə uşaq tək özünü yıxılmaqdan gözləməlidir. Hətta tövhid peyğəmbərlərinin sonuncusu belə özünü gözləməzsə, doğru yoldan sapa bilər. Şirkin qatili, tarixin məşhur bütsındıranı, peyğəmbərlər atası İbrahim ömrün son mərhələsində oğul sevgisinə rəğmən uçuruma yuvarlanmaq təhlükəsində idi. İblis tövhid qəhrəmanı ilə oyun oynayırdı. Artıq !şübhəli heç nə qalmamışdı. Seçim qəti olmalı idi. Ya Allah, ya da İblis

Artıq İbrahimdə zərrəcə şübhə yoxdur ki, İsmailin qurbanlıq hökmü həqiqətdir. Həqiqət o qədər güclü, aşkar və yaxındır ki, heç bir dəlilə ehtiyac qalmayıb. O, günəş .tək işıq saçır

Bal arısı yüzlərlə kilometr məsafədən öz pətəklərini hiss edib, qaranlıqlardan, qayalıqlardan keçərək ona çatır. Həqiqətpərəst insan da belədir. Onda sanki həqiqəti hiss edən bir üzv var. O, bu üzv vasitəsi ilə tufanlar içində həqiqəti batildən seçə bilir. !?Yüz illik cihad yolu keçmiş İbrahim İblisə aldanaraq, həqiqəti səhv sala bilərmi

Amma indi böyük dost onun üçün bir tonqal qalamışdır ki, düşmənin tonqalından qat-qat yandırıcıdır. Əgər bir vaxt Allah düşmənin odunu gülzara çevirmişdisə, indi İblis .Allahın oduna gülzar libası geyindirməyə çalışırdı

səh:۷۵

İbrahim artıq nə edəcəyini bilir. Bilir ki, bütün tərəddüdlər şeytanın fitnəsidir. Şeytan sevgili övladı İbrahimin gözündə böyüdərək, ömrünün son anlarında onu yoldan çıxarmaq istəyir. Hər şey aydındır! Məsuliyyət çox ağırdır. Bir atanın təsəvvürünə gəlməyəcək dərəcədə ağır! Həm də bu ata İbrahim kimi qoca və tənhadır. Bu qoca tənha oğlunu qurban kəsməlidir. Kaş İbrahim özü İsmailin əli ilə qurban kəsilməli .olaydı! İbrahim üçün belə bir imtahan daha asan və daha ləzzətli olardı

İndi isə gənc İsmail ölməli, qoca İbrahim isə qəm-qüssə içində tənha qalmalı idi! Əlləri !qanlı tənha qoca

İbrahim Allahın əmri haqqında düşünsə də, bu əmrin Allah tərəfindən verildiyinə zərrəcə şübhə etmirdi. Amma elə ki, bu əmrin icrası haqqında düşünürdü, çarəsizlikdən donub qalırdı. Qəm-qüssə xoş bir simanı qəm dəryasına qərq edir. Dərd .yükü altında sanki sümüklərin qırılma səsi eşidilir

İbrahimin çarəsizliyi İblisə ləzzət verir. Adəmi behiştdən qovdurmağa nail olmuş İblis onun övladlarından əl çəkmir. Bir insan zəiflik və tərəddüdə düçar olduqda, bir şeyə könül verdikdə İblisin əlinə fürsət düşür. İblis öz məqsədi üçün hətta yaxşı işlərdən də istifadə edir. Övlad məhəbbəti kimi müsbət bir hiss onun əlində vasitəyə çevrilir. (“Həqiqətən, mal-dövlətiniz və oğul-uşağınız sizin üçün fitnədir”.(١

.Bəli, İbrahimin yeganə zəif nöqtəsi İsmaildir

Artıq, Allahın əmrini əsas götürərək İbrahim İsmaillə vidalaşmağa hazırdır. Amma qəlbi ayrılıq dərdi ilə doludur. Onun qəlbindəki qüssəsinin qoxusu İblisi məst edir. Bu .qəm Adəm oğlunu İblis üçün yağlı tikəyə çevirir



---

.Təğabun, ١۵“ [٢١]-١

İbrahimin qəlbindəki qəm İblisə ümid verir. Ona görə də İbrahimə yaxınlaşıb üçüncü dəfə cəhd edir: “Axı sən bu əmri yuxuda eşitmisən!”

Amma artıq gecdir. İbrahim öz seçimini etmiş, qəti qərara gəlmişdir. O, Allahın mütləq bəndəlik azadlığını seçmiş, İsmaili qurban kəsmək qərarına gəlmişdir.

Əvvəlcə qərara gəldi ki, məsələni İsmailə açsın. Onu çağırdı. İsmail gəldi. Ata öz qurbanlığının uca qamətinə nəzər saldı. İsmail! Necə də böyük qurban!

İndi Minada xəlvət bir guşədə ata ilə oğul arasında söhbət gedir. Bir əsrdən çox əzablar içində yaşamış qoca ata və növrəstə oğul! Səmalar bu mənzərəni seyr etmək gücündə deyil. Tarix bu söhbəti dinləməkdə gücsüzdür. Bəşər tarixində ata ilə oğul arasında belə bir söhbət görünməmişdir. Səmimiyyəti və həyəcanı təsəvvürə sığmayan bir söhbət!

Ata bu söhbəti dilinə gətirməyə çətinlik çəkir. Nəhayət, könlünü Allaha tapşırıb, canını dişinə tutaraq deyir:

İsmail mən yuxuda görmüşəm ki, səni qurban kəsirəm.

Bu sözləri elə tələsik deyir ki, özü də eşitməsin. İsmailin gözlərinə baxa bilmir. İsmail hər şeyi anlayır, atasına qəlbi yanır, ona təsəlli verir:

«Ata, Allahın əmrinin icrasında tərəddüd etmə. Təslim ol, mənim də təslim olacağımı görəcəksən. İnşaallah səbr edənlərdən olaram!»

İbrahim gücə gəlir, onun mütləq azadlıqdan başqa niyyəti yoxdur. İbrahimin tərpənişi İblisin ümidlərini puça çıxarır. Mütləq azadlıq seçimini etmiş İsmail də sakit və səbirli qurbanlıq kimi durmuşdur.

İbrahim bıçağı görürüb itiləmək üçün daşa çəkir. Onun İsmailə olan məhəbbəti yalnız bıçağı itiləməklə başa çatır. İndi o yalnız Allah eşqi ilə nəfəs alır. Allahın qüvvəsi ilə qalxıb, İsmaili qurbanlıq yerinə gətirir. Onu yerə uzadıb,

başından tutur. Özünü Allaha tapşırıb bıçağı boğazına çəkir. İbrahim çalışır ki, hər şey göz qırpımında başa çatsın. Amma... Bu nədir, bıçaq kəsmir! O, küt bıçaqla oğluna əzəyyət verdiyini düşünərək, qəzəblə bıçağı yerə atır. İbrahim yaralı şir kimi nərildəyir. Bir an ona elə gəlir ki, mane olan atalıq hissidir. İldırım tək sıçrayaraq, bıçağı götürüb ikinci dəfə cəhd edir! Qəfildən ilahi dərgahdan ona xitab olunur:”Ey İbrahim! Allah İsmailin qurban kəsilməsindən vaz keçdi. Sənə bir qoyun göndərir ki, İsmailin yerinə
”!kəsib, əmri icra edəsən

Allahu əkbər! İbrahimə qədər insanı Allaha qurban vermək kimi bir adət vardı. İbrahim ümmətində qurbanlıq insan əvəzində qoyun olur. İbrahimin Allahı başqa uydurulmuş tanrılar kimi insan qanına təşnə deyil. O, elə əvvəlcədən bu əmri sınaq məqsədi ilə buyurmuşdu. İbrahim sübut etdi ki, O, Allah yolunda hər şeydən keçmək iqtidarındadır.
!İsmail isə sübut etdi ki, o, Allah yolunda qurban getməyə hazırdır

Hikmətli və mehriban Allahın sınağı belədir. Öz peyğəmbərini son anadək imtahana çəkir. Bu imtahan nəticəsində həm İbrahim, həm də İsmail bəndəliyin ən uca zirvəsinə
.çatırlar

Bu əhvalatdan məlum olur ki, tövhid dini insanların əziyyəti yox, kamilliyi intizarındadır. Bu din, insanı nəfs istəklərindən azad olub, eşq göylərində meraca çağırır. Bu kamal
!yolunun zirvəsi isə şəhadət və ondan da uca olan İsmail səbridir

Bu əzəmətli əhvalat bir qoyunun qurban kəsilməsi ilə başa çatır. Bəs bu misilsiz
!əhvalatda başqa hansı səmərələr var? Bir qism acın doyurulması

Minaya çatdığım vaxt İbrahim tək öz İsmailini qurban kəsməlisən. Nədir sənin
İsmailin? Nədir səni Allahdan səh:۷۸

.uzaqlaşdırıb, dünyaya bağlayan şey? Bu maneəni düşünüb tapmalısan

Bu maneə övladındırmı, vəzifəndirmi, mülkündürmü, dostlarındırmı, qohumlarındırmı, sevgilindirmi? Bunu özün bil, başqalarının bilməsinə ehtiyac yoxdur. Həmin bu maneəni aradan götürməyin vaxtı çatıb. Allah əmrlərini yerinə yetirməkdə mane olan nə varsa, ondan azad olmalısan. Bil ki, bu maneə səni yerə buxovlamış, səma səfərindən saxlamışdır. Bu maneə sənin gözünü, qulağını, dilini bağlamış, həqiqəti .görməkdən, eşitməkdən, deməkdən məhrum etmişdir

Sən bu maneəni elə indicə Minada qurban kəsməlisən. Sonra isə bir qoyun kəs. Bu qoyun qurbanlıq olaraq qəbul olar. Əgər bu qoyunu həmin maneə niyyəti ilə kəssən, .əsil qurbandır, qoyunu qoyun kimi kəsmək isə qəssablıqdan başqa bir şey deyil

## **Üç büt**

İndi isə Minadakı üç bütü, mücəssəməni tanıyaq. Bu üç büt İbrahimdə şübhə .yaratmağa üç dəfə cəhd etmiş İblisin mücəssəmələridir

Görən, eqoist “məmindən” çıxıb, mütləq azadlığa can atan, əsarət zəncirlərini qırıb, ?həqiqətə qovuşmaq istəyən bütün insanlarmı bu üç mərhələni keçməlidir

Bu üç büt Ərəfat, Məşər və Mina mərhələlərinin əks qütbüdürmü? Birinci büt Ərəfatın, ?ikinci büt Məşərin, üçüncü büt Minanın ziddidirmi

Artıq düşüncəm bu səddi aşa bilmir. Aydın olan budur ki, pusquda oturmuş bu bütlər .insana ilahi hədəflərə çatmaqda maneədir

Onlar ilahi göstərişləri həm yanlış yozur, həm də inkar edirlər. İnsanın əsas süqut amili olan zəif nöqtələrinə səh:٧٩

toxunaraq, onu iflic edir, kamillik yolundan saxlayırlar. Hər birinin öz adı, öz ünvanı, öz düşərgəsi olan bu bütlər insana mane olmaqda əlbirdirlər. Onların hər üçü İblisin təzahürləridir. Yəni üçləşmiş İblis! Bu lap üçallahlılığa oxşayır. Bu üçlüyə həm .yəhudilikdə, həm Məsihilikdə, həm yunanda həm də hinddə təsadüf olunur

.Qədim İranda Əhrimən və Hörmüz üç məqamda zühur edirdi

Şirk nədir? Şirk həmin dünyəvi dindir ki, tarixi fəlsəfədə onun insan təfəkküründən doğulduğu bildirilir. Cəmiyyət bu dinə yox, din bu cəmiyyətə uyğunlaşır. Demək, problemlərini həll etməkdə çətinlik çəkən insanın din uydurması fikri doğrudur. Amma .bu, həqiqi din deyil, başqa sözlə şirkdir

Həqiqi din, yəni tövhid dini şirkin ziddidir. Əgər tarixdə məzhəb məzhəblə vuruşursa, .tövhid əhli şirklə vuruşur

Amma tövhid dininə də qatqı qatanlar tapılıb. İblis və onun ardıcılları bəşəriyyətin .yeganə xilas yolu olan tövhid dinini yanlış yozumla ictimai səhnədən çıxarıb

Allah tərəfindən göndərilərkən bütün dinlər tövhid dini olub. Məgər Məsihilikdə Allah !?bir olmayıbmı?! Məgər İsa özünü peyğəmbər adlandırmayıbmı

Mən əminəm ki, bütün ilahi dinlər ilk əvvəl tövhid dini olmuşdur. Amma ictimai .quruluşlardakı təbəqələşmə tövhidi şirkə çevirmişdir

Adəmin iki oğlu vardı, onlardan biri (Qabil) öz qardaşını (Habili) öldürdü. Adəmə varis qalan Qabil qəsbkar, qatil, şəhvətpərəst, asi bir insan idi. Tarixi yaradan insan nəsli .Qabildən törəyənlərdir

Sonra cəmiyyət inkişaf etdi, təbəqələşmə yarandı. Hər şeyə sahib olan Qabil öz :hakimiyyətini üç istiqamətdə qurdu

siyasət, iqtisadiyyat, din. Hər üç sahə qabilin azğın nəfsinə xidmət etməli idi. Bundan ötrü istibdad, istismar və istemar fəaliyyətə başladı. Həqiqi tövhid dini bu üç təzahürü Fironun, Qarunun və Bələmin simasında tanıtdırır. Tövhidin ziddi olan şirk isə bu üç yer .tanrıcığını göylərə qaldıraraq saxta din yaradır

.Bu üç tanrı səni özünə bəndəliyə dəvət edir

Ey İbrahim yolunun yolçusu bu tanrılar səni ismailpərəstliyə çəkir. Onların məqsədi .sənin azadlığını, var-dövlətini, əqidəni əlindən almaqdır

!Ey Minaya gələn, daşla bu bütləri

!Ey İsmailini qurbanlığa gətirən, İbrahim tək İblisi daşa bas

!Ey böyük bütsındıranın ardıcılı, ey tövhid əsgəri, hər üç bütü sındır

Zilhəccənin onunda günəş doğan kimi tövhid ordusu ilə birgə Minaya daxil olub, əvvəlcə son bütü vur! Bu büt kimdir? Firon, Qarun, yoxsa Bələm? Onların hər üçü .şeytanın təzahürüdür

.Yer üzündə Allahın canişini, ailəsi, varisləri onun layiqli bəndələridir

Bəs ilkin daşlanan sonuncu büt kimdir? Militarist rejimdə yaşayan ziyalı elə hesab edir ki, bu büt Firondur. İqtisadla məşğul olan mütəfəkkir bu bütün Qarun olduğunu zənn edir. Əqidəni hər şeydən üstün tutan ideoloq isə sonuncu bütün Bələm olduğunu .düşünür

Mən də əvvəlki həcc səfərlərimdə sonuncu bütü Bələm düşünərək daşlayırdım. “Allah (müşriklərin Ona şərik qoşduqları bütlərdən uzaqdır.”(١

(Əməl etməyənlər belində çoxlu kitab daşıyan ulağa bənzərlər.”(٢“



---

.Tövbə”, ٣١“ [٢٢]-١

.Cumuə”, ٥“ [٢٣]-٢

O elə bir köpəyə bənzəyir ki, üstünə cumsan da dilini çıxarıb ləhləyir, cummasan“ (da”.(١

Quran tamam olduğu zaman Allah öz peyğəmbərinə xəbərdarlıq edir ki, “sən şərdən amanda deyilsən, Allaha sığın!” “Nas”surəsində Allah üç sifətlə tanıtdırılır: “İnsanların rəbbi”, “insanların maliki”, “insanların ilahisi”. Bu sifətlər Minada üç bütün özünə götürdüyü sifətlərdir. Bəs peyğəmbər kimin şərindən Allaha sığınmalıdır? Quran bu suala aydın şəkildə cavab verir: “Vəsvəsə edən Xənnasın şərindən; o şeytan ki, insanların qəlbinə şübhə salır. Göründüyü kimi söhbət insanın qəlbində fəaliyyət .göstərən qüvvədən gedir. İnsanın düşüncəsinə, hisslərinə və əqidəsinə təsir göstərilir

Minada isə İbrahimin sinəsində vəsvəsəyə çalışan İblisdən danışılır. Bu həmin Xənnasdır, “cinlərdən və insanlardan olan şeytan”! Dinini satan saxta molla, elmini satan saxta alim, həqiqəti satan saxta ziyalı! Quran bəşər tarixində təfriqələrin, didişmələrin, fitnələrin ilkin səbəbkarı kimi dini və həqiqəti qorumağa borclu olan zümrəni ittiham edir. Bu zümrənin ümumbəşəri birliyə vurduğu zərbə təsadüfi olmamışdır. Bu mənfi fəaliyyətdə əsas rol oynayan, təcavüzkarlıq, zalımlıq, həsəd kimi .sifətlərdir

Bəşəriyyət bütöv bir toplum idi. Nə təbəqə vardı, nə ziddiyyət vardı, nə də təfriqə! “İnsanlar vahid bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən peyğəmbərlər göndərdi. İnsanlar arasındakı ixtilafları həll etmək üçün peyğəmbərlərlə birlikdə haqq olan kitab da nazil etdi. Aşkar dəlillər gəldikdən sonra kin və həsəd (üzündən ixtilaf yaradanlar elə kitab əhli idi.”(٢



---

.Ərəfat”, ١٧۶“ [٢۴]-١

.Bəqərə”, ٢١٣“ [٢۵]-٢

Amma həcc Mina düşüncəsinə sığacaq səviyyədən daha dərindir. Hər həcc səfərində elə güman edirdim ki, artıq hər şeyi anlamışam. Növbəti səfərdə gördüklərim isə məni .heyrətə gətirirdi

Əziz oxucu, elə düşünmə ki, həcc haqqında hər şeyi sənə çatdıra bilirəm. Mən sadəcə öz anladıqlarımı danışıram. Sən çalışaraq mənim dediklərimdən daha artıq mənalar dərk edə bilərsən. Başa düş ki, bu mərasimin əsasını zahiri əməllər yox, böyük mənalar təşkil edir. Bu mənaları bir düşüncəyə yerləşdirmək dənizi kuzəyə yerləşdirmək qədər müşküldür. Ona görə də hər növbəti səfərimdə əvvəlki düşüncələrimdə dəyişikliklər baş verir, yeniləşmələr gedirdi. Ötən səfərdə mənə adi .görünən bir şey növbəti səfərdə öz mahiyyəti ilə heyrət doğururdu

Son səfərimdə düşündüm ki, həcc sahibinin zəruri etmədiyi mənalara dəyərmi? Bu üç bütü fərqləndirməyə dəyərmi? Zənnimcə bü üç büt ona görə fərqləndirilməyib ki, bir .bütü daşlayan insan niyyətində hər üç bütü tutsun

Allah-təala hər bir tarixi dönəmdə bir bütün daha artıq təsirli olacağını bilir. Heç olmaya, o biri iki büt təsirsizləşdirilərdisə, bu da faydalı olardı. Ona görə də iqtisadi cəhətdən inkişaf etmiş ölkədən gələn hacının dindar bir ölkədən gəlmiş hacı ilə incə hədəf fərqləri vardır. Amma daşlanan üç bütün üçü də birdir və sonuncu büt əvvəlkiləri .də özündə birləşdirir. Hər bir bütün çiyinlərində o biri iki bütün yükü durur

Ona görə də sən hansı ölkədən, hansı zamandan, hansı quruluşdan gəlməyindən asılı olmayaraq, hər üç bütü vurmaq niyyəti ilə sonuncu bütü daşlamalısan. Çünki insan .daim sonuncu yalanın qurbanı olur

Demək, sonuncu bütlə üzbəüz durub, onun başına yeddi zərbə vurdun! Yeddi dünyanın yaradılışının başa

çatdığı günlərin sayıdırmı? Yeddi planetin sayıdırmı? Göyün yeddi qatının sayıdırmı? Həftənin günlərinin sayıdırmı? Zamana uyğun zərbələrdirmi? Bir şey məlumdur ki, bu mübarizə fasiləsiz, atəşkəssiz, daim davam edir. Bütlərlə üzbəüz rahat oturmaqmı !olar?! Ömür daim Minada, bütləri daşlamada keçməlidir

Yeddi çoxluq bildirir. Ey İbrahim, İblis sənin zərbələrin altında iflic olub diz çökdü! Ey insan, ey Allahın yer üzündəki canişini, sən də öz Allahın kimi İblisi qov! Bu ilkin yaranışda sənə səcdə etməyən həmin İblisdir! Ey İblisin oyuncağı, ey bütlərə aldanan, ləyaqətini qaytarmağa imkan yaranıb! Yenidən İbrahim məqamına çatmısan, son döyüş meydanından qalib çıxmısan, sonuncu bütü qırmısan. Səni Allahından uzaq .salan İsmailini qurban vermək məqamıdır

Son bütlə döyüşdən qalib şəkildə qayıdırsan. İbrahimin qəti addımları ilə qurban yerinə tələsirsən. Ən həssas məqamdır. Allahla öz arandakı maneələri qurban verə !bələcəksənmi?! Qəlbini Allaha bağla, dişini dişinə sıx, bıçağı İsmailin boğazına qoy

Amma İbrahimin Allahı nə qan təşnəsidir, nə də sənin İsmailinə möhtacdır. O, sənin qurbanlığını qoyunla əvəz edir. Amma bütün bu sınaqlar səni İblisin caynağından xilas .etmək üçün idi

Ey Allah yolunda İsmailinin boğazına bıçaq qoyan! Minaya İsmailini qurban kəsməyə gəlsən də, əlin yalnız İblisin qanına batdı. İblisin buxovundan yalnız o şəxs qurtara bilər ki, öz İsmailinin, yəni nəfs istəyinin əsarətindən qurtara. Nə qədər ki, qəlbinə İsmail .sevgisi hakimdir, İblis də öz düşərgəsində salamatdır

Artıq İbrahim olub, İblisi yerə yıxmısan. İsmaili isə ayağa qaldır, özünlə apar. İsmaili .yox, ona bağlılığı qurban vermək lazım idi. İsmail Allahın əta etdiyi bir nemətdir

Amma İblis insanın zəif damarından tutaraq bu neməti onun gözündə o qədər .böyüdür ki, Allah yaddan çıxır

.İsmailini də götür, Mina cəbhəsindən çıx. Cihad meydanı ilə vidalaş

**Bayram**

?Artıq hər şey başa çatdı. İndi yol haradır

Mina Məkkə ilə divar-divara qonşudur. Bəs nə üçün Kəbəyə çatmamış həcc bitir? Nə üçün hər şey Minada başa çatır. Bütün bu incəlikləri düşünüb, mənasını anlamaq .lazımdır. Bu düşüncə fərdi yox, xalq arasında, toplumda cavabını tapmalıdır

Bura qədər bütün həcc əməlləri cəm şəkildə icra edildi. Dünyanın müxtəlif nöqtələrindən, müxtəlif ictimai quruluşlu cəmiyyətlərdən gəlmiş müxtəlif rəngli, müxtəlif dillərdə danışan insanlar tövhid ordusu şəklində eyni bir məqsədə doğru gedirdi. Bu ordunun əsgərləri arasında nə təbəqə, nə vəzifə, nə elm, nə də sərvət fərqi vardı. Bu insanlar həcci namaz kimi vacib dini vəzifə bilərək Kəbəyə üz tutmuşdular. Onların həqiqi nümayəndələri bir yerə toplaşaraq dünya müsəlmanlarının dərdlərini .müzakirə edirdilər

**Bayramdan sonrakı iki gün**

Zilhəccənin onunda qurbanını kəsib həccini başa vurursan. Amma növbəti iki günü də Minada qalmalısan. Bu üç gündə Minadan çıxmaq qadağandır. Hətta Kəbəni təvaf .etmək üçün də Minanı tərk etmək olmaz

Əgər şeytan daşlanmışsa, qurbanlıq kəsilmişsə, insan ehram halından azaddırsa nə üçün Minadan çıxa bilməz? Bir milyondan artıq insanın bu susuz məkanda qalmasının ?mənası nədir

Bu iki gün ərzində həcc haqqında dərindən düşünmək üçün fürsət yaranır. Dünyanın min bir nöqtəsindən gəlmiş, tövhid imanı istisinə toplaşmış insanlarla birgə əyləşib dərdləşməyə ehtiyacı var. Alimlər, ziyalılar, döyüş meydanından gəlmiş mücahidlər üzbəüz oturaraq dünyanın, islamın, əsrin, məzlumların problemlərini araşdırmalı, islam düşmənlərinin hiyləgər planlarını müzakirə etməli, çıxış yolu tapmalıdırlar. İslami birlik üçün təhlükə olan xürafata, təfriqəçiliyə qarşı vahid plan hazırlanmalıdır. İslamı növbənöv hücumların, xəstəliklərin təsirindən qorumaq üçün, həqiqi islamı üzə .çıxarmaq üçün təhlillər aparılmalıdır

Peyğəmbərin əmri ilə Minada bina inşa etmək qadağandır. Bu müqəddəs məkanda bazarlıq, əyləncə üçün heç bir mərkəz yoxdur. Belə bir məqamda İbrahim yolunu keçmiş, ruhundakı çirkinlikləri yumuş, ilahi məsuliyyətini dərk etmiş insanlar üçün hər .şeyi götür-qoy etməyə ən münasib şərait yaranır

Axı həcc mərasimində dəyərli bir təkamül yolu keçmiş bir ümmət oturub .dərdləşmədən necə ayrıla bilər

Kəbə də, Ərəfat da, Məşər də, Mina da həmişə var. Amma həcc həmişə yoxdur. Səni bu torpağa gətiriblər ki, xalqdan uzaq yaşamağın puç olduğunu anlatsınlar. Xalqdan kənarda özünə qapılıb abidlik etməklə behişti tapa bilməzsən. Allah bu dünyanı sənə verib. Sən bu xalqa qatılmaqla, ona xidmət etməklə dünyanı gözəlləşdirməlisən. Dünyaya arxa çevirərək yalnız behişt haqqında düşünmək rahiblikdir və belə bir .düşüncə tərzi İslama yaddır

Zahid özünə pərəstiş edir. O, məzhəbi maddi elm olaraq ləzzət vasitəsinə çevirir. Həm bu dünyada tənhalıqdan ləzzət alır, həm də behişt istəyir. Amma İbrahimin və Məhəmmədin (s) İslamı bizə öyrədir ki, Allah bu sayaq səh:۸۶

müqəddəsliyin ziddinədir. Hətta buyurulur ki, xalqın problemləri haqqında !düşünməyən, bu problemlərin həlli üçün çalışmayan kəs müsəlman deyil

Həcci başa çatdırdın, İbrahimliyin zirvəsi olan İsmail qurbanlığınadək ucaldın. Amma bu hələ işin sonu yox, başlanğıcıdır. Bura qədər göstərdiyin səylər xalqa xidmətçi olmaq idi. Sən olanlarından ad-sana görə yox, Allaha görə keçməlisən. Səni həccə çağırmaqda məqsəd bu idi ki, xalqa qatılasan. Çünki tək-tənha həqiqətə yol tapmaq .mümkünsüzdür

Artıq həccin sonudur və bütün ibrahimilər öz ismaillərini qurban verərək bayram keçirirlər. Ey özünü Minaya çatdıra bilənlər, dağılışmazdan qabaq Minadakı son iki :günü İbrahimin iki böyük əməlini yerinə yetirin

.Ümumi və azad elmi seMinar .١

.Ümumdünya konqresi .٢

Bu iki gün həccin nəticələrinə həsr olunmalıdır. Bağlı bir zalda yox, geniş bir səhrada keçiriləcək konqresi təsəvvür edin. Bu konqresin iştirakçıları dövlət başçıları, .siyasətçilər, diplomatlar, parlament sədrləri yox, xalq olacaq

İnsanları həccə çağır ki, onlar sənin yanına piyada və hər hansı miniklə gəlsinlər; belə“ (ki, öz mənfəətlərinin şahidi olsunlar”.(١)

Bəli, yalnız xalqın özü! Tarixdə şüara çevrilmiş mütəfəkkir kəlamları var: “Heç bir şəxs vəkillik edib, onun adından danışa bilməz;” “Xalqın iştirak etmədiyi bir məclisdə onun adından deyilənlər yalandır. Xalqın əvəzinə yalnız Allahın qərara gəlmək haqqı var. ”.Yalnız xalq yer üzündə Allahın canişini ola bilər

Bəli, Mina konqresində xalq özü iştirak edir. Bu konqresdə dünyanın hər yerindən dəvət olunmuş insanlar



---

.Həcc”, ٢٧-٢٨“ [٢۶] -١

əhd-peyman bağlayırlar ki, yer üzündə tövhidin qələbəsi üçün çalışacaqlar. Çünki həzrət Məhəmmədin (s) peyğəmbərlik ideallarının davamına ziyalılar, agah insanlar məsuldurlar. İnsanlar tövhid ümməti olaraq öz həmnövlərini gözəlliyə dəvət etməyə .borcludurlar

Hər il dünya müsəlmanları tikanlı-tikansız sərhədləri keçərək azad Mina konqresinə toplanırlar. Əsil azad düşüncə və azad söz bu konqresdə deyilir. Burada kimsə .kimsənin sözünü kəsə bilməz, kimsə dediyi sözə görə təqib olunmaz

Elmi seMinar da açıq hava altında keçirilir; bu seMinarda yalnız alimlər yox, həm də fəhlə və qulluqçular iştirak edib söz deyə bilərlər. Bu seMinarda alimlik dərəcəsi və !vəzifə üçün imtiyaz yoxdur. Bütün iştirakçılar bir adla çağırılır: Hacı

İnsan üçün İbrahim olmaqdan uca məqam yoxdur. Burada isə hamı İbrahimin rolunda .çıxış edir

Həccin sonunda, qurban bayramından sonra iki gün qalıb, xalqla həmsöhbət olun və "cəmiyyətdə nə etmək lazımdır" sualına cavab tapın. Özünüzdən bunu da soruşun ki, .həccinizin nəticəsi nədir

**Ümumi bir baxış**

Gəlin nəticə çıxarmağa çalışaq. Əvvəlcə dərk edək ki, həcdə gördüyünüz işlərin əsil .mənası nədir

Sufilik Ərəfatsız və Məşərsiz Minadan başlayıb, Minada da dayanır. Fəlsəfə Məşərə qədər gələ bilir. Mədəniyyət Məşər və Minasız Ərəfatda dayanır. Həqiqi islam isə .Ərəfatdan başlayır, Məşərdən keçir, Minaya, ideal və eşq mərhələsinə çatır

Minada təəccüblü də olsa həm Allah, həm də İblisin iştirakı var. Burada söhbət səndən .gedir. Çünki Allahın da, İblisin də mənzili səndədir. İkilik təbiətdə yox, insandadır

səh:۸۸

Mina sənin iman və eşq məkanındır. Mina İsmail uğrunda savaş meydanı, sənin .arzularının vətənidir

Qurban bayramı! Qələbə və qan bayramı! Doğum və şəhadət bayramı. Sən bu millətin iftixarlarına bax! Əqidə və cihad ümməti! Tövhid ümməti! İnsanın azadlıq eşqini Adəmdən bu günədək çiynində daşıyaraq, mübarizə ruhunu fitrətinə hopdurmuş bəndə! Cihad meydanını Bədrdən Minayadək genişləndirmiş insan! Bu azadlıq yalnız Firondan yox, həm də İsmaildən azad olmaqdır! Təkcə düşmənin yox, həm də "mən"in !əsarətindən azadlıq

## Bayramdan sonra daşlama

Minada olduğun ilk gün sonuncu bütü daşlayıb, İsmail qurbanlığının ardınca getdin. .Sonra ehram halından çıxıb, bayram etdin, şadlandın

İndi isə ikinci gündür və hər üç bütü daşlamalısan. Bu dəfə bütləri ardıcıl .daşlayacaqsan: əvvəl birinci bütü, sonra ikincini, nəhayət üçüncü bütü

.Üçüncü gün də daşlama ikinci gün olduğu kimi ardıcıl surətdə həyata keçiləcək

Dördüncü gün Minada qalmağın vacib deyil. Amma qalası olsan, yenə də son iki gündə .olduğu kimi hər üç bütü ardıcıl şəkildə daşlayacaqsan

Minadan çıxmaq istərkən yığdığın daşlardan artıq qalsa, elə Minanın bir kənarında .torpaq altında gizləyərsən

Qurban bayramından sonra Minada qalıb, şeytanı yenidən daşlamağın mənası nədir? İbrahimə yaxın məqama çatdıqdan, İsmaildən keçdikdən, bayram etdikdən sonra yenidən döyüş meydanına qayıtmağın mənası varmı? Məgər düşmən üzərində qəti ?qələbə çalınmayıbmı

Bu təkrar, bu qayıdış böyük bir dərsdir. Allah sənə xəbərdarlıq edir ki, İblis yenidən dirilə bilər və sən ömür

boyu onunla mübarizədə ayıq olmalısan. Hər bir inqilab qələbə çaldıqdan sonra əksinqilab baş qaldırır. Başı əzilmiş ilanlar bayram qovğasından istifadə edərək .yenidən dirçəlir, rənglərini dəyişirlər

Bəli, içində yanıb-yaxılan düşmən dost cildinə girib, inqilabın nailiyyətləri ilə gizli .mübarizəyə başlayır

Onlar sənin qələbəni qəbul edə bilmir. Mina cilovunu əlindən buraxma, silahını yerə qoyma. İblisi qapıdan qovsan da, pəncərədən geri qayıdacaq. Onu Minada məhv .edirsən, amma bir az keçmiş içində, “mən”-ində peyda olur

Vasvasın, bu şübhə toxumu səpən şeytanın min bir hiyləsi, maskası var. Onu qara küfr paltarında məhv edirsən, o, yaşıl din libasında geri qayıdır. Şirkini ifşa edirsən, tövhid sifəti ilə görünür. Bütxanasını dağıdırsan, mehrabda peyda olur. Bədrdə qanını axıdırsan, Kərbəlada intiqam alır. Xəndəkdə başına şəmşir endirirsən, Kufə məscidində cavab verir. Ühüddə hobəl bütünü əlindən alırsan, Süffeyndə Quranı əlinə !götürür

Əgər zilhiccənin onuncu günü bütü sındırıb, ilkin qələbəni qazandıqdan sonra döyüşün başa çatdığını, düşmənin tamam məhv edildiyini zənn edib, döyüş libasını çıxarsan, !silahı yerə qoysan, çox sadəlöhvsən

Ey İbrahim mücahidi! Zilhiccənin onuncu günü qurban bayramıdır, qələbə bayramı yox! İsmail qurbanlığı ilə həcc bitmir, başlayır! Tövhid ordusu Minada şeytanın düşərgəsini darmadağın etmişsə də, əksinqilab fəaliyyətdədir. Silahı yerə qoyma, cihad ruhiyyəsini .itirsən, sındırdığın bütlər dirilməkdədir. Sənin qələbən, inqilabın təhlükədədir

Öz qələbəndən arxayınlaşma! İbrahim olduqdan sonra da təhlükədəsən! İsmailini !qurban kəsdikdən sonra da qorxu var! Bil ki, İblis yeddi rəngli, yetmiş hiyləli düşməndir

Dünən səni aldatmaq üçün İsmail vasitə olmuşdu. İsmaili qurban verdin. Yəqin ki, özündən razısan. İndi sənin üçün ən təhlükəli elə bu razılıqdır. İblis bu razılığını vasitə edib, səni yuxuya verə bilər. Deməк, daim silahlı olmalısan. Nə qədər ki, Minadasan hər üç bütü daşla!

Mina sənin üçün iman məkanıdır. Eşqin, arzuların, istəklərin, qələbələrin, hicrətinin bu son mənzilində gerçəkləşir. Sənin həccin kamilliyinin ən uca zirvəsi, həyat idealındır. Eləcə də, ən qorxulu düşməninin düşərgəsi buradadır.

Sən Minaya çatmısan. Özünü həmişə Mina da bilməli, Minada həmişə səndə olmalıdır. Şeytan düşərgəsinin yerləşdiyi Mina daim təhlükədədir. Qurban bayramından sonra da bütləri rahat buraxma. Ömrün boyu cihadda ol. Cihad təkcə hakimiyyətə çatmağın üçün deyil. Bil ki, bir qələbə ilə cihad bitmir. Bil ki, sənin bayramın qurban bayramıdır, qələbə bayramı yox! Həcdə daxil olduğun ehram halından çıx, amma daşları əlindən yerə qoyma.

Qələbə bir gündə əldə olunur. Amma özünü qalib sayanlar bu qələbəni bir gündə də itirirlər. Qələbə üçün bir daş lazımdırsa, bu qələbəni qorumaq üçün yeddi daşa ehtiyac var. Yeddi rəqəmi isə daimiliyə işarədir. Əgər yeddi zərbə ilə düşmən məğlub olursa, qəti qələbə üçün yetmiş zərbəyə ehtiyac var. Hər İblisə yeddi daş atsan da, Məşərdə yetmiş daş toplamışdın. Burada da bir məna var!

Əvvəldən axıra düşmənə hücumunda yetmiş daş atdın. Son üç həmlə isə Minadakı dördüncü gün baş tutdu. Hansı ki, elə birinci gün qələbə qazanmışdın. Amma bu qələbədən sonra da döyüş davam etdi və şeytanın hər üç mücəssəməsi ardıcıl olaraq daşlandı.

Dördüncü gün Minada qalıb-qalmamaq öz ixtiyarındadır. Hələ də təhlükə hiss edirsənsə, Minada qalıb

döyüşü davam etdirə bilərsən. Məkkənin fəthindən sonra Əbu Süfyanın təslim olmasını onun islamı qəbul etməsi kimi başa düşmə. İyirmi üç illik cihaddan sonra şirk cəbhəsi zahirən süquta uğradısa da, maskalanaraq gizli mübarizəyə başladı. Deməli, şirklə mübarizə davam etməli idi. Amma şirk öz işini gördü və biganə qüvvələr islam səltənətinin taxtına dırmandı.

Əgər elə hesab etsən ki, Minadakı qələbə ilə işlər başa çatıb, Kərbəlada qanına qəltan olmağa hazırlaş. Bil ki, insan durduqca İblis də durur!

**Vəhyin son sözü**

Hərəkətlərlə həyata keçən həcc Quran ayələrini nəql edir. Həcc boyu Quranı vərəqləyirsən. Demək, həccin sonunda Quranın sonuna çatırıq. Gəlin, kitabın sonluğundan bir dərs öyrənək.

Quranın son ayələri təhlükədən danışır. Həccin də son hərəkətlərində bu ruhiyyə vardır.

Həccin son mərhələsində üç büt daşlandısa, Quranın son surəsində üç mənfi qüvvə inkar olunur. Həccin sonunda hacıya, Quranın sonunda isə peyğəmbərə şərdən qorunmaq tapşırılır.

Demək, Quran başa çatmışsa da, təhlükə sovuşmamışdır. Peyğəmbərlik qələbə ilə başa çatsa da, hələ qarşıda təhlükələr var.

Quranın son iki surəsində şərdən qaçmaq haqqında danışılır. Hər iki surədə Allah tarixdə tövhid risalətini sona yetirmiş həzrət Məhəmmədi (s) qorxudur. Həccin də son iki günü mahiyyət etibarı ilə həzrət İbrahimin qorxudulmasından ibarətdir.

səh:۹۲

Ey Məhəmməd (s) davamçısı! Sən, İbrahim yolunu rəmzi olaraq keçmisən. Hələ əməl ?haqqında söhbət açılmayıb, hara tələsirsən

Ey hacı! Gəl həccin sonunda Quranın son ayələrini oxuyaq və qalib peyğəmbərimiz üçün gözlənilən təhlükələrdən xəbər tutaq. Minanı tərk etməzdən qabaq Allahın son .buyuruqlarından xəbərdar olaq

:O buyurur

"Qul əuzu birəbbil-fələq" — "de ki, (ey Məhəmməd) pənah aparıram sübhün Rəbbinə"

"Min şərri ma xələq" — "yaratdıqlarının şərindən"

"Və min şərri ğasiqin iza vəqəb" — "hər şeyi bürüməkdə olan zülmətin şərindən"

."Və min şərrin nəffasati fil-üqəd" — "düyünlərə üfürənlərin şərindən"

(Və min şərri hasidin iza həsəd" — "və həsəd aparanların şərindən". ("Fələq" surəsi"

Surədə xarici düşməndən söhbət gedir. Bu, üzbəüz dayanıb vuruşan aşkar düşməndir. Qaranlıqlar, zülmətlər, çirkinliklər günəş batan kimi Minaya çöküb hər şeyə zülmət pərdəsi çəkirlər. Belə ki, harada olduğunu görə bilmirsən, məşuqunu tanımırsan, .çaşaraq İsmailini zülmün qədəmləri altda qurban kəsirsən

Mənəviyatlara çökmüş bu zülmət səni çarəsiz edir. İblis əvəzinə mələklərə daş atır, Kəbə əvəzində Nəmrudu təvaf edirsən. Cadugər siyasətçilər, düşüncə oğruları, təfriqəçilər, şayə düzəldənlər araya nifaq salır, qardaşları düşmən edir, düşmənləri dost kimi göstərir, ilahi bağları qırır, iradələri iflic edir, tövhid ümmətini parçalayır, tikə-.tikə udur. Düyün çalanlar həmin zülmətin alətləridir

Həsədini uda bilməyib işə salan xəstələr tüğyan qoparır. Bu həsədçil nə zülmətdir, nə ,də düyünçalan. Bu

səninlə çiyin-çiyinə durmuş, düşmənin muzdu olmadan arxadan arxaya zərbə vuran .dostdur. O, məqsədli şəkildə yox, xəstə olduğu üçün sənə quyu qazır

Həsəd, paxıllıq əlacsız xəstəlikdir. Bu xəstələr qalib gəlmiş ilahi inqilabların ayağının altını qazır, cəsur mücahidləri ayağından çəkir, pak insanları yoldan çıxarıb, küfrə alət .edir. O, bunu istəməsə də edir və kimsə onun əməllərindən xəbər tutmur

Sən Minada zülmətin və düyün çalanların xeyməsini tapıb uçura bilərsən. Bəs həsədçillə nə edəcəksən? Bu oyuncağı tapıb məhv etmək müşküldür. O, üçüncüdür. .Əvvəlcə zülmət, sonra düyün çalanlar, nəhayət, həsədçilər

Minada birinci daşladığın üçüncü büt odur. Yenə də üçlük, yenə də üç büt! Əgər ikinci .büt birinci büt üçün muzdla işləyirsə, üçüncü büt özündənxəbərsiz düşməndir

Amma bu bütlərdən qurtulmağa yol var. Sübh açılıb, öz nurunu Minaya yağdırdıqdan sonra günəşin qılıncı hər üç bütün xeyməsini parça-parça edəsidir. "Pənah aparıram ."sübhün Rəbbinə

Quranın sonuncu surəsində isə çox böyük bir təhlükədən danışılır və məlum olur ki, !Minanı azad etmək çox çətindir

Fəxr Razinin qeyd etdiyi kimi, əvvəlki surədə Allahın bir sifəti zikr olunmuşdusa, bu surədə Onun üç sifəti xatırladılır. Söhbətin əvvəlindən aydın olur ki, məsələ olduqca ciddidir, Əgər əvvəlki surədə adı çəkilən düşmənlər sübhün nurunda əriyib yox .olurdusa, burada vəziyyət tamam başqadır

Surədə Allaha "Rəbb", "Məlik", "İlahi" adları ilə üz tutulur. Deməк, söhbət xalqın .arasında bu adlara sahib durmaq istəyən düşmənlərdən gedir

:Surədə buyurulur

”Qul əuzu bi rəbbinnas” — “de ki, pənah aparıram xalqın Rəbbinə“

”Məlikinnas” — “insanların məlikinə, ixtiyar sahibinə“

(İlahinnas” — “insanların ilahisinə, məbuduna” (“Nas” surəsi“

Əvvəlki surədə söhbət dünya və cəmiyyət haqqında idi, dünyaya hakim qara qüvvələrdən, düşüncələri ovsunlayanlardan və xəyanətkarlardan danışılırdı. Zalımlardan, fəsad əhlindən və xəyanətkarlardan ibarət olan bu üç qüvvənin .cəmiyyətə vurduğu ziyanlar önə çəkilirdi

**Məsələyə başqa cür diqqət etmək**

İndi isə diqqət ictimai quruluşlara, ictimai təbəqələrə, xalqa və xalqa hökmranlıq edənlərə yönəldilir. Artıq söhbət predmeti allahlıq iddiasında olanlardır. Allahın sifətlərinə sahib durmaq istəyənlər xalq üçün bütlər düzəldir, onları özlərinə bəndəliyə sövq edirlər. Tənhalığa çəkilmiş bəzi alimlərin gümanına zidd olaraq, tövhid və şirk sadəcə elmi və ideoloji mübarizə yox, bəşər tarixi boyunca davam edən ictimai və tale yüklü, qlobal ziddiyyətdir. Şirk tarixə hakim olmuş bir məzhəbdir. Bu məzhəb, daha doğrusu, ideologiya bəşəriyyətin ən dərin və ən gizli faciəsidir. Bu faciəni hətta ziyalılar da hiss etməkdə acizdir. Azadlıq pərdəsi altında xaqlar qul kökünə salınmışdır. İblis müqəddəslik donu geymiş, təhrif olunmuş din xalqa qarşı çevrilmişdir. Din yer tanrıcıqlarının əlində vasitəyə çevrilmiş, xalqın ən böyük düşməni olan Xənnas şeytan !öz vəsvəsələri ilə qəlblərə hakim kəsilmişdir

.Ona görə də uyğun surədə “nas”, yəni xalq təkrar-təkrar zikr olunmuşdur

Xalq arasında özünə allahlıq məqamı yaradanlar kimdir? Həqiqətə qarşı çıxıb, Allah və xalqa meydan oxuyanlar kimdir? Yenə də üç büt, üçlük! Surədə xatırladılmış üç ilahi ?sifəti qəsb edən kimdir

Bu sifətlər birləşdiyi zaman tövhid zühur edir. Naqis tövhid isə şirkdir. Bu şirk, adətən, üçlük formasında meydana çıxır. Üç sifətdə görünüb xalqa, şəhid Habilin övladlarına hökmranlıq edən həmin cəllad Qabildir. Qabil təkdirsə, onun zühuru Firon, Qarun və Bələm sifətlərində gerçəkləşir. Tarixdəki bütün üçlüklər bu sayaqdır. Bütün üçallahlı .dinlərdə Allah üç sifətdə tanıtdırılır

Bəşər tarixinin başlanğıcında bütün mülkiyyətlər ümumi idi və hamı qardaşcasına yaşayırdı. Əkinçiliklə məşğul olan Qabil “bu torpaq mənimdir” deyərək fərdiyyətçiliyin bünövrəsini qoydu. Birlik ikiliyə parçalandı. Qabil allahlıq iddiası etdi. Üçlüyə sitayiş .yarandı. Bütün peyğəmbərlər, mücahidlər və şəhidlər bu üçlüyün odunda yandı

Əsarət buxovu xalqın azadlığını əlindən aldı, Allah bəndələri allahcıqların bəndəliyinə sürükləndi. Əvvəl xalqın boynuna boyunduruq salındı, sonra cibləri boşaldıldı, nəhayət səcdəyə endirildi. Xalqın qulağına saxta bir şirinliklə pıçıldadılar ki, mən sənin din qardaşınam, dünyanı ver dünyapərəstlərə, günahlarını kasıblığınla yu,zülmə səbr et ki, !behişti qazana biləsən

Çıxış yolu nədir? Bizi elə anlatdılar ki, başımıza gələnlərə dözməsək Allaha qarşı çıxmış olarıq. İnandırdılar ki, dünyada çəkdiyimiz əzabların əvəzini axirətdə alasıyıq. Dedilər ki, ədaləti bərpa etmək xalqın yox, Allahın işidir. “Əgər sən zalımı bağışlamasan, Allah onu bağışlayar” deyərək ağlımızı oğurladılar. Soruşduq ki, axı “əmr be məruf və nəhy əz münkər”, yəni xalqı yaxşıya dəvət edib, pisdən çəkindirmək vəzifəsi necə olsun? Dedilər ki, bundan ötrü elm və təqva lazımdır, sözünün təsirinə əmin olmalısan, dediyin !sözdən zərər görməməlisən

Beləcə əl-ələ verib bütün cəmiyyətlərdə öz bildiklərinə din donu geyindirdilər. Qabilin üç sifətinə diqqət et: Qabil özünü mülk sahibi bilərək qardaşını öldürür, övladlarına hökmranlıq edir, şəhid qardaşına varis olur!

Maraqlıdır ki, bütün ibrahimi peyğəmbərlər, tövhid və ədalət keşikçiləri, Habilin varisləri, bərabərlik dövrünün insanları çoban olmuşlar. Son peyğəmbər həzrət Məhəmməd (s) Məkkə camaatının qoyunlarını otarardı.

Habil övladları, yəni xalq həmişə Qabilin üçsifətli (canavar, tülkü, siçovul) övladlarının istibdadına, istismarına və müstəmləkəçiliyinə məruz qalmışdır. Ona görə də xalqı Qabil caynağından xilas etmək üçün qiyam qaldırıb, mübarizəyə aparanlar elm adamları yox, çobanlar olmuşdur. "And olsun ki, biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə göndərdik. Kitab və ədalət tərəzisi nazil nazil etdik ki, insanlar ədalətlə rəftar etsinlər"...(١)

Bu səbəbdən də tarix boyu xalqın içindən peyğəmbərliyə seçilənlər Habil övladlarını, yəni xalqı tövhidə, ədalətə və agahlığa çağırmışlar. Düşmən var qüvvəsi ilə bu peyğəmbərləri təqib edərək, onları qətlə yetirmiş, əzab vermişlər. Amma peyğəmbər onlara qalib gəldikdə təslim olaraq, maskalarını dəyişmiş, hətta peyğəmbərdən sonra onun hakimiyyətinə sahib durmuşlar. Bəli, düşmən yeddi rəngə boyanır, yetmiş maska taxır, yeddi min ad dəyişir və yetmiş min tələ qurur.

Qatil Qabil, qətlə yetirilən isə Habil idi. Bütün xalqa ixtiyar sahibi olan, onu məhkum edən, ovsunlayan Qabildir. İki qardaşı düşmən edən mülk oldu. Həmin bu mülk cəmiyyəti təbəqələrə, dünyanı qütblərə, imanı ikiyə parçaladı. Quranın təbirincə, xalq zəiflədildi. Xalqı zəiflədən üç silahla üç düşərgədən hücuma keçən Qabildir.



---

١- [٢٧] "Hədid", ٢٥.

O, ya Firon sifətində xaqa zülm edir, ya Qarun sifətində xalqın olanını əlindən alıb qanını içir, ya da Bələm sifətində insanların imanını korlayır. Bu üç sifətdə meydana çıxıb, bir Allahı üçlüklə əvəz edən də Qabildir. Onun yetmiş min hiyləsi var. Bəzən maskalıdır, bəzən maskasız, bəzən küfr adından danışır, bəzən din adından, bəzən diktatura qurur, bəzən demokratiyaya üstünlük verir, bəzən ruhani libası geyir, bəzən ziyalı libası, bəzən əyyaşlıq edir, bəzən isə abidlik, bəzən məsihi olur, bəzən müsəlman, bəzən sünni olur, bəzən də şiə... Qapıdan qovursan pəncərədən girir. Quldarlığı ləğv .edirsən, təhkimçilik yaradır, feodalizmi aradan götürürsən, kapitalizmi inşa edir

Həzrət Musa öz tövhid əli ilə Fironu Nildə qərq edir, Qarunu torpağa basdırır, sehrbazlığa son qoyur. Nildə batmış Firon yüz illər sonra Şaron sifətində İordan çayından çıxıb Tövratı əlinə götürür və Musaya varis olur. Beləcə, Fələstin .torpaqlarında zülüm ərşə dirənir, qan su yerinə axır

## Həzrəti İsa və yəhud dini

Həzrət İsa zühur edib təhrif olunmuş Yəhud dinini aradan götürür və Roma imperiyasını daşqalaq edir. Nə dəyişilir? İmperator papa olur, rahiblər keşiş libası !geyinir

Həzrət Məhəmməd (s) məbus olub bütün batil əqidələrə son qoyur, Qeysər və Xosrovu məğlub edir. Nəticə nə olur? Bir müddət keçmiş həmin Qeysər və Xosrov xəlifə olur, rahib və keşiş imam kürsüsünə oturur, kübarlar əshab adına sahib durur. Bu qəsbkarlar öz qətl-qarətlərini cihad və zəkat kimi təqdim edir, xalqın əzab-əziyyətini Allahın iradəsi ilə əlaqələndirirlər. Peyğəmbərin Əhli-beyti şəhadətə yetirilir, zindanlara salınır, amma İslamın qanına susamış Əbu Sufyan və Abbas övladları !Məhəmmədə (s) varis qalır

Həzrət Əli həqiqi dinin davamı üçün çalışır, məsum imamlar iyirmi beş il qəsbkar zalımlarla vuruşub, şəhid olurlar. Həqiqi islam davamçıları zülm və cəhalət səh:۹۸

səltənətində vilayət bayrağını qaldıraraq, imamət və ədalət şüarları altında .qəsbkarlarla vuruşurlar

Avropada intibah ( renesans) kilsəyə qalib gəlir, elm dinin yerini tutur, mədrəsələr bağlanır, dünyəvi məktəblər açılır, ruhanilər məbədlərdə əsarətə salınır. Kilsədə öz .işini başa vurmuş Bələm universitetlərə üz tutur

Fransa inqilabı feodalizmin kökünü qazır, Bələm Qarunu kənddən şəhərə gətirib, bank .sahibi edir

Fironun boynu Fransa burjua inqilabı zamanı doktor Gilyotinin ixtira etdiyi başkəsən maşında vurulur və bu baş Qarunun pulu, Bələmin cadusu hesabına demokratiya sandığından çıxır! Çomaq budaq verib iki olur. Qabilin övladları, yəni bizim əmiuşaqlarımız əl çəkən deyil. Qabilin "istibdad, istismar və müstəmləkəçilik" adlı üç oğlu əl-ələ verib ardımızca gəzir. Canavardan şallağı alırsan, siçovul səni satın almaq istəyir. Siçovulun da əlindən bir iş gəlməyəndə tülkü meydana atılır. Dini, elmi, sənəti, fəlsəfəni alət edib səni tovlamağa çalışır. Bundan da bir şey çıxmasa, abid libası geyib, «siyasət hara biz hara, gəl ibadətimizi edək» hiylələri ilə yaxınlaşır. Onun daha iti silahları da var. Bütün təbliğat vasitələrini əlinə alıb, kübar həyatı tərzini, lüks yaşayışı , eyş-işrəti gözə soxur. İnsanlar müvəqqəti ləzzətlər üçün öz gələcəklərini ağalara bağışlayır, qəlb rahatlığını verib, can rahatlığı alırlar. Gözəl yaşamaq ardınca qaçanların, rəqs və seksə qul olanların düşünməyə vaxtı qalmır. Bundan da bir şey çıxmasa, gənc nəsli şam tək əridib, yoxa çıxaran narkomaniyaya rəvac verilir. Başqa !kələklər də var

Dünyanın zəiflədilmiş xalqları, şəhid Habilin övladları, Allahın həqiqi bəndələri, qardaşlıq və bərabərlik aşiqləri intiqam hissi ilə yaşayır. İmanlı könüllərdə həqiqətin qisasını almaq hissi daim şölələnir. Bu ümidlərin məşəli tövhid

bayrağıdır. Ərəfatdan tarixin Minasınadək əldən ələ ötürülən ilahi biliklər dünyanın son saatınadək yaşayasıdır. Dünyanı bürüyəcək ədalət inqilabı, məhkum olmuşlara !imamət, yer üzü məhrumlarının varisliyi

Məhrumların əlində tarixin üstündən qırmızı xətt çəkən tövhid bayrağı, üç bütün əlində !isə şirk, zülm, cəhalət bayrağı

Küfr və din təəssüb və təfriqə yox, filosof və sufilərin səmərəsiz mübahisələri yox, bəşəriyyətin tənəzzülü və təkamülüdür. Küfr və dinin cərgələri və xüsusiyyətləri aşkardır. Meydanda iki cəbhə var, yalnız iki cəbhə! Başqa nə varsa yalan, və .uydurmadır

Qurandan başqa heç bir sözə qulaq asma, tarix başdan ayağa Qabil övladlarının uydurmaları ilə doludur. Haqq deyilkən haqdan danışanları dinləmə. Onlar Allahın, Quranın, şəhid Habilin adından danışmağa çəkinmirlər. Unutma ki, bu təhrifçilərin təcavüzündən amanda qalmış yeganə sənəd Qurandır. Quranın özünü dinlə. Qoy, o özü sənə bəşəriyyətin başına gələnlərdən, peyğəmbərliyin mənasından danışsın. "İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən peyğəmbərlər göndərdi. İnsanlar arasındakı ixtilafları ayırd etmək üçün peyğəmbərlərlə birlikdə haqq olan kitab da nazil etdi".(١) Amma insanlar bilərəkdən !zülmə əl atdılar

Allah peyğəmbərləri nə üçün göndərdi? "Biz peyğəmbərlərlə birlikdə kitab və ədalət tərəzisi nazil etdik ki, insanlar bir-birləri ilə ədalətlə rəftar etsinlər". ("Hədid", ٢٥ Elə bu .məqamda da təkamül və tənəzzül açıq-aşkar bir sərhədlə ayrıldı

.Artıq küfr və dinin sərhədləri aşkardır və hər birinin rolu məlumdur



---

.Bəqərə", ٢١٣" [٢٨] -١

Yenə də Quranın özünə üz tut: “İman gətirənlər Allah yolunda, kafir olanlar isə şeytan yolunda vuruşurlar. Elə isə şeytanın dostları ilə vuruşun! Şübhəsiz ki, şeytanın hiylәsi zəifdir”.(۱) Bəs şeytanın dostları kimdir? Bəli, həmin üç büt, həmin üç qüvvə, həmin !üçlük

Ey Allah dostları! Ey İblisin hücumları qarşısında həqiqətin keşiyini çəkənlər! Qara cadu küləklərinin qarşısında təqva (pəhrizkarlıq) libası geyinin! Allaha doğru aparan hər bir yolun başında xalq üçün zülm torları qurulmuşdur. “Allahdan başqasını özünə dost qəbul edənlər yuva qurmuş hörümçəyə bənzəyirlər. Evlərin ən zəifi isə şübhəsiz ki, (hörümçək yuvasıdır.”(۲

Ölümdən qorxmayın, savaşdan çəkinməyin, təqvalı olun, zərrəcə zülm görməyəcəksiniz. Ey tövhid ümməti, Habilin intiqamı sənin boynundadır. İxtiyarında !isə kitab və ədalət tərəzisi vardır

!Ey Adəm varisi! Ey xalq

!Ey güc, azadlıq və agahlıq carçısı

!Üç şirk qəsbkarından Allaha sığın

Ey Ərəfatdan, Məşərdən, Minadan qırmızı şəhadət xətti ilə keçib, bütlər düşərgəsinə qədəm qoyan! Sən azadlığın ən uca zirvəsinə qalxdın, öz Mina yurdunu fəth etdin. Ey İbrahim millətində, Məhəmməd (s) yolunda olan, təhlükədəsən, ayıq ol! Qabildən olan !üç büt dirilməkdədir

!Peyğəmbər, onun kitabı, onun ardıcılları təhlükədədir

!Yəni sən, sənin azadlığın, həyatın, imanın, tövhid təhlükədədir

səh:۱۰۱

---

۱- [۲۹] “Nisa”, ۷۶.

۲- [۳۰] “Ənkəbut”, ۴۱.

Hər üç bütün şərindən qorx və xalqın ixtiyar sahibi olan Allaha sığın! Üç bütdən, İblisdən və Qabildən qorx! Ağlını gizlicə çaşdıranın, xalqı tərəddüdə salanın, həm cin, !həm də insan zümrəsindən olanın təhlükəsindən qorx

Vəsvas kimdir? Lüğətlərdə belə mənalandırılır: vəsvəsəçi; nəfsdən doğub əqli çaşdıran ...xəstəlik; pis və ya puç düşüncə

Sənə təlqin olunan daxilində özünə yer edib, qulağından və gözündən xəbərsiz səninlə danışır. O, Xənnas şeytandır. Səni düz yolundan uçuruma çəkən, özündə əridən, içində gizlənən, ardınca gəzib aldadan Xənnasdır. O, səni şərə salır, puç işlərə məşğul edir, .ümidsizləşdirir, biganələşdirir

Xənnas cindirmi? O, həm cinlərdən olur, həm də insanlardan. Cin gözə görünməyən məxfi bir qüvvədir. O, insan deyil, amma insanı oyuncağa çevirə bilir. Haqqında danışdığımız üç büt, üç mənfi qüvvə həm gizli həm də aşkardır. Onlar gözdən itir, rəngini dəyişir, yenidən qayıdır, məğlub edilir, yenidən ayağa durur. Bu gün vəziyyət həmişəkindən daha faciəlidir. Elə düşünməyin ki, insan üçün atom bombası qorxuludur. Bu gün daha qorxulu bir proses, insanın mahiyyətini dəyişdirilməsi prosesi gedir. Elə bir insan modeli hazırlanır ki, sanki onu Allah yaratmamışdır. O, ağasını tanımayan"azad " qula bənzəyir. Bu insan modeli özü öz dəyərini ödəyən qiymətli daş kimidir. O, oğurlanmaq üçün növbəyə duran xəzinəyə bənzəyir. O, aldığını baha alır, .satdığının pulunu özü ödəyir. O, Allahdan və öz insanlığından savay hər şeyin quludur

## Təsəvvür edilməyən təhlükə

Bu faciə təsəvvürə sığmaz dərəcədə təhlükəlidir. İnsan fitrəti öz növünü dəyişməkdədir. Artıq həmin üç qəsbkar qılıncla, pulla, yalanla silahlanmır. Bu gün insanlar texnika, incəsənət, narkomaniya ilə ovlanır. İnsanlarda azadlıq hissi

öldürüldükdən sonra onlara azadlıq verilir. Həqiqi azadlığın nə olduğunu bilməyən .insan necə azad olsun?! Seçkidə səs verən o özü yox, qəlbindəki şeytandır

Daxilində cin məskunlaşmış insan dəli olur. Dəlini insan sayırsınızmı? Dəlinin insani şəxsiyyəti varmı?! Limonad qabına su tökəndə o, limonad olur, yoxsa su?! İnsanı insan edən onun daxilidir, yoxsa zahiri?! Bəli, bu gün insanın şəxsiyyəti oğurlanır, bu .şəxsiyyətin yerində dünya zalımlarının müvəkkili oturur

İnhisarçı kapitalizm gilyotinləri səhnədən çıxarmış, bu başkəsən maşınların yerində kazinolar, striptizlər, fahişəxanalar tikilmişdir. Bu gün insanın cisminin yox, ruhunun !başı kəsilir. Bu da şeytan təbəssümlü qansız demokratiya, liberalizm

Artıq şərdə də Teymur istibdadından əsər-əlamət yoxdur. Bütün vəhşiliklər modernizm, mədəniyyət maskası taxmışdır. İnsandan olan vəsvəsəçilər, cəlladlar, peşəkar qatillər qalstuk taxıb, odekalon vurmuş, təbliğat yolu ilə hücuma keçmişlər. İnsanların damarına "qərb mədəniyyəti" adlı zəhər köçürülür. İmkanlardan çox-çox .uzaq həyat tərzi xəyallara hakim kəsilir. Artıq, əxlaqdan danışmaq gülünc görünür

İslamın zühurundan ötən min dörd yüz il ərzində "Nas" surəsinin təfsiri üçün bu günkü .kimi aşkar nümunələr olmayıb. Xənnas heç zaman bu günkü kimi tüğyan etməyib

Əsrini tanıyan alim və ziyalı elmin çirkin alətə çevrildiyini asanlıqla görə bilər. Millətlərin mədəniyyət adı altında cəhalət və imansızlığa sürükləndiyi göz qabağındadır. İnsani şəxsiyyətinə biganələşmiş millətlər təqlidçilikdə maniken qədər müti olmuşlar. Azad baxışlı hər bir insan millətlərin başına nə oyunlar açıldığını görməyə bilməz. Millətlərin istismarı, təbii sərvətləri kapitalizmin gözünə

soxulan ölkələrə təcavüzlər, insan hüquqlarının tapdanması göz qabağındadır. Əsil faciələrsə pərdə arxasındadır. Siyasi, hərbi, iqtisadi, milli, hüquqi faciələr bu faciənin bərabərində əhəmiyyətsiz görünür. Əsil faciə xalqın daxilində vəsvəsələrin, şübhələrin, tərəddüdlərin yaradılmasıdır. Əvvəlki surədəki faciələr daha sadə idi. Əsil faciə insanın xaraktercə dəyişdirilməsi, növünün əvəz olunmasıdır. Vəsvas insanın vücudunu yox, mahiyyətini başqalaşdırır. Həqiqi ziyalını fəryad qoparmağa sövq edən də budur. Çünki yalnız o vəsvasın mənasını anlayır, bu faciənin dərinliyini hiss edir. Əgən adi insanlar insanın cismən öldürülməsini görürlərsə, həqiqi ziyalılar insan şəxsiyyətinin məhv edildiyinə şahid olurlar. Ziyalı anlayır ki, Xənnas insanın yalnız əl-ayağını zəncirləmir, eləcə də, xəlvətcə onun şəxsiyyətini cünun edir. Bəli, zahirən insan .kimi görünən vücud daxilən cin vurmuş divanəyə çevrilir

Vəziyyət həmişəkindən daha təhlükəlidir. Gizli düşmən daim pusquda durub, qəlbinə yol axtarır. Fürsət tapan kimi düşüncəni, şəxsiyyətini, imanını, eşqini, qələbəni, cihadını .hədəfə alır

Düşünmə ki, düşmən həmişə hərbi geyimdə ələsilahlı olur. O, sənin düşüncəni zəhərləyən bir sənət əsəri, bir musiqi nömrəsi, bir kinofilm də ola bilər. Ən qəddar düşmən düşüncəni hədəfə almış düşməndir. Bürokratizmdən, korrupsiyadan, avtoritarlıqdan daha qorxulu şovinizm, irqçilik, kübarlıqdır. Epikürizm, materializm, romantizm, nihilizm kimi şəxsiyyətə qarşı yönəlmiş silahlar var. Əqlə sitayiş edən fəlsəfə, hissə sitayiş edən irfan öldürücü silahlardır. Bəşəriyyəti şəhvət girdabına sürükləyən Freydizm, onu qarın düşgünü edən ekonomizm kamillik yolunun ən böyük .əngəllərindəndir. Bəli, müasir mədəniyyətin öz bütləri, öz Lat və Üzzası var

Bu vurhavurda həqiqi allahpərəstliyi, tövhidi anlaya bilərsənmi?! «Bu günkü insan ibadətdən düşüncəyə üz tutub» deyirlər. Əslində isə o, pərəstişdən, ibadətdən yox həqiqi Allaha pərəstişdən üz döndərib üz döndərib. O yenə də pərəstiş edir. Amma bu pərəstiş bütlər qarşısındadır. Müasir şirkin bütləri üç yüz altmışdan (Kəbədəki bütlərdən) daha çoxdur. Cahil ərəblər qızıldan düzəldilmiş, qırmızı yaqutla bəzənmiş gözəl bütlərə sitayiş edirdilərsə, əsrimizin müşrikləri adının çəkilməsi mümkün olmayan əzalara pərəstiş edirlər. Bəşəriyyətin ziddinə yönəlmiş həmin üç qüvvə həmişəkindən daha iqtidarlıdır. Fironun ordusu, Qarunun kapitalı, Bələmin ideologiyası qat-qat nüfuzedici olmuşdur. "Fələq" surəsində Allahın bir sifətinə sığınaraq üç şər qüvvə sadalanırdısa, "Nas" surəsində Allahın üç sifətinə sığınaraq, vur-tut bir şərr qüvvədən danışılır. "Fələq" surəsindəki üç şər qüvvə açıq düşmənlərdirsə, "Nas" surəsindəki şər qüvvə həqiqətə arxadan qılınc çalan gizli bir qüvvədir. Əvvəlki üç qüvvə millətləri buxovlayıb, qarət edib, azadlığını əlindən alırdısa, sonrakı gizli qüvvə .insanın şəxsiyyətini iflic edib, əsarət altına alır

Tarixi təcrübə Firona, Qaruna, Bələmə öyrətmişdir ki, bəşəriyyəti əsarət altına almaq üçün onu daxildən puça çıxarmaq, onun fitrətini dəyişmək daha asan yoldur. Bu şər o biri üç şərdən daha təhlükəlidir. Şər qüvvə hər yerdə eyni olsa da, həmin üçlüyün hakimiyyətində ən böyük faciəni Xənnas törədir. O, hər zaman maskadadır. Vəsvas həmin üç başlı əjdahanın zəhəridir. Məgər insanı behişdən çıxaran, həmin vəsvəsəçi İblis olmadımı? Vəsvas həmin üç şər qüvvədən doğulur. Amma onlardan qat-qat .təhlükəlidir. Quran öz son ayələrində Xənnasın həmin üç qüvvədən doğduğunu bildirir

Bu üç şər qüvvəni məhv etmək üçün yeganə yol ilahi agahlıqdır. İnsnları azdıran vəsvasın şərindən qurtulmaq üçün Allaha sığınmaq lazımdır. Bütün sifətləri özündə birləşdirən vahid Allahın yardımı ilə həmin üç şər qüvvənin bünövrəsini laxlatmaq olar. Habil cəmiyyətini qurmaq üçün İbrahim yolunu tutmaq zəruridir. Bu günkü dünya faciəni hiss etmişdir. Biz İbrahim yolunun varisləri olaraq dünya xalqlarına çıxış yolunu .göstərməliyik. Quran, Əhli-beyt və həcc, məsuliyyətimizi daha da artırmışdır

Zülm həmişəkindən daha güclü şəkildə yer üzünə hakimdir. Muzdurlar həmişəkindən daha fərasətlə çalışırlar. İnsan daha da zəifləmiş, cin və insandan olan şeytanlar isə .daha da güclənmişdir

Ey İbrahim məqamında duran! Çiynində ağır vəzifə var! Sən peyğəmbəri nümunə götürməli və xalqa nümunə olmalısan! Ey ümmətin məsulu, ey kitab əhli, ey ədalət tərəzisi, ey məzlumların köməkçisi, ey mücahid müsəlman! Gələcəkdə yer üzünün varisi olacaq məhrumların dəvətinə cavab ver. Zalımların zülmünü, sərmayədarların istismarını, bəsirət gözü kor dəccalların tüğyanını görən ziyalıların vicdanında son .imamın zühur əlamətləri görünməkdədir

Ey xalq üçün yaradılmış, ey peyğəmbər varisi, ey Bəni İsrail peyğəmbərlərindən üstün olan, sən zamanının şahidi, bəşəriyyətin şəhidi, təbiətin hakimi olmalısan. Ey eşq təvafından, səydən, Ərəfatdan, Məşərdən, Minadan, İsmail qurbanlığından qayıdan! Quranın sifarişi və Əlinin Zülfüqarı ilə silahlanıb, xalqına Zəmzəmdən sovqat gətirmisənmi?! Səndən bir ay uzaq düşmüş həris dünya nəhəngi indi acdır. Ağzını açıb, səni Yunis tək udmağa can atır. Öz imanını və etdiyin əhd-peyman haqqında düşün. Özünə, əsrinə, millətinə qulaq verib, agah vicdanların səsini eşit. Vəsvasın şərindən .ucalan nalələr ərşi bürüyüb

Bir çoxları bəşər mədəniyyəti üçün daxili düşmənləri daha təhlükəli bilir. Nümunə olaraq, dəli və sərsəmedici məsrəf göstərilir. Məsrəf, məsrəf, məsrəf! Marks deyir: "İnsan alət kimi bir yönümlü olmuşdur". Tanınmış mütəfəkkirlər əsrin insanını "sönmüş çıraqla özünü axtaran növə", "təpədən dırnağadək qızıla bürünmüş xəstə cəngavərə" bənzədirlər. Holland heykəltəraşlarının Roterdamda ucaltdığı insan heykəli, parçalanıb, məhvə sürüklənən bəşəriyyətinin real vəziyyətini gözəl ifadə edir. Onun !əzaları sanki indicə ovulub töküləcəkdir

Bəziləri bu günkü insanın cinssiz yunan tanrısı tərəfindən yaradıldığını vurğulayırlar. Dəyişmiş insan Kafkanın əsərlərində olduqca dəqiq təsvir olunur. Şəxsiyyətini itirmiş .insan obrazı təsviri sənətdə də əsas mövzulardandır

Ey bu faciənin agah qurbanı, sübh çağı ("Fələq") baş götürüb qaç! Qaranlıq gecə hər yeri bürümüşdür. Ovsunçular düyünləri üfürür. Həsədçillər ovsunçuların oyuncağı .olub, dostları qılınclayırlar

Fələqin, sübh çağının Allahına sığın! Qoy qadir Allah gecənin bağrını yarıb, öz nurunu Minaya atsın. Bil ki, həmin üç şər qüvvə simasını dəyişərək hücum üçün fürsət güdür. Ey Habil varisi, Qabil ölməyib! Ey mələklərin səcdə qıldığı Adəm varisi, İblis pusqudadır. O, xalqın qəlbinə şübhə toxumu səpməkdədir. Allaha sığın! Fələqin Allahına, xalqın !ixtiyar sahibinə, xalqın məbuduna

Ey hacı! Qurban bayramından sonra da Minada qal. Hər gün hər üç bütü yeddi dəfə !daşla. Bil ki, hər gün zilhiccədir, hər yer Minadır və bütün həyatın həcdən ibarətdir

səh:۱۰۷

## Nəticə

Artıq, Minada dayanacaq günləri başa çatmış, həcc Məkkə diavarları arxasında sona yetmişdir. Qarşıda daha bir təvaf, daha bir səy var. Bu təvaf və səyi zilhiccənin .sonunadək yerinə yetirməyə icazə verilir. Beləcə, həcc başa çatır

İbrahimin dəvəti ilə fərdi həyatdan ayrılıb həccə qatıldın, ağ ölüm libası geydin, cihad meydanına qədəm qoydun, Allaha beyət əli uzatdın, eşq dəryasında qərq olun, dünya çirkinliklərindən təmizlənib, insani şəsiyyətinə çatdın, su ardınca qaçdın, Ərəfatdan Məşərə, Məşərdən Minaya kamal yolu keçdin, İblisi daşladın, İsmailini qurbanlığa gətirdin! Bu əzəmətli səfəri bir qoyun kəsməkləmi başa vurursan?! Burada nə sirr var? Bu suala cavab verməyə məndə cürət yoxdur, qoy Allah özü cavab versin: "Onun ətindən özünüz də yeyin, əl açmayana və dilənçiyə də yedirin".(١) "Onlardan özünüz də yeyin, biçarə, zavallı yoxsula da yedirdin".(٢) Demək, bu əzəmətli səfər yoxsula əl .tutmaqla başa çatır

## Qayıdış

Ey hacı! İndi yolun haradır? Yoxsa gəldiyin dünyaya qayıdırsan? Ey rəmzlə İbrahimin rolunu ifa edən! Əgər aktyor əsərdə oynadığı rola tam daxil ola bilirsə, səhnə başa çatdıqdan sonra da bu roldan çıxa bilmir. Oynadığı rolun təsirindən öz keçmiş həyatı ilə vidalaşan aktyorlar olub. Sən isə sadəcə rol oynamırdın. Elə əvvəlcədən İbrahim olmaq məqsədi vardı. Kəbəni cismən tərk etsən də, ruhən ondan



---

١- [٣١] "Həcc", ٣٦.

٢- [٣٢] "Həcc", ٢٨.

.ayrılma! Ehram libasını soyunsan da, ruhun ehram halından çıxmasın

İsmailinlə Məkkəyə qayıt! Ey ibrahimi, ey büt sındıran, silahı yerə qoyma. Gir cəhalət alovunun içərisinə. Sən xalqı cəhalətdən xilas etməlisən. Bil ki, tövhid Allahı nəmrudların odunu ibrahimilərə gülzar edir. Sən xalqın boğazından zalımların qılıncını qaldırmalısan. Amma cəlladların əlindən qılıncı almaq üçün. İsmailini qurban kəsməyi bacarmalısan. İnan ki, İsmailin qurban kəsilməsinə Allah razı olmayacaq. Məqsəd .sənin fədakarlığını imtahana çəkməkdir

İbrahim indi sənin durduğun məqama çatdığı vaxt çox böyük imtahanlar vermişdi. O, fərdiyyətdən cəmiyyətə, bütyonan ailənin övladlığından peyğəmbərliyədək yol keçmişdi. O, ömrünün pir vaxtında İsmailllə birgə Kəbə evinin divarlarını qaldırmalı idi. İbrahim oddan, İsmail isə qurbanlıqdan keçmişdi. İndi isə hər ikisi azadlıq, eşq evinin .ucaldılmasına məşğul idilər

İbrahim məqamı! İndi sən bu məqamda durmusan. Bu nöqtə İbrahim meracının zirvəsidir. O, əzab-əziyyətlərdən, oddan-alovdan keçib, İsmailini qurban kəsməyə hazır oldu! İndi isə özü və oğlu üçün yox, xalq üçün, təqib olunanlara sığınacaq üçün ev !tikir. Bu iş zülmətdən məşəl qaldırmaq, zülmün qoynundan fəryad qoparmaqdır

Kəbə evi Allahın ailəsi olan məzlum xalq üçün sığınacaqdır. Yer üzü cəhalətə büründüyü bir vaxtda sən İbrahimin rolunda Allahla beyət etmisən! İndi İbrahim kimi yaşamalı, öz əsrinin iman Kəbəsini ucaltmalı, millətini cəhalət yuxusundan oyadıb !həqiqətə çağırmalısan

Ey Allahla əhd-peyman bağlayan, ey İbrahim davamçısı! Öz ölkəni cəhalətdən çıxar! Əsrini hərəkətə gətir! Bütün yer üzünü Allah üçün səcdəgah qərar ver! Hələki belə !deyil

səh:۱۰۹

## !Həcdən daha böyük: Şəhadət

İmam Hüseyn (ə) bizə çox böyük bir dərs verdi. O, həccini yarımçıq qoyub, şəhadətə üz tutdu. İmam Hüseynin ata-babası həcc yolunda cihad etdikləri halda, Hüseyn şəhadət yolunu seçdi. Bununla da bütün İslam ümmətinə anlatdı ki, yəzidlərin peyğəmbər taxtına varis olduğu bir zamanda Kəbəyə yox, Kərbəlaya üz tutmaq .lazımdır

Həcc bütsındıran İbrahimin yoludur. Tövhid ümmətinin burulğanı Allahın dəvətinə "ləbbeyk" deyərək, eşq və iman, həyəcan və qorxu ilə Kəbə başına fırlanır. Bu çöhrələr arasında peyğəmbər səhabələri, islam öncülləri, cihad qəhrəmanları, tövhid hamiləri, Quran hafizləri, həqiqi ruhanilər görünür. Onlar İbrahimlə əhd-peymanı təzələyirlər. Onlar dünyaya arxa çevirib, könüllərini Allaha bağlamışlar. Mələklər onların başına nur !ələyir, Cəbrail qanadlarını onların ayaqları altına sərir

Bəs bu burulğanı yarıb, şəhərdən çıxan kimdir? Hamı Kəbəyə üz tutduğu bir vaxtda o ?haraya üz tutmuş

Nə üçün imamın yarımçıq qoyduğu həcdə Kəbə başına fırlanan burulğanın mahiyyətini dərk etmək çətin olur? Dövrün imamı daha zəruri bir hədəfə üz tutursa, qalanlar kimdir? Məgər imamsız din varmı? Allahın dininin hifz və davamı üçün şəhadət yolunu ?seçmiş imam Məkkəni tərk edirsə, bu yol hamı üçün zəruri olmurmu

Onlarsa qalıb, Kəbənin başına fırlanır, Kəbədən Ərəfata, Ərəfatdan Məşərə, Məşərdən Minaya qaranlıq bir yol keçirlər. Onların daşlayacağı üç büt daşlardan zövq alır. İblis xalqı hər vasitə ilə Minada saxlayır. Çünki əsil döyüş Kərbəladadır. Minada olanlarsa, kəsdikləri qurbanları da öz nəfsləri yolunda kəsir. Onların əli həqiqətin qanına .bulaşmışdır. Onlar üç bütün hakimiyyəti altındadırlar

səh:۱۱۰

.Onların keçirdiyi qurban bayramı bəşəriyyətin məhvinin bayramıdır

Bəli, həqiqətə, dünyada baş verənlərə, üç şər qüvvənin cinayətlərinə, xalqların istismarına, islam gerçəkliklərinə, təcavüzə biganə qalaraq, Kəbənin başına dolanmaq !İblisin başına dolanmaqdır

İmam Hüseyn (ə) şəhadət yolunu seçir! Bu seçim bir daha bəşəriyyətə öyrədir ki, !islamın mahiyyətini İblisin mücəssəməsi ilə yox, muzdurları ilə cihad təşkil edir

səh:۱۱۱

## Mündəricat


HƏCC ................................... ١

OXUCU İLƏ SÖHBƏT ........ ٣

TƏRSİNƏ ÇEVRİLMİŞ XƏZ ...................٣

TƏƏCCÜB! ........................... ۴

DAHA TƏƏCCÜBLÜ! ........ ۴

BİRİNCİ BÖLMƏ: ............... ٧

İYİRMİ ÜÇ İL, İYİRMİ ÜÇ GÜN ............٧

İKİNCİ BÖLMƏ:.................. ٩

İBRAHİMLƏ VƏD YERİ .... ٩

ÜÇÜNCÜ BÖLMƏ: ............. ٩

MƏNASEK” (“HƏCC ƏMƏLLƏRİ”) ....٩“

HƏCC ................................ ١۵

MÖVSÜM .......................... ١۶

MİQATDA EHRAM .......... ١٨

NİYYƏT ............................ ٢١

MİQATDA NAMAZ .......... ٢١

EHRAM! ............................ ٢٣

EHRAM, YƏNİ HARAM ETMƏK! O, NƏLƏRİ HARAM EDİR? .................. ٢٣

HƏCDƏ EHRAM HALINDA HARAMLAR .....٢٣

KƏBƏ ................................ ٢٧

TƏVAF .............................. ٣٢

HƏCƏRÜL-ƏSVƏD (QARA DAŞ) .......٣۴

İBRAHİM MƏQAMI ......... ٣٨

SƏY (SƏFA VƏ MƏRVƏ DAĞLARI ARASINDA) ........................................ ۴٠

TƏQSİR", ÜMRƏNİN SONU, KİÇİK HƏCC ...۴۴"

BÖYÜK HƏCC .................. ۴۵

BÖYÜK HƏCC .................. ۴۵

ƏRƏFAT ............................ ۴۶

MƏŞƏR ............................. ۵١

HARAM ŞÜUR! ................. ۵٣

MİNA ................................. ۶٠

ŞEYTANI DAŞLAMA ....... ۶٧

QURBANLIQ ..................... ۶٨

ÜÇ BÜT ............................. ٧٩

BAYRAM .......................... ٨۵

BAYRAMDAN SONRAKI İKİ GÜN .....٨۵

ÜMUMİ BİR BAXIŞ .......... ٨٨

BAYRAMDAN SONRA DAŞLAMA ....٨٩

VƏHYİN SON SÖZÜ ........ ٩٢

NƏTİCƏ ........................... ١٠٨

QAYIDIŞ .......................... ١٠٨

HƏCDƏN DAHA BÖYÜK: ŞƏHADƏT! ..........١١٠

## Haqqında mərkəzi

Allahın adı ilə

Rəhman və Rəhimli olan Allahın adı ilə.Və bütün həmdlər aləmlərin rəbbi olan Allaha .məxsusdur

.Varlıq aləminin Kövsəri olan Həzrəti Fatiməyi Zəhraya (a) təqdim olunur

(Bilən kimsələrlə (alimlər) bilməyənlər (cahillər) eynidirlərmi? (Zümər sürəsi, ayə ۹

:Ön söz

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi ۲۰۰۶-cı ildən Mərhum Ayətullah Seyyid Həsən Fəqih İmaminin nəzarəti altında,elmi mərkəzlərdə tanınan görkəmli tələbələrin vasitəsi ilə məzhəb,mədəniyyət və elmi sahələrdə öz fəaliyyətinə .başlamışdır

:Məramnamə

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi təhqiqatçıların dini biliklərə rahət və tez bir zamanda yiyələnmələri üçün hər bir xidməti onların ixtiyarında qərar vermişdir.Və bu sahədə təəssübkeşlikdən,ictimai,siyasi,fərdi cəryanlardan uzaq duraraq yalnız və yalnız elmi sahədə ixlasla öz xidmətini həyata keçirməkdədir.Bu səbəbdən adı çəkilən müəssisə layihəsini həyata keçirmiş.Və tədqiqat üçün nəzərdə tutulmuş kitabları,məqalələri mütəxəssislər və müxtəlif təbəqələrdən olan insanlar üçün,bir neçə dillərdə və formalarda hazırlayaraq,heç bir məbləğ tələb etmədən sosial .medyada istifadəçilərin ixtiyarında qoymuşdur

:Hədəflər

Quran və Əhli beyt mədəniyyətini və maarifini yaymaq.۱

İnsanları,xüsusən gəncləri tam dəqiq şəkildə dini məsələləri araşdırmağa.۲ sövqləndirmək

Telefon,tablet və kompüterlərdə olan faydasız,yararsız mövzuların yerini .۳ faydalı,mənəviyyatlı mövzularla doldurmaq

.Təhqiqatla məşğul olan tələbələrə xidmət etmək.۴

.Kitab və elmi əsərlər oxumaq mədəniyyətini yaymaq.۵

.Müəlliflərin öz elmi əsərlərini digital formada yaymaq üçün onlara şərait yaratmaq.۶

:İcraçılıq

.Qanunla icazəli olan lisenziyaya malik əsərlərin yayımı.۱

.Bu mərkəz kimi xidmət göstərən oxşar mərkəzlərlə əlaqə.٢

.(Paralel xidmətlərdən çəkinmək (başqalarının etdiklərini təkrarlamamaq.٣

.Yalnız və yalnız elmi məsələləri yaymaq.۴

.Nəşriyyatın mənbələrini qeyd etmək.۵

.Qeyd:Kitabda olanlara görə məsüliyyət o kitabı yazan müəllifin öhdəsindədir

:Müəssisənin fəaliyyəti

.Kitabların çapı və nəşri.١

.Kitab oxumaq müsabiqələrinin təşkili.٢

.Məcazi sərgilərin istehsalı.٣

.Kompüter oyunlarının istehsalı.۴

Qaimiyyə internet saytının yaradılması:www.ghaemiyeh.com.۵

.Sərgi məhsullarının və moizələrin istehsalı.۶

.Şər'i,əxlaqi və etiqadi suallara cavab.٧

.Mühasibat,mətbuat yaratmaq və sms... sistemlərinin layihəsi.٨

.Təlim kurslarının həyata keçirilməsi.٩

Tərbiyəçi şəxslər hazırlamaq üçün təlim kurslarının təşkili.١٠

Kompüterdə,tabletdə və telefonlarda icrası mümkün olan minlərlə proqramların.١١ dünyada məşhur olan səkkiz formada istehsalı

JAVA.١

ANDROID.٢

EPUB.٣

CHM.۴

PDF.۵

HTML.۶

CHM.٧

GHB.٨

.v.Qaimiyyə kitab bazarı adına dörd market

ANDROID.١

IOS.٢

WINDOWS PHONE.٣

WINDOWS.۴

deyilənlər müəssisənin veb saytında Fars,Ərəb,İngilis və Azərbaycan dillərində pulsuz

.istifadəyə verilmişdir

:Sonunda

Mərcəi təqlid müctəhidlərin dəftərxanalarından (ofis),müəssisələrdən,nəşriyyatçılardan,müəlliflərdən və əməyi olan bütün şəxsiyyətlərdən bizlərə hədəfə çatmaqdan ötrü yardım etdikləri üçün səmimi qəlbdən .təşəkkür edirik


:Mərkəzin ünvanı

İsfahan-Əbdurrəzzaq küçəsi-Hacı Muhəmməd Cəfər adına bazar-Şəhid Muhəmməd Həsən Təvəkküli küçəsi-blok۱۲۹/۳۴-birinci mərtəbə

veb sayt:www.ghbook.ir

mail:Info@ghbook.ir

mərkəzin ofis telefonu: ۰۰۹۸۳۱۳۴۴۹۰۱۲۵

Tehran ofisi: ۰۰۹۸۲۱۸۸۳۱۸۷۲۲

Biznes və alqı satqı: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹

Mərkəzdə çalışan insanlarla əlaqə yaratmaq üçün nəzərdə tutulan nömrə: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹


İsfəhan Qaimiyyə kompüter
araşdırmalar mərkəzi
Qaimiyyə
www
Başqa kitabxanaya sahiblənmək üçün
gördüyünüz sayt mərkəzinə müraciət
etməniz lazımdı:
www.Ghaemiyeh.com
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.ir
Və sifariş üçün bizimlə əlaqə saxlayın:
(0098)0913 2000 109